ATALARIMIZIN SÖZLƏRI

Bir yerə yığan: Vəhid Gərüsli
www.sce.carleton.ca/~vahid

Tarix: 2005-ci yilin Fevral ayi
Ottava Şəhəri, Kanada

Mündərəcat Cədvəlı

(Bu kitabda, Ata-Babalar sözləri başlayan hərflə mürəttəb olmuşdular)

A 3
B 8
C 18
Ç 20
D 22
E 33
F 37
G 38
H 42
İ 48
K 53
L 58
M 59
N 63
O 66
Ö 67
P 70
Q 72
R 75
S 76
Ş 82
T 84
U 87
Ü 89
V 90
Y 92
Z 99

© Kopy huqugu məhfuzdur-2005, Vəhid Gərüslı

Bioqrafiya

Vəhid Gərüsli 1978-ci yildə Günəy Azərbaycanin Miyana şəhərində anadan doğuldu. Vəhidin orta məktəb yilləri Miyana şəhərində və ali məktəb dovrəsi Təbriz şəhərində geçdi.Vəhid bilgisayar mühəmdislik dərəcəsin 2000-ci yildə Tehranin Şərif üniversitesindən kəsb etdi. Mühəmdislik dərəcəsini alandan sonar, o bir yil Tehranin ən prestijli softver kampanilərində Softver memar və databeys təhlilçi unvanlarila çalışdı. Vəhid 2001-ci yildə İrani tərk etdı, Kanadaya koçdi və yuksək mühəndislik təhsilatin Kanadanin məşhur və prestijli Vaterlu (Waterloo) üniversitəsində dəvam etdi. Vəhid 2003-ci yildə yuksək mühəmdislik dərəcəsin Vaterlu üniversitəsindən kəsb edəndən sonra Kanadanin baş şəhəri Ottavada vaqe olan üniversitə Karlton (Carleton)da PhD təhsilin softver keyfiyyət fildində dəvam etdi. Vəhid oz təhsil dovranindan müxtəlif yüksək təltiflərə nayil olmuşdur. Bu yüksək təltiflərdən bırısı, İran islam cümhuriyyətinin 1996-yilindəki olkə səviyyəsində bərqərar olan üniversitə giriş riqabətdeydir ki Vəhid 61-ci məqami ələ gətirdi. Deməlidir ki o riqabətdə, məcmuda 490,000 min nəfər oyrənci şirkət etmişdir.

Vəhid-lə bu email adresdə əlaqə saxliya bilərsınız: vahid@sce.carleton.ca
Vəhidin rəsmi veb səhifəsi: www.sce.carleton.ca/~vahid

Biography (in English)

Vahid Garousi was born in 1978 in Miyaneh, Azerbaijan, Iran. He received his BSc degree in Software Engineering from the Department of Computer Engineering at Sharif University of Technology, Tehran, Iran in 2000. After graduation, he worked for one year in software companies in Tehran as Software Architect and Database Analyst. He then left Iran for Canada in 2001 to continue his graduate studies. He got his MASc degree in Electrical and Computer Engineering from the Department of Electrical and Computer Engineering at the University of Waterloo, Waterloo, Canada in 2003. He is currently a PhD candidate in the area of Software Quality Engineering at the Department of Systems and Computer Engineering in Carleton University, Ottawa, Canada. He is expecting to finish his PhD by 2006. Among his awards is the rank 61st in Iranian Nation-wide University Entrance Competition (Konkoor) among about 490,000 students from all over the country in year 1996.

Vahid can be reached at vahid@sce.carleton.ca
His home page is at www.sce.carleton.ca/~vahid

© Kopy huqugu məhfuzdur-2005, Vəhid Gərüslı

Təqdim edirəm:
Canlarindan geçən ana və atama,
Yusif və Sürəyya

© Kopy huqugu məhfuzdur-2005, Vəhid Gərüslı

A

Abırlı abrından qorxar, abırsız nədən qorxar?
Abırsızdan abrını saxla.
Avazın yaxşı gəlir oxuduğun Quran olsa?
Ağ divara hansı rəngi yaxsan, tutar.
Ağ köpək, qara köpək, ikisi də köpəkdir.
Ağ gün (adamı) ağardar, qara gün qaraldar.
Ağ gün qara günü yaddan çıxardar.
Ağac bar verəndə başını aşağı dikər.
Ağac kökündən su içər.
Ağac yaş ikən əyilər.
Ağac kölgəsiz olmaz, insan sevgisiz.
Ağac öz kökü üstə bitər.
Ağac tutan baş yarandan çoxdur.
Ağacı qurd içindən yeyər.
Ağacı meyvəsindən tanıyarlar.
Ağzına söz atıblar.
Ağzına su alıb.
Ağzını qoyub allah yoluna.
Ağzını xeyirliyə aç!
Ağzının qaytanı yoxdur.
Ağız deyəni qulaq eşitmir.
Ağıl ağıldan üstündür.
Ağıl bazarda satılmaz.
Ağıl başın böyüklüyündə deyil.
Ağıl insana sərmayədir.
Ağıl yaşda deyil, başdadır.
Ağıl gücdən üstündür.
Ağıla paxıllıq olmaz.
Ağıllı bizi tapmaz, dəli bacadan düşər.
Ağıllı bildiyini söyləməz, dəli söylədiyini bilməz.
Ağıllı bir dəfə aldanar.
Ağıllı dostunu hər zaman xatırlar, ağılsız isə işi düşəndə.
Ağıllı düşməndən qorxma, dəli dostdan qorx.
Ağıllı kişi qışın qeydinə yayda qalar.
Ağıllı olub dərd çəkincə, dəli ol – dərdini çəksinlər.
Ağıllı uşaq bələkdə özünü göstərər.
Ağıllı fikirləşincə dəli çayı keçdi.
Ağıllıya işarə, dəliyə kötək.
Ağıllının ağzı qəlbində olur, axmağın qəlbi – ağzında.
Ağlamaq fayda verməz.
Ağlamayan uşaqa süd verməzlər.
Ağlınla gör, qəlbinlə eşit.
Ağrımaz baş qəbirdə olar.
Ad adamı bəzəməz, adam adı bəzəyər.
Adı var, özü yox.
Adı qulağına bitişib.
Adı dillər əzbəridir.
Adı it dəftərində də yoxdur.
Adın tut, qulağın bur.
Adam adamdır, olmasa da pulu, heyvan heyvandır, atlas olsa da çulu.
Adam başından böyük danışmaz.
Adam var ki, adamların naxşıdır,
Adam var ki, heyvan ondan yaxşıdır,
Adam var ki, dindirərsən «can» deyər,
Adam var ki, dindirməsən yaxşıdır.
Adam var ki, yemək üçün yaşayır, adam var yaşamaq üçün yeyir.
Adam var ki, rəhmət aparar,
Adam var ki, lənət aparar.
Adam qabağına çıxartmalı deyil.
Adam qocalanda ikinci dəfə uşaq olur.
Adam yanıla-yanıla adam olar.
Adam yıxıldığı yerdən qalxar.
Adam gedər, adı qalar.
Adam gərək arxasız olmasın.
Adam gərək özü öz həkimi olsun.
Adam odur, «Dur get»i «Buyur, əyləş»dən tez başa düşsün.
Adam öz tayını-tuşunu tapmasa günü ahvayla keçər.
Adam paltar ilə tanınmaz.
Adam soruşub öyrənməklə alim olar.
Adam sözünü adama deyər.
Adam hər düşməndən bir ağıl öyrənər.
Adam hər işıq gələn yerə pambıq tıxmaz.
Adama adamlıq lazımdır.
Adama sözü bir dəfə deyərlər.
Adamı adam eləyən paradır, parasız adamın üzü qaradır.
Adamı dindir, sonra qiymətini ver.

©2005 - Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

Adamı işi ilə tanıyarlar.
Adamı sözündən tutarlar, heyvanı buynuzundan.
Adamın adı pisliyə çıxınca canı çıxsa yaxşıdır.
Adamın ayağından çəkən çox olar.
Adamın axır günü xoş olsun.
Adamın başına nə gəlsə dilindəndir.
Adamın dili ilə ürəyi bir olsun gərək.
Adamın dinməzindən qorx.
Adamın dostu dar gündə bəlli olar.
Adamın əvvəli olunca, axırı olsa yaxşıdır.
Adamın malı gözünün qabağında gərək.
Adamın öz yavan çörəyi özgənin plovundan yaxşıdır.
Adamın ölümü – mollanın bayramı.
Adamın üzünə baxarlar, halından xəbər tutarlar.
Adamın ürəyindəkini bilmək olmaz.
Adamın hüsnünə baxma, ağlına bax.
Adamların qorxusundan doğrunu demək olmur, allahın qorxusundan – yalanı.
Adamlığı adamdan istə, xoş ətri – qızılgüldən!
Adət qanun deyil, amma qanun qədər hökmü var.
Az-az ye, həmişə ye.
Az danış, yaxşı danış.
Az danış, çox qulaq as.
Az ye, öz çörəyini ye.
Az olsun, yaxşı olsun.
Aza qane ol, çoxu allahdan istə.
Azın qədrini bilməyən çoxun da qədrini bilməz.
Ailə xoşbəxtliyin açarıdır.
Ailəsinin qədrini bilməyən el-obasının da qədrini bilməz.
Ay aydın, onun da üzündə ləkə var.
Ayağını yorğanına görə uzat.
Ayda-ildə bir namaz, onu da şeytan qoymaz.
Ayaq islanmayınca balıq tutulmaz.
Ayaq üstə ölmək diz üstə yaşamaqdan yaxşıdır.
Ayaqqabı dar olanda dünya başa zindan olar.
Ayı meşədən küsüb, meşənin xəbəri yox.
Ayının boğazına su çıxanda balasını ayağının altına alar.
«Al ver» deyiblər, «al vermə» deməyiblər.
Alan olmasa, satan da olmaz.
Alanda yaxşıdır, verəndə pis?
Alacağını yadında saxladığın kimi verəcəyini də yadında saxla.
Alim olmaq asandır, adam olmaq çətin.
Allah ağzından eşitsin!
Allah ağıl paylayanda harada idin?
Allah adamın ömründən kəsib bəxtinə calasın.
Allah bacadan tökməz, gərək özün çalışasan.
Allah bilən yaxşıdır, məsləhət onundur.
Allah bir yandan bağlasa, bir yandan açar.
Allah bir kəsə qəzəb eləmək istəsə əvvəlcə onun ağlını başından alar.
Allah var, rəhmi də var.
Allah verəndə yox yerdən verər.
Allah verib, allah da aparıb.
Allah verməyəndə bəndə neyləsin?
Allah qardaşı qardaş yaradıb, kisələrini ayrı.
Allah dəvəyə qanad versəydi, uçurmadığı dam-daş qalmazdı.
Allah dərdi çəkənə verər.
Allah insana bir ağız, iki qulaq veribdir, bu da bir söyləmək, iki eşitmək üçündür.
Allah kimə pay verməyi yaxşı bilir.
Allah kora necə baxsa, kor da allaha elə baxar.
Allah sağ əli sol ələ möhtac eləməsin.
Allah tənbəli sevməz.
Allah heç kimi arxasız qoymasın.
Allaha da özünü plov yeyən tanıtdır.
Allaha inanmayan bəndəyə də inanmaz.
Allahın işini bilmək olmaz.
Allahın yarası da var, çarəsi da.
Alma öz ağacından uzağa düşməz.
Alnına nə yazılıb, onu görəcək.
Altmışında at minmək öyrənən qiyamət meydanında çapar.
Altmışında zurna çalmaq öyrənən axirətdə çalar.
Aman deyəni öldürməzlər.
Ana evin dirəyidir.
Ana olanda kişi anası ol.
Ana səbri böyükdür.
Ana tökəni bala yığar.
Ana ürəyi – dağ çiçəyi.
Ana haqqı – tanrı haqqı.
Anadan əmdiyim süd burnumdan gəldi.
Anadan olmayan qardaş sayılmaz.
Analar bizi bu gün üçün doğub.
Anam elə çox bilir ki, kündəni xırda tökür, atam elə çox bilir ki, ikisini birdən ötürür.
Ananın ərköyün oğlu hambal olar.

Ananın keçdiyi körpüdən qızı da keçər.
Ananın canı övladdadır.
Anası gəzən ağacları balası budaq-budaq gəzər.
Anası namaz üstündə imiş.
Anasına bax, qızını al, qırağına bax, bezini al.
Anasından ayrılan quzunu qurd yeyər.
Anlayan bir qıldan da anlar.
Anlayana bir söz bir kitabdır.
Anlayana bircə milçək də sazdır, anlamayana zurna-qaval da azdır.
Arsız qocalmaz.
Aralarından tük keçmir.
Arvad almamış övlad arzusu eləmə.
Arvad ilə at - igidin bəxtinə.
Arvad var, ev yığar, arvad var, ev yıxar.
Arvad qohumu şirin olar.
Arvad iki olanda ev süpürülməmiş qalar.
Arvad yıxan evdən allahın xəbəri yoxdur.
Arvad yıxan evi fələk də yıxa bilməz.
Arvad malı alçaq qapıdır, bir girəndə alnına dəyər, bir çıxanda.
Arvad papaq deyil ki, başdan-başa qoyula.
Arvad, sən içəridən, mən bayırdan, yaxşıca ev tikərik.
Arvad şeytana papış tikər.
Arvadı əri saxlar, pendiri dəri.
Arvadı bəd olanın saqqalı tez ağarar.
Arvadın axır hiyləsi ağlamaqdır.
Arvadın biri - əla, ikisi - bəla
Arvadın isməti - ərin izzəti.
Arvadsız ev, susuz dəyirman.
Arvad üzlü kişidən, kişi üzlü arvaddan əlhəzər.
Arzu arzudan doğar.
Arzu bir, ümid iki.
Arzu quyudur, doldurmaq olmaz.
Arzu geniş, ömür qısa.
Arzunun sonu yoxdur.
Artıq tamah daş yarar, daş qayıdar baş yarar.
Artıq tikə diş qırar.
Arxasını yerə vermir.
Aslan ölində də aslandır.
Aslanın nə erkəyi, nə dişisi?
Aslanın qorxusu qarışqadan olar.
Aslanlar yurdunda tülkülər gəzir.
Asta atın təpiyi bərk dəyər.
Astarı üzündən baha.
Ata malı tez tükənər.
Ata malına göz tikən malsız qalar.
Ata malından mal olmaz, özün qazanmaq gərək.
Ata oğlunun pisliyini istəməz.
Ata olmaq asandır, atalıq öyrənmək - çətin.
Ata olmayan ata, ana olmayan ana qədrini bilməz.
Atadan qalan mal yanan şama bənzər, əriyib qurtarar.
Atalar nə əkiblər, oğullar onu biçiblər.
Atan soğan, anan sarımsaq, hardan oldun gülməşəkər?
Atana necə baxarsan, övladın da sənə elə baxar.
Atana hörmət elə, oğlun sənə hörmət edər.
Atası ölən yetim qalmaz, anası ölən yetim olar.
Atdan düşən yenə atlanar.
Ata-ananın qoca vaxtında oğul əlindən tutar.
Ata-ana tərbiyə etməyəni həyat tərbiyə edər.
Axırda gülən yaxşı gülər.
Axmaq axmağı tapar.
Axmaq özünə düşməndir, özgəyə necə dost ola bilər?
Axtaran tapar.
Axşamın işini sabaha qoyma.
Ah yerdə qalmaz.
Açaram sandığı, tökərəm pambığı.
Ac ayı oynamaz.
Ac aman bilməz.
Ac qalmaq borclu olmaqdan yaxşıdır.
Ac qurd balasını yeyər.
Ac deyər: - Doymaram!
Tox deyər: - Acmaram!
Ac toyuq yuxusunda darı görər.

©2005 - Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

B

Baba olmadı, vəba oldu.
Baba paltarı geyərsən, baba olarsan.
Babadan hümmət – nəvədən xidmət.
Babanın əlindən nəvə tutar.
Babanın üzünü ağardan nəvəsi olar.
Bablı baba ilə, su qullabı ilə.
Bablı babın tapmasa, işi ah-vayla keçər.
Baqqal, qəssab – hər ikisi bir hesab.
Baqqal daşdan kəsər, siçan baqqaldan.
Baqqal ölülərin borcun dirilərə yüklər.
Bağ alma bağlanarsan, dağ alma dağlanarsan, qoyun al, yağlanarsan.
Bağ bağbansız olmaz, dəvə sarbansız.
Bağ belə, bostan belə, tənəkləri şələ-şələ!
Bağ kəsmək eşşəkdən qalıb.
Bağ salan barın yeyər.
Bağ satıb, dağ alıb.
Bağa bağ deməyiblər, bax deyiblər.
Badə ki, bir şərabdır hər kəs ondan içməlidir, ölmək ki, bir körpüdür, hər kim ordan keçməlidir.
Bağa bağban lazımdır, qoyuna – çoban.
Bağa bax, barını gör.
Bağa bax üzüm olsun, yeməyə üzün olsun.
Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.
Bağa çanağından çıxdı, çanağını bəyənmədi.
Bağanı ya öldür, ya dalısı üstə qoy.
Bağban bir gül üçün, min xara xidmətkar olar.
Bağa yol gedə bilməz, evini dalında gəzdirər.
Bağban tələsər, armud vaxtında yetişər.
Bağbanın bar vaxtı, qulağı ağır eşidər.
Bağbanın könlü olsa, nə gəlib bağda paya?
Bağda əlləşənin qurşağı qığ olar.
Bağda ərik var idi, salam-əleyk var idi, bağdan ərik qurtardı, salam-əleyk qurtardı.
Bağda gülə baxarlar.
Bağım var, bağım var, – tuman bağı!
Bağında gül var ikən – gül üzünə, bağında gül qurtardı – kül üzünə.
Bağça bağın qıydı, bağban salxım da qıymadı.
Bağlı qapıya xəta dəyməz.
Bağça məndə, bar məndə, heyva məndə, nar məndə, könlüm əttar dükanı, nə istəsən var məndə!
Bağçalar sarı, heyvası narı, hamı dinsə də, sən dinmə barı.
Bədnan gələn, bədnan gedər.
Bazar ata-ana tanımaz.
Bazar baqqalsız, meşə çaqqalsız olmaz.
Bazar quruldu, hesab duruldu.
Bazar içində it qulağı kəsməzlər.
Bazar yansın, amma, mənə bir manat qazanc olsun.
Bazar olsun bazarın!
Bazar çörəyi çox olsun, bazarda olsun.
Bazar şeytan yuvasıdır.
Bazara gedər – yağış yağar, dəyirmana gedər – qırğın olar.
Bazarda bez ucuz olanda adam özünü öldürməz.
Bazarı kasad olan mərdanə gərək olsun.
Bazarın bazar, qadam sənə, mərdimazar.
Bazarın əvvəl!
Bazara gəldi qul alan kül başına dul alan,yerin cənnətdə olsun, qız əlindən gül alan.
Bazarın gözün çıxarıb.
Bayquş gündə üç sərçə yeyər.
Bayquş xarabalığı gülüstana deyişməz.
Bayquşun da dar olmasın qəfəsi.
Bayquşun ruzisi ayağında gedər.
Bayram bəyi olub.
Bayram sümüyü ilə köpək kökəlməz.
Bayraməlisiz toy olmaz.
Bayırı kaşi-çini, içərisi toyuq hini.
Bakı yetim-yesir məskənidir.
Bakı Şərqin qapısıdır.
Bakıda qazan – Tiflisdə xərclə.
Bakıda işlə – Gəncədə dişlə.
Bakılı cüt danışar, şəkili – qaş-gözlə, dərbəndli – kəllə ilə.
Bal verən çiçəyi arı tanıyar.
Bal dedim, bəlaya düşdüm.
Bal tutan barmaq yalar.
Bal tutanın arısı Şamdan gələr.

Bala quşun ağzı böyük olar.
Bala dadı, bal dadı, bala adam aldadı, şirini şirin olur, acısı da bal dadı.
Balı da sənin, bəlası da.
Balı dibindən, yağı üzündən.
Balı əli uzun olan yeməz, qismət olan yeyər.
Balı olana doşab satmazlar.
Balın yoxdur, bal kimi dilin olsun.
Balını ye, arısını soruşma.
Balsız şanda arı durmaz.
Balçı qızı – daha şirin.
Balçının var bal tası, odunçunun baltası.
Balağa girdi bağa, bir quş tutdu, o da qurbağa.
Bala bağır ətidir.
Bala baldan şirindir.
Balalı qarğaya pay düşməz.
Balasız da ağlar, balalı da.
Bahasına pul vermişəm, gözlərim də çıxsa yeyəcəyəm.
Balaca ağaca çıxıb, böyük budaq silkələyir.
Balacanın dərdi də balacadır.
Baldızıma Quran qənim olaydı, qaynanamı bağda ilan çalaydı, qaynatama Məkkə qismət olaydı.
Baldız elə baldızdır, bacısı sağ olsun.
Baldız – çuvalduz hərdən gələr sancar, gedər.
Balıq balasını da ovlar.
Balıq balığı udmasa – dəryanı balıq tutar.
Balıq başından iylənər, camış ayağından.
Balıq istəyən – özünü suya vurar.
Balıq istəyənin quyruğu buzda gərək.
Balıq kimi qulağı şır-şırdadır.
Balıq suda ikən bazarlıq olmaz.
Balıq sudan çıxdı – öldü.
Balıq tora düşəndən sonra ağlı başına gələr.
Balıq tutan islanmaqdan qorxmaz.
Balıq tutan suyu bulanıq istər.
Balığı ya öldür, ya sudan çıxart.
Balığı nə vaxt tutsan təzədir.
Balığın böyüyü tabaq altındadır.
Balta ağac kəsməzdi, sapı ağac olmasaydı.
Balta görməyən bağ meşə olar.
Balta öz sapını kəsməz.
Banlayan toyuq mollaya düşər.
Bar vaxtı bağbana salam verən çox olar.
Bar verən ağaca daş atarlar.
Barsız ağaca daş atmazlar.
Barlı ağacın başına dolanarlar.
Barmaq hesabı verir.
Barmağı işin içindədir.
Barmağın hansını kəssən, ağrısı birdir.
Barmağımın beşini də bal eləyib ağzına soxsam, deyər: – Zəhərdir.
Barmağımın onunu da şam eləyib gözünə soxsam, deyər: – Görmürəm!
Barıt ilə odun dostluğu olmaz.
Barıtı qurtarıb.
Basılanı əzməzlər.
Batırmayan ocaq başı qoymayıb.
Batman qara daşdan, yaxşılıq iki başdan.
Bax mənə, baxım sənə.
Bax mənə bir gözlə, baxım sənə iki gözlə.
Baxma deyənə, bax dediyinə.
Baxmaq kirayə istəməz.
Baxmaqla qarın doymaz.
Baxmaqla öyrənmək olsa, itdən qəssab olar.
Bahalıqda aldığımı,ucuzluqda sataram.
Bahalıqda çörəyin əsirgəyən ucuzluqda yalqız qalar.
Bacaran bal yeyər.
Bacarana can qurban!
Bacarmadığın bir işi «bacararam!» demə.
Bacarıq ağlın nişanəsidir.
Bacarsan hamının yükünü sən daşı.
Bacasının əyriliyinə baxma, tüstüsünün düz çıxmasına bax.
Bacı bacı deyil, qız qardaşdır.
Bacı ki, evdən çıxdı, ixtiyarı səndən çıxdı.
Bacı oğludur, haqq almaz, dayıdır, qu unun dişisini verər.
Bacı oğlunu dayısı tanıdar bacı qızını xalası.
Baş ağır, papaq yüngül gərək.
Baş ağrıyanda allah yada düşər.
Baş-başa verməyincə, daş yerindən qopmaz.
Baş bədənin tacıdır, gözlər onun qaş-daşı.
Baş bostanda bitməz.
Baş vermək olar, sirr vermək olmaz.
Baş əyməklə baş ağrımaz.
Baş yoldaşı azdır, aş yoldaşı çox.
Baş namərd əlindədir, nə kəsir, nə bağışlayır.
Baş ol, istərsən lap soğan başı ol.
Baş olmayan gövdə leşdir.
Baş olsun, börk tapılar.

Baş sınar bel içində, qol sınar kürk içində.
Baş hara gedərsə, ayaq da ora gedər.
Baş ürəkdən su içər.
Başa düş, başımı yar.
Başa düşənə milçək səsi düşməyənə zurna-qaval.
Başa düşənə can qurban.
Başaçığın qaçan yeri – papaqçı dükanı.
Başbilənsiz iş olmaz.
Başda oturan baş olmaz.
Başda tük olsun, daramağa nə var?
Başdan papaq apardır.
Başlı başın saxlasın, mən başımdan bezaram.
Başı ağ, ürəyi qara!
Başı baş edən – ayaq, ayağı ayaq edən – dayaq.
Başı başına, başmağı da ayağına.
Başı bədəninə ağırlıq eləyir.
Başı böyükdür, beyni yox.
Başı daşdan-daşa dəyməyincə ağlı başına gəlməz.
Başı əlhəd daşına dəyməsə olmaz.
Başın keçəl, gözün kor, bəs sənin haran yaxşıdır?
Başına quş qonmayıb ki?
Başımı qaşımağa vaxtım yoxdur.
Başımı yarır, ətəyimə qoz tökür.
Başımı kəs, xatirimə dəymə.
Başımı sındır, məzənnəmi sındırma.
Başın bədəninə ağırlıq eləyir?
Başın böyüklüyü dövlətdir, ayağın böyüklüyü möhnət.
Başın tükü ayağına salama gəlib.
Başına dəyirman daşı qoysalar xəbəri olmaz.
Başına gələn başmaqçı olar.
Başına gələn bilər.
Başına tənbəki oyunu açıb!
Başında köhnə hava qalıb.
Başından böyük danışma!
Başını qatlayıb it qabağına qoyma.
Başını daz eyləmə, hər daz bir taledə olmaz.
Başını divara vurur.
Başını itirən tükü üçün ağlamaz.
Başını yarıb ətəyinə qoz tökür.
Başlanmış iş yarı olmaq deməkdir.
Başlı başın saxlasın.
Başmaq palçıqsız olmaz.
Başmaq cütlənəndə məlum olar.
Başmağını geyə bilərsən, yerişimi yeriyə bilməzsən.
Başmağını cütlədilər.
Başmağından xeyir görən, patavasından çəkər.
Başmaqçının başmağı yırtıq olar.
Başmaqçının başmağı olmaz.
Başqasına köynək oldun, mənə barı xiştək ol.
Başqasına pislik edən özünə etmiş olar.
Başqasının əli ilə aş yeyənin qarnı doymaz.
Bez istəyirsən – Zəncana get, ölüm istəyirsən – Gilana.
Belə ağzın var, çoxlu saqqız çeynə.
Belə də qalmaz, belə də getməz, bir gün olar bəxt oyanar.
Belə yatan öküz Yük götürməz.
Belə malın var, apar Cəfərabad bazarına.
Beş barmağım kimi bilirəm.
Beş ilin öküzü, qırx ilin qazısın aldadır.
Beş gün yaraq, bir gün gərək.
Beşdə alacağım yox, üçdə verəcəyim.
Bəd övlad xətaya ürcah olar.
Bəd at özün gözlər, yaxşı at igidi.
Bədbəxt ova çıxdı, dağları duman aldı.
Bədbəxtin atı çox getməz.
Bədən başa deyir: – Saxla məni, saxlayım səni.
Bədənini təmiz saxla, qəfil əcəl gələr.
Bədrəng özü də bir rəngdir.
Bədəsili başa çəkərsən, sürüşər ayağa düşər.
Bədəsildən əsil olmaz, doyunca qızıl qala.
Bədəsildən əsil olmaz, qaçan qızdan – xanım!
Bəzən az tamah çox ziyan verər.
Bəzən dəli də ağıllı söz deyir.
Bəzən dirilər ölülərə həsəd aparır.
Bəzən düz yerdə də insan büdrəyir.
Bəzən tanrıya da ağ olur insan.
Bəzənirəm ağadan qorxuram, bəzənmirəm – xanımdan.
Bəzənmisən bu kündəsən, bəzənməsən nə gündəsən?
Bəy verən atın dişinə baxmazlar.
Bəy dediyin nədir, bəyənmədiyin nədir?
Bəy ilə bostan əkənin tağı belində bitər.
Bəy ilə dalaşmaq dirəklə güləşməyə bənzər.
Bəy ilə bəy dalaşdı, nökərin başı yarıldı.
Bəy ilə dost olanın tövləsi dolu olar, samanlığı – boş.

Bəydən gəlmiş nökərəm, dişlərini tökərəm!
Bəyə bel bağlayanın heybəsi çiynində gərək.
Bəyə inanma, suya dayanma.
Bəyin əli cibindən çıxınca, kasıbın canı çıxar.
Bəyin kölgəsindən it kölgəsi yaxşıdır.
Bəyin çeşməsindən su içmə.
Bəy evindən küt gəldi, dalınca da it gəldi.
Bəkməz satana da lənət, bəhməz alana da!
Bəla başının üstünü alıb.
Bəla bəla gətirər.
Bəla bəla üstündən gələr.
Bəla gələndə «gəlirəm» deməz.
Bəla həmişə yaxşı adamı tapar.
Bəla cana gələcəksə, mala gəlsin.
Bəladan qaçan bəlaya düşər.
Bəladan qaçmaq olmaz.
Bəlaya səbir gərək.
Bəlasını mən çəkdim, səfasını ellər.
Bələdsiz yola çıxan yolun azar.
Bələdçiyə yol göstərməzlər.
Bələdçiliyə gedən yorulmaz.
Bəlin də yandırdı məni, hərin də yandırdı məni.
Susadım su istədim, suyun da yandırdı məni.
Bəlin şəkər, nazın kim çəkər?
Bəlkə də qaytardılar.
Bəlkə getdin gəlmədin?
Bəlkəyə heç nə vermirlər.
Bəlkəni əkiblər – bitməyib.
Bəndə bəndəyə neylər, tanrı gözdən salmasa?
Bərdə Qarabağın darvazasıdır.
Bərəkət ondur, onu da düzlük
Bərəkət harda var? – Böyüklü yerdə.
Bərəkət hərəkətdədir.
Bərəkətin bir yanı xırmandır, bir yanı nənənin ətəyi.
Bərkdə-boşda əli yoxdur.
Bərkdən bir çıxar, boşdan iki.
Bərkdən-boşdan çıxmış adamdır.
Bəslə qarğanı – ovsun gözünü.
Bəsləsən atlas olar tut yarpağından.
Bəxt dönəndə burunun suyu gözə damar.
Bəxti yar olanın yar sarar yarasını.
Bəxti yox idi, bədbəxtliyi kömək elədi.
Bəxtim bəxtindən küsüb.
Bəxtim olsaydı anadan qız doğulardım.
Bəxtin yatdı, sən də yat.
Bəxtin gətirəndə bədbəxtliyini yadan çıxartma.
Bəxtini buzda sına oğulda, qızda sına!
Bəxşiş atın dişinə baxmazlar.
Bəxşiş var xalvarla, hesab var dinarla.
Bəhanəçiyə bəhanə əskik olmaz.
Bəhslə Həccə gedən yollarda sərgərdan olar.
Bəşər şeytansız olmaz.
Biz bu saqqalı dəyirmanda ağartmışıq.
Biz qane olduq qaza, qaz özün qoydu naza.
Biz də adəm övladıyıq.
Biz evləndik – gülüşü dərdik, sən evləndin – barmağın bala batdı.
Biz gəldik gəlin görməyə, gəlin getdi təzək yığmağa.
Biz gülünü dərdik, siz gülabını çəkərsiz.
Biz ondan yoğurt umuruq, o bizdən ayran istəyir.
Biz ümid olduq daza, daz özün qoydu naza.
Biz çörək vermədik çörək istəyək, biz çörək verdik ki, çörəkli olaq.
Bizə gələn keçəlin saçı dabanından olar.
Bizim eşşək əvvəldən quyruqsuz idi.
Biyara get, bekar qalma.
Bikar sözü ilə arvad alma.
Bikar oturmaqdan, bikara işləmək yaxşıdır.
Bikardan hamı bezar olar.
Bikarlıq kürlük gətirər.
Bildiyindən danış, bilmədiyin səni güdaza verər.
Bildiyini əlindən vermə.
Bildiyini soruşma.
Bildiyinlə çəkəsən.
Bildir gedən bildirçin, hanı sənin bir qıçın?
Bildir ölüb boz eşşək, bu il gəlin ağlayaq.
Bildir yedim bir əncir indi də qarnım incir.
Bildirçinin bəyliyi darı sovrulanacandır.
Bilən ilə bilməyən bir deyil.
Bilən söyləməz, söyləyən bilməz.
Bilənə bilməyən tay deyil.
Bilənə bir tikə, bilməyənə iki tikə?
Bilərək yanan ağlamaz.
Biliyini atasına verməz.
Bilik ağlın aynasıdır.
Bilik daşı ülgüc altda bilinər.
Bilik insanın bəzəyidir.
Bilirəm nə yuvanın quşusan!
Bilmədiyin işə başını soxma.

Bilməyir harada bişib, deyir: - Mənə də bir çömçə.
Bilmək olmaz – kəsilməmiş qarpızdır.
Bilməmək eyib deyil, soruşmamaq eyibdir.
Bilməsən bir biləndən sor.
«Bilmirəm» baş ağrıtmaz.
Bilsəydim atımın ölümünü, qulağı dolusu darıya satardım.
Bilsəydim, dərdim olmazdı.
Bir abam var ataram, harda olsa yataram.
Bir abbası verdik dindirdik, bir manat verib susdura bilmədik.
Bir ağaca çıxanda hamı budaqları silkələmə.
Bir ağacdan bel də olur, kürək də.
Bir ağızdan çıxan min ağıza yayılar.
Bir ağıllı baş min başı saxlar.
Bir adam ki, səhər yalan danışdı, axşamacan yalan danışar.
Bir adamı tanımaq istəsən, ya ortaq ol, ya yola çıx.
Bir adamın payı iki adamın ac qoyar.
Bir adamın payın özgəsi yeyə bilməz.
Bacarırsan aslan ol, tülkü olmaq asandır.
Bir adamla dost olmaq istəyirsənsə, onun dostuna bax.
Bir arxdan min at su içər.
Bir ayağı burda, bir ayağı gorda.
Bir al, iki ver, hardadır bu bolluq?
Bir almağın bir də qaytarmağı var.
Bir anaya bir qız, bir kəlləyə iki göz.
Bir at, beş götür.
Bir ata doqquz oğul bəslər, doqquz oğul bir atanı bəsləyə bilməz.
Bir atıb iki vurur.
Bir atım barıtı var imiş.
Bir arxa ki, su gəlib, güman var yenə gəlsin.
Bir arşın quyunun dibinə düşüb.
Bir axurdan at da yeyər, eşşək də.
Bir ac qudurar, bir yalavac.
Bir acıyanda özünü saxla, bir giciyəndə.
Bir barmaq qatıqdan ötrü tuluğu yırtma.
Bir baş bir dəriyə sığmaz.
Bir baş idi, dörd ayaq, gəlin ötürdü bayaq.
Bir baş haraya olsa sığışar.
Bir başa bir qoz yetər.
Bir başa iki qapaz cəfadır.
Bir bulud ilə qış olmaz.
Bir başımdır – min bir xəyalım.
Bir-bir dənlə, həmişə dənlə.
Bir birədən ötrü yorğanı yandırmazlar.
Bir-birinə çörək borc verərlər.
Bir-birinin bəhsinə, qılınc yolur tərsinə.
Bir böhtan min ziyana bərabərdir.
Bir buğda əkməsən, min buğda biçməzsən.
Bir bu gün iki sabahdan yaxşıdır.
Bir var Koroğlu, bir də var kor kişinin oğlu.
Bir vermə, bir də istər, yatmağa yer də istər.
Bir vuran min «vur» deyəndən yaxşıdır.
Bir qazanda iki kəllə qaynamaz.
Bir qapıda iki dilənçi olmaz.
Bir dedilər, on eylə.
Bir qarı ilə bir qoca dığ-dığ edər hər gecə.
Bir qarnı ac, bir qarını tox.
Bir qatı nazik, min qatı yoğun, qatyarımı haradan tapım?
Bir qaşıq ilə doqquz abdal yemiş, birini ağzı boş qalmamış.
Bir qaşıq ilə doqquz abdal keçinər.
Bir qəlbi ki, tikə bilməyəcəksən, niyə sındırırsan?
Bir qəpik verin – canını alın.
Bir qəpik xəsisin bir dişidir.
Bir qız bir oğlanındır.
Bir qıza qurban olsun – doqquz qoca, min qarı.
Bir qoz üçün daş atmazlar.
Bir qoyundan iki dəri çıxmaz.
Bir qoyundan sürü olmaz.
Bir qorxan bir ordunu pozar.
Bir qoca yeddi oğula əvəzdir.
Bir qulağın dar eylə, bir qulağın darvaza.
Bir qulağından girər, o biri qulağından çıxar.
Bir dağarcıq dəni var, boş dəyirman axtarır.
Bir dağarcıq unum var, yeddi qara günüm var.
Bir dana bir naxırın adını batırar.
Bir dana iki dana olsa bəslərəm.
Bir dadan peşman, bir – dadmayan.
Bir daş altda, bir daş üstdə.
Bir daş at, ya bir qaya sal.
Bir daşla divar olmaz.
Bir daşla doqquz qoz düşməz.
Bir daşla iki sərçə vurmaq olmaz.
Bir de, beş eşit.
Bir deyərsən, beş deyərəm.

Bir də gəlin ollam, oturub durmağımı bilərəm.
Bir də uşaqlığa qayıtsaydım qırx il iməkləməyə razı olardım.
Bir də cavan olsaydım sahibi-təcrübə olardım.
Bir dəli bir quyuya daş atdı, yüz ağıllı çıxarda bilmədi.
Bir dəlidən yeddi məhəlləyə zərər dəyər.
Bir dəmirdən nal da olar, nizə də.
Bir dəridir, bir sümük.
Bir dəfə gəldin – yoldaş, iki dəfə gəldin – qardaş.
Bir dəfə görmək iki dəfə eşitməkdən yaxşıdır.
Bir dirhəm min eybi örtər.
Bir dost min ildə qazanılar.
Bir dostum var, bir postum.
Bir evdə iki qız – biri biz, biri çuvalduz.
Bir evdə şadlıq, bir evdə – şivən.
Bir eşitmisən, bir də eşit.
Bir əl əkər, iki əl biçər.
Bir əl ilə iki qarpız tutmaq olmaz.
Bir əldən səs çıxmaz.
Bir əli bağda, bir əli dağda.
Bir əli ilə verir, bir əli ilə alır.
Bir əli imanında, bir əli tumanında.
Bir əli yağda, bir əli balda.
Bir əlimdə canım, bir əlimdə cananım.
Bir əlin nəyi var? İki əlin səsi var!
Bir əlində od, bir əlində su.
Bir əllə düyün düyünlənməz.
Bir ət ki girdi qazana, oldu yeməli.
Bir ziyan, min böhtana səbəb olar.
Bir ziyan min öyüddən artıqdır.
Bir idi oldu iki, ovhala qurbanın olum, ovhala.
Bir ilana, bir də xana bel bağlama.
Bir inad, bir murad.
Bir it hürməklə karvan qayıtmaz.
Bir iti iki daşla vurur.
Bir iş başlamayınca qurtarmaz.
Bir iş var, iki əməl.
Bir iş tut ki, aqibəti xeyir olsun.
Bir işdə özünə on mənfəət varsa, xalqa bir zərər, o işi başlama.
Bir işi başlayandan əvvəl axırını fikir eylə.
Bir iş bitməyincə, o biri işə başlama.
Bir işin əvvəlinə bax, bir də axırına.
Bir yanda ağlayır, bir yanda gözünün yaşını silir.
Bir yanda ağlaşma, bir yanda çalğı.
Bir yandan bağlayan, bir yandan acar.
Bir yara vur, karlı vur.
Bir yastıqda iki baş, il başında üç baş.
Bir ye, bir allah yolunda ver.
Bir «yeyirəm» deyəndən qorx, bir «yemirəm» deyəndən.
Bir gecənin oğrusu on illik molladan çox bilər.
Bir gecəlik söhbətin doqquz ay mabədi var.
Bir gələn bir də gələr.
Bir gəmi dolanar, bir qız dolanmaz.
Bir gəmi bəzənər, bir gəlin bəzənməz.
Bir gəmidə iki pişgah olmaz.
Bir gəmini iki rəis batırar.
Bir kənddə iki darğa olmaz.
Bir kişinin payını iki kişi yesə, ikisi də ac qalar.
Bir göz iki gözün gördüyünü görə bilməz.
Bir gözə bir dünya sığışar.
Bir gözü alça dərir, biri səbətə tökür.
Bir gözü yatır, bir gözü baxır.
Bir gözünü ağladır, bir gözünü güldürür.
Bir gördün namərdi, bir də görsən namərdsən.
Bir görür, iki istəyir.
Bir gül ilə bahar olmaz.
Bir gün duz yediyin yerə, qırx gün salam ver.
Bir gün yaranan bir gün öləcək.
Bir günlük bəylik də bəylikdir.
Bir günlük yola çıxsan, bir həftəlik tədarük gör.
Bir loğma bir dağ aşırar.
Bir manatlıq eşşəyin yarım manatlıq da qoduğu olar.
Bir meşədə ki, əsir alanı tülkü ola, azad edəni – çaqqal, orada şir, pələng dolana bilməz.
Bir meşəyə od düşsə, quru da yanar, yaş da.
Bir misqal ət yüz eybi örtər.
Bir mıx bir nalı, bir nal bir atı, bir at bir əri, bir ər bir eli qurtarır.
Bir müştəri üçün dükan açılmaz.
Bir nəğd yüz nisyəyə dəyər.
Bir naxırın adını bir dana batırar.
Bir nəfər işlər, on biri dişlər.
Bir özündən böyüyə, bir özündən kiçiyə qulaq as.
Bir ölkədə iki hökmdar olmaz.
Bir papaqlı bir evi bəslər.
Bir parça çörək olub, itib.
Bir pula doqquz hamam tikilməz.

Bir saman çöpü dəvənin belini əzər.
Bir səbət yumurtaya, bir qəpik bəsdir.
Bir sərəncam, qırx nəsihətdən yaxşıdır.
Bir söylə, iki dinlə.
Bir subay oğlan, bir mitil yorğan!
Bir su ki, səni aparır, deynən Arazdır.
Bir sürüyə bir qurd yetər.
Bir tay düyünü dalında gəzdirir.
Bir tək arı bir yığın çibindən yaxşıdır.
Bir taxtda iki padşah divan etməz.
Bir tikə çörək daşdan çıxır.
Bir tikə çörək on il yadda qalar.
Bir tikəni bilməyən, min tikəni də bilməz.
Bir tikənin qırx il haqqı var.
Bir toyuq bir yumurta qoyunca, yeddi məhəlləyə eşitdirər.
Bir toyuq ki, yumurta üstündə oturdu, ona bıçaq yoxdur.
Bir torba dəni var, beş dəyirmana üyütməyə gedir.
Bir tövlədə at da olar, eşşək də.
Bir utanma, bir inanma.
Bir ürəkdə iki məhəbbət olmaz.
Bir uşağın ağlı gördüyü işlərdən məlum olmaz.
Bir fikir nə qədər qarşılıq görsə, o qədər tərəqqi edər.
Bir həsir, bir yesir.
Bir çeynəm saqqızın var, çeynə yapışdır alnına.
Bir çiçəkdir, iynəyənin burnu düşər.
Bir çılpağı yüz cəbbəli soya bilməz.
Bir çırağın işığına qırx adam əyləşər.
Bir çörək bir çörəyə borcludur.
Bir çörək özün ye, birin də allah yolunda ver.
Bir çetvər dilini qoyub, bir batman başı ilə danışır.
Bir çuval qızıl borcun olsun, bir çuval buğda borcun olmasın.
Bir çustumdur, bir postum, hamı da mənim dostum.
Bir həsirdir, bir də Məmmədnəsir.
Bir şeyin qiyməti, o şey əldən gedəndən sonra bilinər.
Bir şəm ki, haqdan yana heç bad ilə sönməz.
Bir şeyi verib pis olunca, verməyib pis ol.
Birə dözən, minə yetər.
Birə şıllaq atdı, dəvənin gözünü çıxartdı.
Birənin qanını aldın – canını aldın.
Birəsinin beş batman yağı var.
Biri acından şalvarını satırdı, dedilər: – Nisyə verərsənmi?
Biri dörd görür.
Biri əkər, biri biçər.
Biri ərə gedər, biri gora.
Biri itər, yüz biri bitər.
Biri işlər, on biri dişlər.
Biri yazar, biri pozar.
Biri yanır, biri batır, biri yatır.
Biri yeyər, on biri baxar, qiyamət onda qopar.
Biri yıxıldı, biri dikəldi.
Biri mənim, biri bəndənin, birini də nazlı yara göndərim.
Birə min demiş, bir-bir vermiş yenə bazar pozulmamış.
Biri od olanda o biri su olar.
Biri ölməyincə, biri dirilməz.
Biri çalır, biri züy tutur.
Birini yandırır, birin qandırır.
Birindən soruşdular: – Qatır niyə sənin çıxartmır? Dedi: – Atasını yadına salmaq istəmir!
Birindən soruşdular: –Haralısan? Dedi: – Evlənməmişəm!
Birinə dedilər: – Atan acından öldü! Dedi: – Varı idi, yemədi?
Birini bilirsən, birinə bilmirsən.
Birini evə qoyan yox idi, soruşdu: – Çuxamı hardan asım?
Birini ye, birini yemə, birini de, birini demə.
Birini yeyir, birini də başı altında qoyur.
Birini gör fikir eylə, birini gör şükür eylə.
Birini minir, birini yedəyə çəkir.
Birinin əli, o birinin dili işləyir.
Birinci addımda lovğalanan ikinci addımda yıxılar.
Birisi atlas geyinmiş damaqlı, birisi tapmayır tuman yamaqlı.
Birisi mənə bağlıdır, mini də birisinə.
Birlik olmayan yerdə dirilik olmaz.
Birlik harada, dirilik orada.
Birlikdən qüvvət doğar.
Bitdi hər yarağımız, qaldı saqqal darağımız.
Bihudə hərəkət bel sındırar.
Biçimsiz bir libası biçimli geymək hünərdir.

Biçinçi haqqını yerdən götürər.
Biçməmiş tikmək olmaz.
Bişmiş aşın darğası.
Bığ saqqaldan qabaq çıxıb.
Bığı buraxmısan, saqqala salam vermirsən?
Bığının altından keçiblər.
Bığın yağlayıblar.
Bıçaq yarası sağalar, söz yarası sağalmaz.
Bıçaq vursan qanı çıxmaz.
Bıçaq öz dəstəsin kəsməz.
Bıçaq sümüyə dayanıb.
Bişirdik qoyduq dəmə, yeyənə nuş olsun.
Bişmiş aşına soyuq su qatma.
Boğaz yediyini istəməz, göz gördüyünü istər.
Boğazı böyük olanın dostu olmaz.
Boğazacan borc içindədir.
Boğazında başmaq tayı qalıb?
Boğazında qalar, asta ye!
Boğuşan köpəyin yarası əksik olmaz.
Boz at da öldü, Murtuzalı bəy də.
Boz üzüm var, doğru sözüm.
Boz tula gedər, boynuyoğun gələr.
Boyaqçı küpü deyil ki, salıb çıxardasan.
Boyaqxana küpünü azdırma.
Boynu uzun – beyni boş.
Boynu uzun, beyni boş, tut qulağından cütə qoş.
Boyu böyük olanın qiyməti böyük olmaz.
Boyun olsun, boyunduruq qapılar.
Boyuna baxma, bacarığına bax.
Boyunduruqdan qaçan öküzü kəsərlər.
Boynun qıldan nazikdir.
Boynunu bitlər yeyir, çörəyini itlər.
Boyunu böyütdükcə, ağlını böyüt.
Böyük nə eyləsə, kiçik onu götürər. Bol-bol yeyən, bəl-bəl baxar.
Borc alan bicdir, borc verən gic.
Borc alan ağlaya-ağlaya gələr, gülə-gülə gedər.
Borc almaq asandır, qaytarmaq çətin.
Borc almaq başlanan yerdə dostluq pozular.
Borc altında qalan deyil.
Borc alan, salam da var.
Borc verənin dili uzun olar.
Borc verməklə tükənər, yol getməklə.
Borc qaldıqca uzanar.
Borc durar, xərc durmaz.
Borc əsarətdir.
Borc ilə alınan köynək adamı təmiz saxlamaz.
Borc ilə çaxır içən, iki dəfə keflənər.
Borc yaddan çıxmaz.
Borc yaxşı günə gəlməz.
Borc ki oldu yüz – kir içində üz.
Borc köməyə bənzər, qaldıqca böyüyər.
Borc mini aşdı, hər axşam paxlava ye.
Borc ödəməklə, yol yeriməklə tükənər.
Borc çıxıbdır xirtdəyəcən.
Borca elə giriş ki, tez qaytara biləsən.
Borcdan qorxan qapısını gen açmaz.
Borclu borclunun sağlığın istər.
Borclu ölməz, bənizi saralar.
Borcludan bir güvəc al, vur yerə sınsın.
Borcludan bir lax yumurta da olsa al, vur divara.
Borclunun duaçısı borc verəndir.
Borcunu verən varlanar.
Borclunu çox darıxdırma, danar.
Borcsuz adam – bəyzadədir.
Borcsuz adam yoxsul bəydən yaxşıdır.
Borcu almaq asandır, qaytarmaq çətin.
Borcu həmişə kəm ver, qaytarmasa peşman olmazsan.
Borcunu verməyən, bir də borc ala bilməz.
Bostan əkənin yiyəsi mərd olar.
Bostan peyini kimi şişmə.
Bostana girən qoduğun qulağı, quyruğu olmaz.
Bostana girən porsuq yabanı qəbul elər.
Bostançıya kəlik satmazlar.
Bostançının kar vaxtıdır.
Bostançının sovqatı əyri xiyar olar.
Boş anbar, boş dağarcıq, ha ölç – doldur!
Boş boşuna danışır.
Boş qab cingildər.
Boş qazan qaynamaz.
Boş damardan qan çıxmaz.
Boş durana şeytan gülər.
Boş durunca düşməninə daş daşı.
Boş evə qız verməzlər.
Boş eşşək dəyirmana getməz.
Boş sözlə qarın doymaz.
Boş sözdən fayda yoxdur.
Boş süfrəyə nə bismillah?
Boş torbaya at gəlməz.
Boş torba ilə at tutulmaz.
Boş tüfəngdən iki adam qorxar.

Boş çanağı dolu çanağa vurmaq istəyir.
Boş çuval, boş anbar, ha doldur, doldur!
Boşdan bir çıxar, bərkdən iki.
Böylə qəm, böylə kədər, böylə gələr, böylə gedər.
Böyük ağacın kölgəsi böyük olar.
Böyük ağacın kölgəsində min qoyun yatar.
Böyük başın böyük də ağrısı olar.
Böyük başını kiçik işə qatma.
Böyük-böyük danışma, başına gələr.
Böyüklə - böyük, kiçiklə - kiçik.
Böyük böyüklüyün bilməsə, kiçik kiçikliyin bilməz.
Böyük qapının böyük də halqası olar.
Böyük dağın dumanı da böyük olar.
Böyük daş götürmək vurmamaq əlamətidir.
Böyük danışanı kiçik götürər.
Böyük dərd böyüyün yoldan azmasıdır.
Böyük - evin qibləsidir.
Böyük insan işindən tanınar.
Böyük gözün nuru olmaz.
Böyük olan yerdə kiçik danışmaz.
Böyük olanın qursağı gen gərək.
Böyük olarsan - bilərsən.
Böyük sözünə baxmayan, böyürə-böyürə qalar.
Böyük sənətkarlar yaranar az-az hər yerdə, hər zaman inci tapılmaz.
Böyük tənqid - böyük ədəbiyyat yaradır.

Böyük tikə boğaz yırtar.
Böyük hər nə çalsa kiçik gərək oynasın.
Böyüyə böyük deyiblər, kiçiyə kiçik.
Böyüyə hörmət elə, sən də böyüyəcəksən.
Böyükdən də böyük var.
Böyüklərlə böyük ol, kiçiklərə göstər yol.
Böyüksüz evdə xeyir-bərəkət olmaz.
Böyüyü - axmaq, kiçiyi - toxmaq.
Böyüyün böyük dərdi var, kiçiyin kiçik.
Böyüyün sözünə baxmayan gəzə-gəzə qalar.
Böyüyün üzünə ağ olanı torpaq götürməz.
Böyüyünü tanımayanı heç kim tanımaz.
Börkünü qoy qabağına - fikir elə.
Börkçünün börkü olmaz.
Böhtana düşən odsuz yanar.
Bu ağıl məndə, o dua səndə.
Bu arşına bez verməzlər.
Bu boynum, bu da qılınc.
Bu börkü qoy babanın başına.
Bu qabdan o qaba tökür.
Bu qız yaxşı qızdır, ərə gedəndən sonra bax, bu gəlin yaxşı gəlindir, birini doğandan sonra bax.
Bu qılınc, bu meydan.
Bu dərdi gora aparmaq olmaz.
Bu dərə mənim, o dərə sənin.
Bu dünya arsızla qəmsizindir.
Bu dünya bir dəyirmandır, udar bir gün bizi.
Bu dünya vəfasız dünyadır.
Bu dünya genişdir, sənə də yer var, mənə də.
Bu dünya fanidir, fani!
Bu dünyada keyf çəkim, o dünyada işim yox.
Bu dünyadan xəbəri yox, o dünyadan danışır.
Bu dünyaya etibar yoxdur.
Bu dünyada maldan, mülkdən bir ağıllı baş yaxşıdır, anlamayan bir əllədən bir qara daş yaxşıdır.
Bu dünyanın adamı deyil.
Bu əl o ələ köməkdir.
Bu əli veräni o əli bilməz.
Bu zaman bax - öyrən zamanıdır.
Bu ilki sərçə bildirki sərçəyə cik-cik öyrədir.
Bu yerişlə hara çatarsan?
Bu köhnə sözdür, təzəsini də gəlsin.
Bu mey meyxanasıdır, zurna-qavalı hələ daldadır.
Bu meydan bədoy meydanıdır, burda yabılar quyruq bular.
Bu mənim üzüm, o sənin üzün.
Bu pəhriz nə, bu lahıc turşusu nə?
Bu necə bostançıdır, dəymişini qoyar, kalın dərər?
Bu sənə dərs olsun.
Bu səsi bir daxmaya yerləşdirmək olmaz.
Bu təpiyə at dözər.
Bu uşaqlıq deyil - dəcəllikdir.
Bu fərə o fərələrə bənzəməz!
Bu hələ hərbəsidir, zərbəsi daldadır.
Bu can sənindir, əzizim, mənə nə minnəti.
Bu cibindən çıxarıb o cibinə qoyur.
Buğda göstərir, arpa satır.
Buğda olmayan yerdə, darını gözə təpərlər.
Buğda çörəyin yoxdur, buğda dilində nə gəlib?
Buğdadan əlim üzüldü, gümanım sənə gəlir, ay arpa çörəyi!

Buğdam var demə – anbara tökməyincə, övladım var demə – evlənməyincə.
Buğdanın ucbatından acı otlar da su içər.
Buğdasını sütül yeyən xırmanda ac qalar.
Budaqdan qopan alma ağacın dibinə düşər.
Buz üstə çıxan danaya dönüb.
Buzu gün əridər, insanı xəcalət.
Buynuz sonra çıxar, amma qulağı keçər.
Buynuzlu bir quzu kəlləsilə canavara meydan qurar.
Buynuzsuz qoçun qisası, buynuzlu qoçda qalmaz.
Buyruq allahdandır.
Buyruq sənin, qulluq mənim!
Buyruq sizinkidir, adil hökmdar!
Buyur-buyurla iş keçməz.
Buyuran bilməz, hazırlayan bilər.
Buyurduğu qulluğa bax, verdiyi haqqa.
Bu gün ala dağda, sabah qara dağda.
Bu gün belədir, sabah elə.
Bu gün var, sabah yox.
Bu gün qızını döyməyən sabah dizini döyər.
Bu gün dünyadır, sabah axirət.
Bu gün düşənbədir, meylinə düşən nədir?
Bu gün ye, sabaha qismət nə olsa.
Bu gün gəlib keçdi, sən sabaha bax.
Bu gün mənədirsə, sabah sənədir.
Bu gün nəğd, sabah nisyə.
Bu gün sən deyərsən, sabah sənə deyərlər.
Bu gündən sabahı gör.
Bu günkü qazma sabahkı neftdir.
Bugünkü qız, sabah anadır.
Bugünkü yumurta sabahkı toyuqdan yaxşıdır.
Bugünkü söz dünənki sözün körpüsüdür.
Bugünkü toyuq sabahkı qazdan yaxşıdır.
Bugünkü uşaq – sabahkı qoçaq.
Bugünkü ye, sabaha ya qismət.
Bugünün sabahı da var.
Bulaq gərək yerindən bulaq ola.
Bulaq öz gözünü kor istəməz.
Bulaq özü tərpənməz, el-obanı ayağına gətirər.
Bulağa susuz aparar, susuz gətirər.
Bulamac dəliyə qaldı.
Bulamanı bulama, buladıqca yalama.
Bulanlıq suda balıq tutulmaz.
Bulud altından çıxan gün, yaşmaq altından çıxan üz.
Buludu külək oynadır, ağlı kəm olanı fışdırıq.
Bulutdan nəm çəkir.
Bundan sonra əlini öz cibinə sal.
Bundan Fatıya tuman olmaz.
«Bunu edəcəyəm» demə. «Bunu eləmişəm» de.
Burada ala qarğa balalamaz.
Burada vurur, qılıncı, fələkdə oynar ucu.
Burada dəvə yükü ilə itər.
Burada dilənir, orada zəkat verir.
Burada oturma – atamındır, orada oturma – anamındır.
Burada oturma – his olar, orada oturma – pis olar.
Burada oturma, orada otur, cəhənnəmdə, gorda otur!
Burada üləma diz yerə qoyub.
Burnu çirk quzu buynuzu burma qoç olar.
Burnun girməyən yerə başını soxma.
Burnunu hər deşiyə soxar.
Burnunu sıxsalar – canı çıxar.
Burun-qulaq başa sadağadır.
Burun çirkli olanda kəsib atmazlar.
Buxarının əyriliyinə baxma, tüstüsünün düz çıxmasına bax.
Bu çağacan qonşu qızı idim, indi oldum – ev qızı, ev gəlini.
Bülbül viranədən ötməz, bayquş viranədən getməz.
Bülbül gülü sevər, insan – Vətənini.
Bülbülü qızıl qəfəsə salmışlar, «Vay Vətən!» demiş.
Bülbülün çəkdiyi dil bəlasıdır.
Bülbülə qızıl qəfəsdən kol dibi xoş olar.
Bütünü kəsmə, paraya dəymə, doğra, doyunca ye.

C

Cabirin keçisindən keçdi.
Cavan baş bir çanax qandır.
Cavan işlər, qoca dişlər.
Cavanlıq bir dəfə olar, qocalıq da bir dəfə.
Cavanlıq əlamətidir.
Cavanlıq gözəllikdir, onu boyamaq artıqdır.
Cavanlıq soltanlıqdır, bacarsan saxla.
Cavanlıqda qocalığa güc saxla, pullu gündə pulsuz günə pul saxla, savaşanda barışmağa üz saxla.
Cavanlıqda zəhmət çəkən, qocaldıqda möhnət çəkməz.
Cavanlıqda pul qazan, qocalıqda – qur qazan.
Cavanlıqda həlimlik, qocalıqda səlimlik.
Cavanlığın qədrini bilmək gərək.
Cəvahir bazarında muncuq satılmaz.
Cəvahir cında içində olar.
Cəvahirin qiyməti var, sözün qiyməti yoxdur.
Cəvahirin qiymətini sərraf bilər, nə bilər hər divanə.
Cahilliyi uzadan ya tula quyruğu xınalar, ya camadar olar.
Camadarı müştəridən çox.
Camal gedər, kamal qalar.
Camış hənəyi göz çıxardar.
Can alan baxışından bəlli olar.
Can bazarda satılmaz.
Can baladan şirindir.
Can bir qəlbdir yaşayır.
Can verirsən boz sərçəyə ver, qaranquş gəldi gedərdir.
Can verirsən qardaşa ver, min il keçsə yad olmaz.
Can de, can eşit.
Can deyən çox olar, can verən olmaz.
Can deməklə can əskilməz.
Can gedincə mal getsin.
Can mənim canım, çıxsın sənin canın.
Can sağlığı – dünya varlığı.
Can sənin, cəhənnəm tanrının.
Can candan ayrıdır.
Canavar tək qalanda başına çaqqallar yığışar.
Canavarlar ağız – ağıza yatarlar.
Cananı sevən canından keçər.
Canandan ayrılan candan ayrılar.
Canbaz ipdə gəzər, balıq – suda.
Candan qonşu payı olmaz.
Candan kabab olmaz.
Candır, badımcan deyil.
Canı yanan eşşək atdan yeyin gedər.
Canı yanan ya bir olar, ya iki.
Canı nədir, cəsədi nə olsun?
Canı olanın, qayğısı da olar.
Canı sapdan asılıb.
Canı canın yolunda deyən çox olur, qoyan – az.
Canım qurban yaxşı qonaq, gəl ocağa bir də qonaq.
Canımdan tikan çıxartdı.
Canımı da alsan, gülə-gülə al.
Canın boğazındadırsa, öskür çıxsın.
Canın sağ olsun!
Canını cibində gəzdirir.
Cahil axırda tula quyruğu xınalar.
Cahil dirilərin ölüsüdür.
Cahil ilə bal yemə, aqil ilə daş daşı.
Cahil ilə çıxma yola, gətirər başına min bir bəla.
Cahil özünə düşməndir, başqasına necə dost ola bilər?
Cahildə söz əylənməz.
Cahildən qorx, dəlidən qorxma.
Cahilə qoşulan cahil olar.
Cahilə söz qandırmaq, dəvəyə xəndək atdırmaq kimidir.
Cahili cahillər mədh eylər.
Cahilin sözü – eşşəyin anqırtısı.
Ceviz qabığı qarın doydurmaz.
Ceyran qovan çiçəyə batar, donuz qovan – lehməyə.
Ceyranın qaçmasın gördüm, ətindən əl üzdüm.
Cəzasız cürm sahibi çox olar.
Cənnət də bu dünyadadır, cəhənnəm də.
Cənnətin yaylağı, cəhənnəmin qışlağı.
Cərgədən qalan keçəl olar.
Cərgədən çıxan qotur olar).

Cəfa çəkməyən səfa görməz.
Cəfasını mən çəkdim, səfasını yad gördü.
Cəhalət səfalət doğurar.
Cəhd elə dost qazan, düşmən ocaq başında.
Cəhənnəmdə də adamın dayısı gərək.
Cəhənnəmdən qəbzsiz gəlib.
(Cəhənnəmdən əli kösövlü gəlib).
Cəhənnəmə qədər yolu var.
Cəhənnəmə gedən gələr, müştərinin gedəni gəlməz.
Cəhənnəmə gedən özünə yoldaş axtarar.
Cəhənnəmə girsə, üzü qızarmaz.
Cəhrə əyirsən – don geyərsən.
Cibində siçan oynayır.
Cida ilə qulağa pambıq yeritmək olmaz.
Cidanı oğurlayan yerini bilər.
Cidanı çuvalda gizlətmək olmaz.
Ciyərə qane olmayan pişik, asılarsan qənarədən.
Ciki mənim – biki mənim, alçı dursa – sənin bəxtinə.
Cikini də bilir, bikini də.
Cin atına minərəm, atanı yandıraram.
Cin bismillahdan qorxar.
Cin-şeytan işidir.
Cinə papaq tikir, şeytana – başmaq.
Cins madyan balasın döşündə saxlar.
Cins cinsə çəkər.
Cismin qidası – yemək, ruhun qidası – oxumaq.
Cicinin axır yorğanı.
Cığala tanrı verməz, versə də qarnı doymaz.
Cındırından cin qorxur.
Comərd vergisini xeyirlidən-xeyirsizdən əsirgəməz.
Comərd deməklə – maldan etdilər, igid deməklə – candan etdilər.
Coratın qovunu, Zirənin qarpızı.
Cöngə öküz olunca yiyəsi donuza dönər.
Cümə günü – bazar, onu da yağış pozar.
Cümə şənbədən uzundur.
Cümə gedən öküz gözündən tanınar.
Cütə getməyən öküzü ətlik adına satarlar.
Cütçü babadır özü üçün.
Cütçü yağış istər, yolçu – quraqlıq.
Cücə ağgünlü olsaydı, toyuq əmcəkli olardı.
Cücə səbət altında qalmaz.
Cücəni payızda sayarlar.

Ç

Çaqqal var ki, baş kəsər, qurdun adı bədnamdır.
Çaqqal yuvasında toyuq qaqqıldayır.
Çaqqalın hayıfını (acığını) baqqallar çıxır.
Çaqqaldan çox çarıq aparan olmaz, enə ayaqları yalındır.
Çaqqalın yuxusuna toyuq gələr.
Çaqqalın hayıfını (acığını) baqqallar çıxır.
Çağırılan yerə ərinmə, çağrılmayan yerdə görünmə.
Çağrılmamış qonaq süpürülməmiş yerdə oturar.
Çağrılmamış qonağı köpəklər qarşılar.
Çadra altında hər arvad gözəldir.
Çadrasızlıqdan evdə oturub.
Çay aşağı axıtdım, çay yuxarı axtardım.
Çay bir olar, çeşmə min.
Çay quşu ayağından tutular.
Çay quşu çay daşı ilə vurular.
Çay yanında quyu qazımazlar.
Çay ki, oldu dişləmə, sən də otur işləmə.
Çay görməmiş çırmanır.
Çaya çat, sonra çırman.
Çayda balıq yan gəzər.
Çayın biri qaydadır, ikisi cana faydadır, üçü nəsdi, dördü bəsdir, elə ki, keçdi beşə vur on beşə, çay nədir, say nədir?
Çayın daşı – çölün quşu.
Çayır yeddi il leylək yuvasında qaldı, yerə düşdü bitdi, atasının vəziyyətini unutmadı.
Çayxana dolu – sahə boş.
Çal belə, qurbanın olum, çal belə, gedər bu dövran, dəxi düşməz ələ.
Çala-çala havaya düşüb.
Çalağan göydə dolanar, cücənin ürəyi bulanar.
Çalan olsun, oynayan tapılar.
Çalğı olan yerdə, oynamaq da olar.
Çalğı toyun yaraşığıdır.
Çalğısız toy olmaz.
Çalışan qazanar.
Çalışan əli bıçaq kəsməz.
Çalışanı ac, tənbəli tox görən yoxdur.
Çalışqan atın boynu muncuqlu olar.
Çalışqan dəvə zınqrovlu olar.
Çalışmayan ac qalar.
Çanax (tas) başa girəndə, bil ki, hamam vaxtıdır.
Çanax öz başında sındı.
Çanağında bal olsun, arısı gələr Bağdaddan.
Çapqınçı olsan da insafı əldən vermə.
Çarvadara yol göstərməzlər.
Çarəsiz dərd olmaz.
Çarəsiz dərdə loğman da acizdir.
Çarıq tapan dolağın da tapar.
Çarığına baxma, ürəyinə bax.
Çarığında itirən, patavasında tapar.
Çarşab-corab eyləyib gəlir.
Çaxır içən malın itirər, bəng çəkən – ağlın.
Çaxır paxır açandır.
Çaxırı iç şir böyrü yırtmağa, içmə qarğalar gözünü dəlsin.
Çaxırı keçinin boğazına töksən varıb dağları aşar.
Çaxırı lala versən, lal dil açar.
Çaxırı töksən siçanın boğazına pişikdən pasport istər.
Çaxmaq məndən, qov səndən.
Çaxmağını çax, papağımı tapım.
Çahar atdım şeş gəldi, yenə fələk uddu məni.
Çaş biri iki görər.
Çevir tatı, vur tatı.
Çeynə, ver ağzıma.
Çeşmə ümman yaradar.
Çəkilən zəhmət hədər getməz.
Çəkic ol – üstdə ol, zindan olub altda qalma!
Çəkmə namərd minnətin, get səhrada dolan gəz.
Çəkmə, çəkmə bu dərdi, çəkən bilər bu dərdi.
Çəkməyən nə bilir sevda dərdini?!
Çənə yorulmasaydı, adam hey yeyərdi.
Çənə yumruqdan qorxar.
Çənənə çox yol vermə.
Çənəsi sallaq qarıdır.
Çənginin qazandığı ənlik-kirşana gedər.
Çərçi qızı munculu olar.
Çərçi kisəsindəkini sanar.
Çərçinin yüz andı, öz eşşəyinə qənim olar.
Çərçinin ana-atası, ayaqları altındadır.

Çərçinin nəğməsi yox, nərəsi çox.
Çərşənbə yemişidir.
Çətini ölənəcəndir.
Çibin mundar deyil – ürək bulandırır.
Çiy ət dərd gətirər.
Çiy ət ət gətirər, çiy çörək – dərd.
Çiy noxud ağızda islanmaz.
Çiy süd əmənə etibar yoxdur.
Çinara nə qədər su versən, meyvə verməz.
Çirkaba daş atma, üstünə sıçrayar.
Çirkin dövlətli qızını atası adına alarlar.
Çirkin yuyunmaqla gözəl olmaz.
Çirkin özünü gizlədər, gözəl aşkara gəzər.
Çiçəyi burnunda gəzdirər.
Çıraq öz dibinə işıq salmaz.
Çırağına yağ töküblər.
Çırtıq vursan, qanı çıxar.
Çıxan qan damarda qalmaz.
Çiçək çox olan yerdə, arı da olar, bal da.
Çoban dayağı ilə, gəlin duvağı ilə.
Çoban çox olanda qoyunu qurd yeyər.
Çoban corabını özü toxuyar.
Çobana vermə qızı, ya qoyun güddürər, ya quzu.
Çobanı özündən olanın qoyunu dişi doğar.
Çobanın yasdığı yastı qayalardır.
Çobansız qoyunu qurd yeyər.
Çobansız sürü yolu azar.
Çobansız sürü olmaz.
Çolaq ayağa daş dəyər.
Çolaq at seyidə nəzirdir.
Çolaq koru görəndə öz halına şükür eylər.
Çomağın o biri başın çevirir.
Çor deyənə can desəm, ya rəbb, nəyim əskilər?
Çox ağaclar kökündən doğranıb.
Çox and içənin andına inanmazlar.
Çox arpa atı çattadar.
Çox aşıqlar yarı yolda qalıblar.
Çox bilən quş dimdiyindən tələyə düşər.
Çox bilən, tez qocalar.
Çox bilən çox çəkər.
Çox bilib, az danışmaq, igidin ləngəridir (yaraşığıdır).
Çox bilmək istəyən, çox da çalışsın gərək!
Çox varlanmaq və çox danışmaq, insanı məhv edər.
Çox ver, az yalvar.
Çox verdim, dedilər dəlidir, az verdim, dedilər xəsisdir.

©2005 – Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

D

Dabbağ xoşladığı dərini yerdən-yerə vurar.
Dava acı, faydası şirin olar.
Dava dağarcıq üstədir.
Dava günündə igid gərək daldalanmasın.
Dava üçün bir qazı, isbat üçün on şahid.
Davada ağac aradakına dəyər.
Davada aradakının gözü çıxar.
Davada qılıncı borc verməzlər.
Davada nırx kəsən olmaz.
Davada halva paylamazlar.
Davakarın şah olsa, ərizəni allaha yaz.
Davalı yerdə ot bitməz.
Davanı qılınc aralar.
Davanı qılınc kəsər, sevdanı – pul.
Davanı iki dəfə salmaq nahaqdır.
Davanı göydə axtarırdı, yerdə əlinə düşüb.
Davasını bilməyənə şahid olma.
Davaçı qazı isə, ərizəni allaha yaz.
(Davaçın xan olsa allah dadına çatsın).
Dağ başı duman olar.
Dağ ağrı çəkdi, nə doğdu? – Siçan .
Dağ başı dumandan qurtarmaz insan başı yamandan.
Dağ başında xırman qurma, sovurarsan, yel aparar, sel yanında dəyirman qurma, üyüdərsən, sel aparar.
Dağ bizim, ceyran bizim ovçu burda nə axtarır?
Dağ da olsan dağa daldalan.
Dağ dağa arxadır.
Dağ dağa qovuşmaz, insan insana qovuşar.
Dağ dediyin ucalıqdır, ucalıq.
Dağ yeri – duman yeri.
Dağ yeriməsə abdal yeriyər.
Dağ yıxılmasa – dərə dolmaz.
Dağ nə qədər uca olsa, el üstündən yol salar.
Dağ səfasız olmaz, gözəl vəfasız.
Dağ suları dağdan gələr.
Dağ üstə maral gəzər.
Dağ üstündə tısbağa, gomuşdan böyük görünər.
Dağa yağsa – çöl abadan, çölə də yağsa – çöl abadan.
Dağarcıq çuvaldan böyük oldu?!
Dağarcığını çuval yanına sürür.
dağarcığını çuvala tay tutur).
Dağdan gələn, dağa gedər.
Dağdan gəlir, dağ arabası, heç kim onu mindiyi yox,
Culfa toxur nazik bezi, heç kim onu geydiyi yox.
Dağdan hey götürüb desən ki, «çoxdur», bir də görərsən ki, dağ özü yoxdur.
Dağlar dağımdır mənim, qəm ovlağımdır mənim, dindirməyin ağlaram yaman çağımdır mənim.
Dağlar marala qaldı!
Dağı dağ üstə qoyub.
Dağın nə dərdi dağ boydadır.
Dağın üstə bağın sağ olsun.
Dağılasan vilayət; azançısı – eşşək, münəccimi – çaqqal.
Dağına baxar – qar verər, bağına baxar – bar verər.
Dad yaman əlindən, yaman gəlin əlindən.
(Dad fələk əlindən, yaman gəlin əlindən).
Dadanmısan, qudurmusan?!
Dad fələk, dad fələk, mən içən şərbətdən özün də dad fələk!
Dadanmısan dolmaya, bəlkə bir gün olmaya?
Dadanan dayanmaz, yığdıqca da doymaz.
(Dadanan dura bilməz dursa da dözə bilməz).
Dadananla quduranı saxlamaq olmaz.
Dadmamısan qaz ətini, nə biləsən ləzzətini?
Dadanan qudurandan pis olar.
Dadı ağzında qalıb.
(Dadı damağında qalıb).
Dad dadıycan, duz da dadıycan.
Dadsız şorbaya duz da kar eləməz.
Dadı dağarcığında qalıb.
Dadımlıqdır, doyumluq deyil.
Dadlı dil – gülər üz.
Dadlı söz dinlənər, dadsız söz əsnədər.
Dadlı söz – can arzusu, dadsız söz – baş ağrısı.
Dadmaqla mal tükənməz.
Dadsız – duzsuz qonşuya qalsın.
Daz keçəldən xoşlanar.

Dazın istədiyi qara saç olar.
Dairənin nə başı var, nə ayağı.
Dayça at olunca yiyəsi mat olar.
Dayça nə qədər bərk qaçsa, arabanı çəkən atdır, at!
Dayağı dağ olanın, başı göylərdə olar.
Dayan, doldurum!
Dayanan su tez iylənər.
Dayı ilə dağ dolan, əmi ilə bağ dolanma.
Dayı görməyib, elə bilir Şaqqulu da bir dayıdır.
Dayı tikən körpünü su aparmaz.
Dayısı olan dayısına güvənər.
Dal ayağı ilə qulağını qaşıyır.
Dalaşan köpək xoralı olar.
Dalda qalma, yoldaşından yeyin get.
Daldan atılan daş topuğa dəyər.
Daldan gələn dadlı olar.
Dalı bağlıdır.
Dalın daşa dayayıb.
Dalında namaz qılıram.
Dalınca aftafa aparır.
Dam dirəksiz olmaz, tövlə kürəksiz.
Dam olmadın, eşik ol barı?!
Dam uçdu, kalafası qaldı.
Dama - dama göl olar, axa-axa sel.
Damazlığını yeyən tamarzı qalar.
Damar - damar, daşı dələr.
Damara baxarlar, qan alarlar.
Damda verər azanı, yerdə sayar qazanı.
Damdan - dama gəzən köpəyin beli sınar (qırılar).
Damdan düşdüm, ətəyim sındı.
Damdan düşənin halını damdan düşən bilər.
Damdan düşsə, pişik kimi ayağı üstə düşər.
Damımız uçdu, dam kürəməkdən qurtardıq.
Dan ulduzuna dönmüsən.
Dana göbələk götürdü.
Dana oynar, mıxını bərkidər.
Danalı inəkdən sağım olmaz.
Danışanı adam bilir, hürəni - it.
Dananın evi yıxılsın.
Danışmaq gümüş olsa, danışmamaq qızıldır.
Danışmaq dananı qurda verər.
Danışıram da pis olur, danışmıram da.
Dar yerə min dost yerləşər, bir düşmən yerləşməz.
Dar küçədən keçmərəm, çadramı yellətmərəm.
Adımı qız qoymuşam, dul kişiyə getmərəm (bayatı).
Darayı, səni geyər hər ayı!
Darvaza qapısın bağlamaq olar, xalqın ağzın bağlamaq olmaz.
Darvazadan keçməyən iynə gözündən keçər.
Darğa əmimdir, daha nə qəmimdir!
Darı çörəyi - xırmana qədər.
Darıya girən donuz yabanı özünə qəbul elər.
Darıycan əri olanın tanrıycan hökmü olar.
Darımızı yeyib, üzümüzə xortdayır.
Daş altından su yeridir.
Daş at - qolların açılsın.
Daş atan bəlli - baş atan bəlli.
Daş atana - çörək at.
Daş atıb başını tutub.
Daş bir yerdə qalanda göyərər.
Daş bir yerdə - qoz bir yerdə.
Daş qayaya rast gəlib.
Daş quyuya düşən kimi düşüb.
Daş qızlar bağrına, gecələr yalqız yatar.
Daş - daşa söykənər - divar olar.
Daş daşı, dırnaq daşı, siz savaşa, biz tamaşa.
Daş daşı sındırar.
Daş - dəyənə bəllidir, yol - gedənə.
Daş - divarın qulağı var.
Daş düşdüyü yerdə qalar.
Daş yumşalar, düşmən yumşalmaz.
Daş kəsənə toxunsa, vay kəsənin halına, kəsən daşa toxunsa, vay kəsənin halına!
Daş olma, baş ol.
Daş olsaydı sıxardım, torpaqdı dayandım.
Daş ürəkli düşmənin ürəyini yarar yumşaqlıq.
Daş daş üstə qalmamış.
Daş üstə əkin olmaz.
Daşdan qopar, yoxdan qopmaz.
Daşdan yumşaq nə versən yeyər.
Daşdan pul çıxardar.
Daşdan tük çəkər.
Daşdan çörək çıxardar.
Daşlar da dilə gəlir.
Daşı daşa, başı başa vurarlar.
Daşı ətəyindən tök.
Daşı sıxsa, suyunu çıxardar.
Daşın xırdası böyüməz, adamın xırdası böyüyər.

Daşınma su ilə bağ salınmaz.
Daşınma su ilə dəyirman işləməz.
Dedi: Dədə, bir balta tapdım!
Dedi: - Neylədin?
Dedi: - İtirdim!
Dedi: - Dədənə bir dərd artırdın!
Dediyi dedik, çaldığı düdük, yediyi hədik!
Dediyin deyir, demədiyini gedər-gəlməz vaxta saxlayır.
Dediyindən dönərsən, el dönər səndən, dediyini tutarsan, el tutar səndən!
Dedilər: - Qar yağacaq.
Dedi: - Dayanmışam titrəməyə.
Dedilər: - Qardaşın necə adamdır?
Dedi: - Qonşu olmamışam.
Dedilər: - Dəvələri yığırlar.
Tülkü başladı qaçmağa.
Dedilər: - Əzrail uşaq paylayır.
Dedi: - Özünkü özünün olsun mənimkinə dəyməsin.
Dedilər: - Yığışın köçürük!
Çoban çomağını çiyninə qoydu.
Dedilər: - Molla əmi, almaqla necəsən?
Dedi: - Alıcı quş kimi!
Dedilər: - Verməklə necəsən?
Dedi: - Başına söz qəhət olub!
Dedilər: - Sərxoşdur, başını vursun divara!
Dedim bir ağız ağla, demədim ki, İranı başına bağla!
(Dedilər bir ağız ağla, demədilər camaatı başına yığ!)
Dedim, deməmiş olum.
Dedim eşidəsən, demədim öyrənəsən.
Deyən ağılsız olsa eşidən gərək ağıllı ola.
Deyən qafildir, dedirdən qafil deyil.
Deyilən söz geri qayıtmaz.
Deyiləcək sözü fikirləş, sonra de.
Deyilmiş sözdən deyilməmiş yaxşıdır.
Deyingən dinə bilməz, dinməsə dözə bilməz.
Deyirəm dilim yanır, demirəm - ürəyim.
Demə babam yoxsuldur, can sağlığı dövlətdir.
Demək asandır, yerinə yetirmək çətin.
Demək olmur ki, gözün üstə qaşın var!
Deməsən eşitməzsən.
Desələr ki, göydə toy var, arvadlar nərdivan axtarar.
Desən yumurta ağdır, deyər qaradır.
Desən öl - ölər, qal - qalar.
Deyirəm, sevgimizə, bəxtimizə gəc baxanın, gözü kor, bəxti qara, qəlb evi viran olsun.
Dəvə adın satar, eşşək odun.
Dəvə asta gedər, çox gedər.
Dəvə başın soxar pambığa, gözlərini də bərk-bərk yumar,
Deyər : - Məni heç kəs görmədi.
Dəvə bir fikir eyləsə, sarban ikisini eylər.
Dəvə bostana girəndə, elə bilər onu heç kim görmür.
Dəvə böyükdür - ot yeyər, şahin kiçikdir - ət yeyər.
Dəvə böyüksə, yükü də böyükdür.
Dəvə buynuz axtarırdı, qulaqdan da oldu.
Dəvə kimi böyüksən, qulağı qədər ağlın yoxdur.
Dəvə qulağından asılmaz.
Dəvə durdu dam yıxdı.
Dəvə kimi düz bir yeri yoxdur.
Dəvə kinli olar.
Dəvə köşəyə uymasa, köşək dəvəyə uyar.
Dəvə gördün?
Heç izini də görmədim!
Dəvə minənin eşşəyi yanında olar.
Dəvə nalbəndə baxan kimi baxır.
Dəvə nə qədər arıq olsa, dərisi bir eşşəyə yükdür.
Dəvə nə qanır nərdivan nədir?!
Dəvə nə qədər uzaq getsə, qatarını gözlər.
Dəvəni ovlamazlar.
Dəvə oynayanda qar yağar.
Dəvə öz kövşədiyini udar.
Dəvə ölər, yükü qalar, xoruz ölər, tükü qalar.
Dəvə ölsə dərisi yükdür, toyuq ölsə bir çəngə tükdür.
Dəvə palçığa batdı, milçək onu çıxartdı.
Dəvə tanımasa, ovsarı tanıyar.
Dəvə Xançobanda olar.
Dəvəquşu yükə gələndə, qanadlarını göstərər.
Dəvədən böyük fil var.
Dəvədən düşüb, höt-hötündən əl çəkmir.
Dəvədən yıxılan pambıq üstə düşər.
Eşşəkdən yıxılan - daş üstə.
Dəvəyə dedilər:
- Nə işin sahibisən?
Dedi: - İpək toxuyuram.

Dedilər: - Əl-ayağına yaraşar.
Dəvəyə dedilər:
- Enişi sevirsən, yoxuşu?
Dedi: - Düz yolu göyəmi çəkdilər?
Dəvədən soruşdular:
- Eniş yaxşıdır, yoxuş?
Dedi: - Lənət hər ikisinə!
Dəvədən soruşdular:
- Haradan gəlirsən?
Dedi: - Çini-maçindən!
Dedilər:
- Məlumdur sənin par-paçəndən!
Dəvəyə dedilər:
- Boynun əyridir.
Dedi: - Haram düzdür ki, boynum düz olsun?!
Dəvəyə qanqal lazım olsa, boynunu yüz yerdən uzadar.
Dəvəyə minməmişdən qabaq yırğalanmaq öyrənir.
Dəvəyəcən boyun olunca, düyməcə ağlın olsun.
Dəvəni aparan eşşəkdir.
Dəvəni dağdan uçurdan bir çəngə otdur.
Dəvəni eşşəyin quyruğuna bağlayır.
Dəvəni itirib köşəyi axtarır.
Dəvəni ya duza, ya suya.
Dəvəni yel aparsa, keçini göydə gör.
Dəvəni yükü ilə udur.
Dəvəni yükü ilə, sarbanı ipi ilə.
Dəvəni palaz altında gizlətmək olmaz.
Dəvəni satan köşək ala bilməz.
Köşəyi satan, eşşək ala bilməz.
Dəvəni çömçə ilə suvarır.
Dəvənin azanı Ağcaqabula gedər.
Dəvənin ayağı altında qarışqa əzilməz.
Dəvənin biri bir döngə, vay döngə dərdi.
Dəvənin qanadı olsa, uçulmamış dam qalmaz
Dəvənin quyruğu yerə dəyəndə.
Dəvənin quyruğu yerə dəyməz.
Dəvənin də oynamağına az qalıb.
Dəvənin dizini bağla, sonra allaha tapşır.
Dəvənin yemədiyi ot, ya başını ağrıdar, ya qıçını.
Dəvənin kini - ilanın kini.
Dəvəsi ölmüş ərəbəm!
Dəvəçi ilə dost olanın, darvazası gen gərək.
Dəvətə icabət gərək.
Dəvətsiz qonağı köpək qarşılar.
Dəvətsiz gələn qonaq, quru yerdə oturar.
Dədə görməyən elə bilər Şaqqulu da bir dədədir.
Dədəm evində balıq başı, ərim evində də balıq başı?
Dədəm evində də qarabəxt, ər evində də?
Dədəm mənə kor deyib, hər yetənə vur deyib.
Dədənə ehsan verib əli çapıxları qapına dadandırma.
Dədəsindən nə gül dərdim ki, balasından gülab çəkim?
Dədəsini görməyən şahlıq iddiası eylər.
Dəyərli muncuq yerdə qalmaz.
Dəyirman bildiyini eylər, çaq-çaq baş ağrıdar.
Dəyirman iki daşdan, məhəbbət iki başdan.
Dəyirman xoruzu kimi qıpqırmızıdır.
Dəyirmana dəni evdə arıd apar.
Dəyirmana gedirəm, nə dənim var, nə çuvalım.
Dəyirmana getsə dünya xəbəri gətirər.
Dəyirmana gələndən sonra ulaq görən çox olar.
Dəyirmana girdi köpək, dəyirmançı vurdu kötək, bilmirəm kəpək yedi köpdü köpək ya da ki, kötək yedi köpdü köpək?
Dəyirmanda buğda qurutmazlar.
Dəyirmanda dəni olmayana un verməzlər.
Dəyirmanda dənin yox, şahad üstə başını niyə yarırsan?
Dəyirmanda doğulan siçan köy gurultusundan qorxmaz.
Dəyirmandan gələnin əlinə baxarlar.
Dəyirmanın boğazı boş qalsa, daş daşı sürtər.
Dəyirmanın boğazına ölü salsan diri çıxar.
Dəyirmanın yaraşığı torba, çuvaldır.
Dəyirmanın pəri - iki günün əri.
Dəyirmanın səsindən qaçan un üyütməz.
Dəyirmandan acıq eyləyən çuvalını boş aparar.
Dəyirmançının şahidi kömbəçi olar.
Dəymə mənə, dəyməyim sənə!
Dəymə tazıya - qaçar qazıya.
Dəyənək dəlinin, süpürgə gəlinin.
Dəymə düşərdir.
Dəli ağlamaz, ağıllı gülməz.
Dəli aydan qorxar.
Dəli bağlayanı ağıllı açа bilməz.
Dəli başına dövlət quşu qonub.
Dəli qazandı, ağıllı yedi.
Dəli qazının yazdığını, ağıllı qazı pozmaz.

Dəli quyuya bir daş atdı, min ağıllı çıxarda bilmədi.
Dəli qız dayısından yaşınar.
Dəli qız evdə qalmaz.
Dəli qırmızı sevər, gic – sarı.
Dəli deyingən olar.
Dəli demiş, ağıllı inanmış.
Əlisi dəli, Vəlisi dəli qırılmışın hamısı dəli?
Dəli dəlidən xoşlanar, molla – halvadan.
Dəli dəliyə qoşular, dəyənək göydən yağar.
Dəli dəliyə xoş gələr.
Dəli dost, qəlbi qara, mən belə dostu neylərəm?
Dəli dostun olunca, ağıllı düşmənin olsun.
Dəli dövran sürər, ağıllı vaxt gözlər.
Dəli elsiz, el dəlisiz olmaz.
Dəli ilə dövlətli, ikisi də bildiyini eylər.
Dəli ilə sərxoşun meydanı birdir.
Dəli ilə tapmaqdansa, ağıllı ilə itirmək yaxşıdır.
Dəli inəyin dəli də buzovu olar.
Dəli ol, bəxtin olsun.
Dəli öz zərərini güdər.
Dəli özü deyər, özü də gülər.
Dəli özünə bir dəli yoldaş tapdı, elə bildi ki, çox ağıllıdır.
Dəli sərxoşdan qorxar.
Dəli söyləyən doğru olar.
Dəli utanmaz, yiyəsi utanar.
Dəli çomağa rast gəlib.
Dəlidən ağıl ummaq olmaz.
Dəlidən doğru xəbər.
Dəlidir, başını vursun divara!
Dəliyə ağıl, qaraya sabun kar eyləməz.
Dəliyə bir hava bəsdir.
Dəliyə qanun yoxdur.
Dəliyə qoşulma, səni də dəli edər.
Dəliyə daş atma, başına daş yağdırar.
Dəliyə dedilər: – Dünyada dəli çoxdur, ağıllı?
Dedi: – Dəli!
Dedilər: – Nə üçün?
Dedi: – Dəli bir nəfərdir, ona dəli deyən minlərlə!
Dəliyə dedilər: – Nə üçün dəli olmusan?
Dedi: – Ağıllıların dərdini çəkməkdən!
Dəliyə dəyənək verməzlər.
Dəliyə dəli kimi cavab verməzlər.
Dəliyə yazı yoxdur.
Dəliyə yer ver, əlinə bel!
Dəliyə yüz öyrət, öz bildiyini eylər.
Dəliyə gündə bayramdır.
Dəliyə sorğu olmaz.
Dəliyə üz vermə.
Dəliyə halva-külçə neyləsin?
Dəlilər dünyanı əkdilər, ağıllı indi cüt qoşur!
Dəlini apardılar toya. Dedi: – Bura bizim evdən yaxşıdır!
Dəlini zəncirlə yox, tədbirlə tutarlar.
Dəlinin başında qoz ağacı bitməz.
Dəlinin bir ağıllısı olmaz?
Dəlinin buynuzu olmaz ki?
Dəlinin dilinə pəhriz yoxdur.
Dəlinin düşünməsinə, toyuğun eşələnməsinə dərman yoxdur.
Dəlinin yadına daş salma.
Dəlinin eşşəyi də dəli olar.
Dəlinin nə toyu olsun, nə bayramı.
Dəlinin sözü, sərxoşun gözü.
Dəlinin ürəyi dilindədir, ağıllının dili ürəyindədir.
Dəlinin xırmanı olmaz.
Dəlicə qızdan dəlicə gəlin olar.
Dəlləyi müştərisindən çox.
Dəllək dəlləyin başını qırxanda pul almaz.
Dəlləkliyi bizim başımızda öyrənir.
Dəm dəm gətirər, qəm qəm.
Dəm-dəm halvası deyil ki.
Dəmir ayaq, dəmir çarıq, dəmir diş.
Dəmir qapının taxta qapıya işi düşər.
Dəmir dəmiri kəsər.
Dəmir ki var, döydükcə uzanar.
Dəmir nəmdən, insan qəmdən çürüyər.
Dəmiri döyən dəmirçi olar.
Dəmiri isti-isti döyərlər.
Dəmiri kürədən dəmir çıxardar.
Dəmirsiniz, missiniz, hamınız bir cinssiniz.
Dəmirçi yanından keçən qığılcım yeyər.
Dəmirçi nə bilir qızıl nədir?
Dəmirçidə bıçaq tapılmaz.
Dəmirçinin ömrü tax-taxla, leyləyin ömrü lağ-lağla keçər.
Dəni ellərdən, suyu göllərdən.
Dəni məndən yeyir, başqa yerdə yumurtlayır.
Dəniz dalğasız, qızlar sevdasız olmaz.
Dəniz suyu kimi, nə içilir, nə kiçilir.
Dənizdə balıq sevdasız olmaz.

Dənizdə batan saman çöpündən yapışar.
Dənizə getsə dənizi qurudar.
Dənizi çömçə ilə boşaltmaq olmaz.
Dər-divarın da qulağı var.
Dərviş, belə iş?
Dərviş dilriş olar.
Dərviş yabısı hər evin yolunu tanıyar.
Dərviş məscidə girməz, bazarda meydan qurar.
Dərviş odur ki, dünyanı tərk edə, fəqir odur ki, dünya onu tərk edə.
Dərviş olan şahlıq iddiası eyləməz.
Dərviş öz evini çiynində gəzdirər.
Dərvişə bir şey verməmisən, kəşkülün bəs niyə sındırırsan?
Dərvişi - təkyədə, sərxoşu meyxanada axtar.
Dərvişin olduğundan.
Dərvişin fikri nə isə, zikri də odur.
Dərd ağladar, eşq söylədər.
Dərd adamı ağladar.
Dərd bir deyil, iki deyil.
Dərd bir idi, iki oldu.
Dərd bir olsa, yeriyər.
Dərd bir olsa çarəyə nə var?
Dərd bir ülgücdür, udsan yaralar, atsan yaxalar.
Dərd var gələr keçər, dərd var dələr keçər!
Dərd dərd üstündən gələr.
Dərd dərdə bənzəməz.
Dərd dərdi açar.
Dərd getməz, deyişər.
Dərd gəzər, dərman arar.
Dərd gələndə lailacı, pişiyə deyərlər: - Xanım bacı!
Dərd gələndə xalvar ilə gələr, çıxanda misqal ilə!
Dərd olmaz dərmansız, dəvə gördüm sarbansız, hamıya dərman oldu, balam öldü dərmansız.
Dərd olsun, söz olmasın.
Dərd çəkənə gərəkdir.
Dərdi verən, dərman da verər.
Dərdi olan danışar.
Dərdi olan dərman axtarar.
Dərdimi dağa desəm dağ əriyər, şam yanar, şölə çəkər, piltə yanar, yağ əriyər.
Dərdimiz hardan əyan olsun bizim dərdsizlərə.
Dərdlilər yaxşı bilir aləmdə dərdin qiymətin.
Dərdin yoxdur söylən, borcun yoxdur evlən.
Dərdini qoy dərdim üstə, onu da mən çəkim.
Dərdini dərd bilənə söylə.
Dərdini gizlədən - davasını tapmaz.
Dərdini unut, sözünü unutma
Dərdli dərdlinin dərdini axtarar.
Dərdlini dindirmə, özü dillənər.
Dərdsiz baş - bostan qırağında köpək.
Dərdsiz könüldə məhəbbət yuva açmaz.
Dərə mənim, düz mənim sənin burada nə işin var.
Dərə mənim, düz sənin.
Dərəni, təpəni sel bilir, yaxşını, yamanı el bilir.
Dərzi öz yırtığını yamamaz.
Dərziyə köç dedilər: iynəsini yaxasına sancdı.
Dərzinin mayası iynə-sapdır.
Dərilməmiş güldən dəstə bağlamaq olmaz.
Dərin su bulanmaz.
Dərinə getmə, məsələ böyüyər.
Dərya görünən yerdə qətrə nə görünər?
Dərya murdarlıq götürməz.
Dəryada balıq sevdası.
Dəryadakı balıq, göydəki quş satılmaz.
Dəryadan bir damcı.
Dəryadan nə əksik olacaq?
Dərdə nə əksik olacaq?
Dəryadan uzaq, bəladan uzaq.
Dəryaz işlər, qol öyünər.
Dəryaya daş atmaqla suyu bulanmaz.
Dəryaya bir daş at, ya bir qaya sal.
Dərgahın qapısı açıq olanda köpəyin yuxusu gələr.
Dərmansız dərdin dərmanı bimarlıqdır.
Dəstəmazsız namaz olmaz.
Dəstini qıran da bir, suyu gətirən də bir.
Dəhnəni dərin qazı, suyu gur gəlsin.
Div qurbağaya aşıq olub.
Divan ilə divanlıq eləmək olmaz.
Divan haqqa da baxar, nahaqqa da.
Divanxana qapısı, girəndə darvaza olar, çıxanda iynə gözü.
Divar binadan qaim olar.
Divarı nəm yıxar, insanı qəm.
Divarın dalısı da qürbətdir.
Divarın iki üzün yıxmazlar.
Dil ağrıyan dişə dəyər.
Dil ağrısından qol ağrısı yaxşıdır.
Dil adamı bəyan eylər.

Dil adamın düşmənidir.
Dil başa bəladır.
Dil başı güdaza verər.
Dil başı saxlar.
Dil var bal gətirər, dil var – bəla.
Dil ətdəndir.
Dil ki, var, ətdəndir, hara döndərsən dönər.
Dil ilə dost olanın ağzın ara, könlün al.
Diz ilə olan, zor ilə olmaz.
Dil yanılar, doğrusunu deyər.
Dil yarası qılınc yarasından yamandır.
Dil sümüksüzdür, amma sümüyü sındırar.
Dil ürəyin açarıdır.
Dildə bir şey deyib, ürəklə başqa şey tutma.
Dildə yox, işdə özünü göstər.
Dildən acı, dildən şirin şey yoxdur.
Dildən gələn əldən gəlsə, kasıb-kusub varlanar.
Dildir, nə qoruğu var, nə qaytanı.
Dilənçi torbasından çörək yeməzlər.
Dilənçiyə bir verərsən, bir də istər, sabahacan yatmağa yer də istər.
Dilənçiyə torbası ağırlıq eləməz.
Dilənçiyə xiyar verdilər, əyridir deyə almadı.
Dilotu yeyib!
Dili bal, işi bəla.
Dili varsa, dilçəyi də var.
Dili ilanı yuvasından çıxardar.
Dili topuq çalır.
Dili uzundur, ağlı gödək.
Dili xoş olanın havadarı çox olar.
Dilimin bələsından sana.
Dilim, dilim ol, dilim, bir az şirin ol, dilim, bir az həlim ol, dilim, sən ki, incitdin yarı dilim-dilim ol, dilim.
Dilimdə tük bitib.
Dilin bəlasıdır uzunçu olmaq, ariflər işidir, sükuta dalmaq.
Dilin olmasaydı, qarğalar dimdikləyərdi.
Dilində öd olanın hər şeyi acı olar.
Dilinə doğru söz gəlməz.
Dilini bilməyən anasın tanımaz.
Dilini qısa eylə.
Dilin qoy dilçəyinə.
Dilini saxlayan, başını saxlar.
Dilini tut, divanı ud.
Dilini uzun eləyən, başını bəlaya salar.
Dilinin bəlasını çəkir.
Dilinin pərsənki yoxdur.
Din elmin düşmənidir.
Dindən çıxsan da, eldən çıxma.
Dini dinara satan molla, dindən də olar, dinardan da.
Dini dinara satmaq olmaz.
Dini yeyib, imanı dalına atıb.
Dini olmayanın imanı da olmaz.
Dinindən dönər, imanından dönməz.
Dinmə ver!
Dinmə, səni udaram!
Dinməyənin bir dinəni olar.
Dinsizin ağzını imansız yumar.
Dinsizin malını imansız yeyər.
Dinsizin öhdəsindən imansız gələr.
Dinc adamsan, qanlı qapısında nə qayırırsan?
Dinc ayağa heç nə dəyməz.
Dincliyimi Şahmərdan kəsib.
Diri dirinin dərdini çəkər.
Diri it ölü aslandan yaxşıdır.
Diridən dirilik qalar.
Diriyə dirilik lazımdır.
Diriyə hay verməz, ölüyə pay.
Dirilik birlikdədir.
Dirini öldürmək olar, ölünü diriltmək olmaz.
Diz ağrısını can çəkər.
Diş verən dişlik də verər.
Diş qurdalamaqla qarın doymaz.
Diş yox ikən dodaq var idi.
Dişi düşmüş boz öküz, qoşulub cöngələrə.
Dişin ağrıdı – çək qurtar.
Dişinin qədrini bilməyən çənəsiz qalar.
Dişlərini ağartma, it sümük axtarır.
Dişsiz ağız – daşsız dəyirman.
Dımbılı ələk – dımbılı sac, əlim xəmir, qarnım ac!
Dığ-dığ qardaşı qardaşdan ayırar.
Dırnağı mayasından kəsməzlər.
Dırnağın varsa, başını qaşı.
Dovğa doqqazacan, qatıqlı aş darvazaycan.
Dovşan dağda – suyu ocaqda.
Dovşan dağdan küsmüş, dağın xəbəri yox.
Dovşan kiçik, qulağı böyük.
Dovşan nə qədər qaçarsa, o qədər də yatar.
Dovşan öz yatağında ovlanar.
Dovşan feyz alanda kənd qırağında gəzər.

Dovşana deyir, qaç, tazıya deyir, tut.
Dovşanı araba ilə tutur.
Dovşanı tutunca tazıya «atam» deyərlər.
Dovşanın gümanı ayaqlarına gələr.
Doqquz ay ananın qarnında necə qalmısan?
Doqquz atı səkkiz ağaca bağlayır.
Doqquz dərədən on qab su gətirər.
Doqquz döşəkli bala, axırda quru yerdə can verər.
Doqquz gün əciri on gün sadağa lazımdır.
Doqquzu verən, onu da verər.
Doqquzunda nə isə, doxsanında da odur.
Doğaram – oğlan doğaram, doğmaram – özümü boğaram.
Doğru büdrər, amma yıxılmaz.
Doğru deyənin başı keçəl olar.
Doğru deyən olsaydı, yalançı usanardı avara qalanlar dəxi bir söz də qanardı.
Doğru elə bilər hamı doğrudur, əyri elə bilər hamı əyridir.
Doğru yalanı qovar.
Doğru yolda yıxılan tez qalxar.
Doğru yolla gedən yorulmaz.
Doğru ol, asan yol ilə get.
Doğru söz acı olar.
Doğru söz acı olar, nəticəsi şirin.
Doğru söz dilinə gəlməz.
Doğru söz dostluğu pozar.
Doğru söz etiraz götürməz.
Doğru sözü zarafata salıb deyərlər.
Doğru söylə, at min çap.
Doğru tutulmayınca, oğru tutulmaz.
Doğruya zaval yoxdur, çəksələr min divana.
Doğruluq dost qalasıdır.
Doğruluq insanı heç vaxt utandırmaz.
Doğruluqla dost qapısın dolan gəz, öz evindir.
Dodağın qalınlığına baxma, sözün zərifliyinə bax.
Dozanqurdun da balası özü üçün əzizdir.
Dolayı gəl, dolayı, həsir basma, dolan gəl!
Dolan qoyunum, dolan, borc verən gələr, ya səni aparar, ya məni.
Dolanmağa yad ölkə, ölməyə vətən yaxşı.
Dolaşan qurd ac qalmaz.
Dolu quyuya it düşməz.
Dolu tüfəng bir nəfəri qorxudar, boşu – iki nəfəri.
Dolunu yeyib boşa təpik atma.
Don dedi: – Mən gedirdim, məni yamaq saxladı.
Don tapmaq asandır, dost tapmaq çətin.
Donluğuma darı, cirəmə kəpək qatmayın.
Donuzdan bir tük də qənimətdir.
Donuzdan toğlu doğulmaz.
Donuzun başı ağır olsa da, leşi çəkər.
Dor dibindən qaçandır.
Dost ağlar, düşmək gülər.
Dost arası pak gərək.
Dost arası sözsüz olmaz.
Dost başa baxar, düşmən ayağa.
Dost bir, düşmən on bir.
Dost qazan, düşməni nənəm də doğar.
Dost dar gündə tanınar.
Dost dosta arxa olar.
Dost dosta tən gərək, tən olmasa gen gərək.
Dost dostdan kənar olmaz, aralıqda mərdimazar olmasa.
Dost dostu dar gündə sınayar.
Dost dostun eybini üzünə deyər.
Dost-düşmən qara gündə məlum olar.
Dost ziyankar olmaz.
Dost ilə ye, iç, alış-veriş eləmə.
Dost yolunda boran olar, qar olar.
Dost yolunda əzaba düşənin el içində üzü ağ olar.
Dost gələr – düşmən gedər.
Dost gəlişi bayram olar.
Dost məni ansın bir çürük qoz ilə.
Dost məni yad eyləsin bir güleyşə nar ilə.
Dost min isə – azdır, düşmən bir isə – çoxdur.
Dost min olar, candan dost olan bir.
Dost ol, vəfalı ol.
Dost sevinər, düşmənin gözü çıxar.
Dost sirrini dosta deyər.
Dost üzdən bəlli olar, düşmən – gözdən.
Dosta – alqış, düşmənə – qarğış...
Dosta borc pul vermə, hər ikisi əldən gedər.
Dosta dost, düşmənə düşmən kimi bax.
Dostam səninlə, pulun qurtaranacan!
Dostdan belə sirrini saxla.
Dostdan zərər gəlməz.

Dostdan özünü qoru, düşmənlə hesablaşmağa nə var?
Dostla dağı tez aşmaq olar.
Dostluq düzlükdədir.
Dostluq göstərməklə düşmən əzilməz.
Dostluq üç almadır: gah ikisi səndə, birisi məndə, gah ikisi məndə, irisi səndə.
Dostluq həyat vəsiqəsidir.
Dostluq həmişə qalib gələr.
Dostluqla tutub, düşmənliklə yıxar.
Dostluğa dağlar da, dənizlər də mane ola bilməz.
Dostluğu ayı dostluğudur.
Dostluğun telini kobudluqla qırma, bir də bağlasan düyünü qalar.
Dostsuz insan – qanadsız quş.
Dostu dar gündə sına.
Dostuq, cibimiz ayrı.
Dostun atdığı daş baş yarmaz.
Dostun versə qum, sən onu ovcunda yum.
Dostun dost olsun, hesabın dürüst.
Dostun yoxsa, axtar, tapdın – qoru.
Dostun qədrini dost bilər.
Dostun sirrini dost bilər.
Dostun üzünü evində gör.
Dostuna borclu olma.
Dostunu ağladıb, düşmənini güldürmə.
Dostunu mənə de, deyim sən kimsən.
Dostunun dostu sənin də dostundur.
Dövlət ağıllının nökəridir, axmağın ağası.
Dövlət adama ayağı ilə gəlməz.
Dövlət başa bəladır.
Dövlət başa qonar, quzğun leşə.
Dövlət qulluğu göyərçinə bənzər, qonar, uçar.
Dövlət quşu başına qonub.
Dövlət dəniz suyu kimidir, içdikcə susadır.
Dövlət malı nə odda yanar, nə suda batar.
Dövlət sirrini dövlət bilər.
Dövlətdə dəvə, övladda nəvə.
Dövlətə bel bağlama.
Dövlətə etibar yoxdur.
Dövləti abıra çəpər edərlər.
Dövlətin də düşər-düşməzi olar.
Dövlətin ən yaxşısı ağıldır.
Dövlətin gəlhagəlidir.
Dövlətli yanına qaşıyanda, kasıb elə bilər ona pul verir.
Dövlətli kasıb olsa – qırx il iyi getməz.
Dövlətlidən xeyir olmaz, gordan mazarat.
Dövlətliyə bəli, yoxsula dəli deyərlər.
Dövlətliyə saxsı lazım olsa, kasıb kasasını sındırar.
Dövlətlinin dili uzun olar, əli qısa.
Dövlətlinin iti yatmaz.
Dövranını sürən sürsün, hər kəsin macalı var.
Döyən qalır qıraqda, döyülən tutulur.
Döyən, söyən ərim yox, yel aparan unum var.
Döymə özgə qapısını, döyərlər sənin qapını.
Döyməni xanım yeyər, kəpəyi – yetim.
Döymür, tozunu çırpır.
Döyülən ilə deyən bir deyil.
Döyülənin cibindən gedər
Döyülməmiş düyüdən aş olmaz.
Dörd divar arasında qalmışam.
Dörd divardır, bir həsir.
Dörd göz bir övlad üçündür.
Dua oxumaqla donuz darıdan çıxmaz.
Duanı biz eləmişik, yağış gör hara yağır?
Duz yerinə buz yalama.
Duz kimi hər aşa girər.
Duz-çörək qədri bilməyən itdən də alçaqdır.
Duz-çörək kəsmişik.
Duz-çörək itməz.
Duz çörəyin qədrini bilmək gərək.
Duzun duz olsun.
Duzdan ləziz, sudan əziz, bir şey yoxdur.
Duzu yeyib duz qabını sındırma.
Duzunu gimrik eyləyən çörəyini də fətir eylər.
Duymusan – malındır.
Dul arvad ağ kəlağayıdır, toxunma, ləkə düşər.
Dul arvad evdə oturmaz.
Dul arvad yetim saxlar, naxırçıya minnət qoyar.
Dul arvad yuxuda ikinci ərini görər.
Dul arvad özü yetimdir, amma yetimlərə anadır.
Dul arvad qız adına almazlar.
Dul arvadın boxçası qoltuğunda olar.
Dul arvadın divarı alçaq olar.
Dul arvadın dilləri, qaraca yazın günləri
Duman alçaqdan qalxar, ucanı gözlər.
Dumanlı gözə hər şey bulanlıq görünər.
Dumansız çən olmaz.

Dumbul görər oynar, mehrab görər ağlar.
Dumbulla gələn zurna ilə gedər.
Duran yatanın payını yeyər.
Duran yerdə işə düşmüşəm!
Duran öküz yatan öküzün başına batırar.
Durnanın başçısını vurarlar.
Durub getdik qışlağa, ümid qaldı yaylağa.
Düdəməyi hindi gəlir.
Düdüyə qoydular, çaldılar.
Düz ağacı ocağa qoymazlar.
Düz adamsan – təkyədə nə işin var?
Düz danışanla dost ol, səni tərifləyənlə yox.
Düz danışanı utandırmaq olmaz.
Düz əyrini kəsər.
Düz yaşa – yüz yaşa.
Düz yol gedən yorulmaz.
Düz yolun yolçusu azmaz.
Düz gəlmisən – düz get, qız gəlmisən – qız get.
Düz oldu – ox, əyri oldu – yay.
Düz söz acı olar.
Düz söz – bir söz.
Düz tanınmayınca – əyri tanınmaz.
Düzəndə min, enişdə yedəyin çək, dikdə qabaq sal, yeriməsə, mən zamin.
Düzlük uzanar, qırılmaz.
Dükançının saqqalı özünə əngəldir.
Dünən bir, bu gün iki.
Dünən – dost, bu gün aşna.
Dünən yediyini bu gün yadından çıxarıb.
Dünən yumurtadan çıxıb, bu gün qabağını bəyənmir.
Dünən yumurtadan çıxıb, bu gün bizə cip-cip öyrədir.
Dünən öləni dünən də basdırdılar.
Dünəni demə, bugünü de!
Dünənki işinə sağ ol, bugünkü işindən danış.
Dünənki məzənnəyə yoldaşım da hazırdır.
Dünənki nökərçiliyinə baxma, bugünkü ağalığına bax.
Dünya bala dönsə də, ala qarğa öz yeməyin bilər.
Dünya başına dar gəlir.
Dünya belə də qalmaz.
Dünya beş gündür, beşi də qara.
Dünya bir yağlı quyruqdur, yeyə bilənə nuş olsun.
Dünya bir yorğun ovdur, hər gələn bir dəm ovlar.
Dünya bir pəncərədir, hər gələn baxar gedər.
Dünya bitər, əngəl bitməz.
(Dünya bitər,yalan bitməz).
Dünya sənin, dünya mənim, dünya heç kimin.
Dünya boynu yoğunundur.
Dünya varına güvənmə!
Dünya – qazan, biz çömçə.
Dünya dediyin bir bağdır, hər gələn bir ağac əkib gedər.
Dünya, dünya, puç dünya!
Dünya, dünya nur dünya, gəl qaranı kəs dünya!
Dünya durduqca durasan!
Dünya yaz ikən qış tədarükünə bax!
Dünya yansa, bir tükü də yanmaz.
Dünya kasıba zindandır, varlıya meydan.
Dünya gedib, ucu qalıb, adamların bici qalıb.
Dünya gör-götür dünyasıdır.
Dünya malı dünyada qalacaq.
Dünya malına etibar yoxdur.
Dünya işinin madarı yoxdur, heç kimsəyə etibarı yoxdur.
Dünya mənim deyənin, dünən gəldik yasından.
Dünya bir nərdivandır, biri çıxar, biri düşər.
Dünya tükənər, düşmən tükənməz.
Dünya xali deyil.
Dünya çalışanların əlindədir.
Dünyada adamdan adamlıq qalır.
Dünya asandan çətin, çətindən asan şey yoxdur.
Dünyada bir pislik qalar, bir də yaxşılıq.
Dünyada ən zor iş anlamaza söz anlatmaqdır.
Dünyada iki şəxs heç vaxt dost olmaz: biri – qanan, biri – qanmaz.
Dünyada ən yaxşı şey yaxşılıqdır.
Dünyada oğul toyundan şirin heç nə ola bilməz.
Dünyada pulsuz – axirətdə imansız.
Dünyada hər an, mərdə arxalan.
Dünyada hər kəs öz haqqına razı olsa, dava olmaz.
Dünyada hər şey satılıb-alınar, namusdan başqa.
Dünyada üç şey gördüm; oldum, evləndim, öldüm.
Dünyadan xəbəri yoxdur.
Dünyaya bel bağlama.
Dünyaya dayanma, varına inanma.
Dünyaya etibar yoxdur.

Dünyaya eşşək gəlib, eşşək də getdi.
Dünyanı verim açıb.
Dünyanı dolansan da qarğasan, qarğa!
Dünyanı ikiəlli tutma.
Dünyanın axırıdır?!
Dünyanın ən bəxtiyar insanı kimsəyə möhtac olmayanındır.
Dünyanın ən böyük neməti cansağlığıdır.
Dünyanın işini hər təhər tutsan keçər gedər.
Dünyanınkı əvəz-bədəldir.
Dünyanınkı borcdur.
Dünyaca gözəlliyin olunca, zərrəcə bəxtin olsun.
Düş desəm – düşməzsən: qoyun iri, quzu xırda, keçi kəssəm eməzsən.
Düşmən adama «qadan alım» deməz.
Düşmən qarışqa da olsa, sən onu fil say.
Düşmən qaçarkən qarğalar cürətlənər.
Düşmən düşməndir, nə yaxşısı nə yamanı?!
Düşmən düşmənə qəzəl oxumaz.
Düşmən düşmənə Quran oxumaz).
Düşmən düşmənin halına qalmaz.
Düşmən gücsüz də olsa, ehtiyatı əldən vermə.
Düşmən ətək altından çıxar.
Düşmən yaxandan tutanda it ətəyindən tutar.
Düşmən səni daş ilə sən düşməni aş ilə.
Düşmən çox olanda qaçmaq da mərdlikdəndir.
Düşmənə bel bağlama.
Düşmənə varanda ürəyində nifrət, əlində tüfəng; dosta varanda ürəyində məhəbbət əlində çörək.
Düşmənə quyu qazıyınca, dosta ev tikərsən!
Düşmənə sahib çıxan, düşmən sayılar.
Düşmənə fürsət vermə, ayıq ol.
Düşməni bas, hər yol ilə bassan, bas!
Düşməni elə vur ki, bir də özünə gəlməsin.
Düşməni yumşaqlıqla dost edən ağıllıdır.
Düşmənin bəlisindən dostun şilləsi yaxşıdır.

E

Ev ayranı acı olar.
Ev alma , qonşu al.
Ev bağda , bağ dağda.
Ev bizə qaldı desənə, halva bişibdir – yesənə.
Ev bizim, sirr bizim.
Ev böyüksüz olmasın.
Ev buzovundan öküz olmaz.
Ev dağılsa tiri qalar, kalafa uçsa – yeri.
Ev sözsüz olmaz, meşə çaqqalsız.
Ev süpürürəm, yer salaram, kimin qızından dala qalaram?
Ev təzə, divar təzə, ələyim, səni hardan asım?
Ev tikən balta çöldə qalar.
Ev xoruzudur.
(Ev pəhləvanıdır).
Ev şamdan işıqlanar, baş – bilikdən.
Evdə bişməyib, qonşudan gəlməyib.
Evdə qonaq olanda uşağa acıqlanmazlar.
Evdə div olur, çöldə divanə,
(Evdə xoruz olur, bayırda toyuq).
Evdə gəlinim olsun, bayırda – yeznəm.
Evdə öz başını bağlaya bilmir, toyda gəlin başı bağlayır.
Evdəki hesab bayıra çıxmaz.
Evdən qabaq qonşu axtar.
Evdir, aşağısı da olar, yuxarısı da.
Evə girirəm qarı döyür, bayıra çıxıram – tanrı.
Evi abad al, bağı – bərbad.
Evi abad edən arvaddır.
Evi yoxdur, qapı axtarır.
Evi odlanan mən əli kösövlü sən.
Evimizə gəldi qonaq vay dədəm vay, dədəm vay, olaydı yumurta, bişirəydim qayqanaq, vay tava dərdi, yağ da yoxdur !
Evin bəzəyi ocaqdır.
(Evin bərəkəti ocağındadır).
Evin böyüyü buyruqda, kiçiyi – qulluqda.
Evin zibilini küçəyə atmazlar.
Evin iti ol, kiçiyi olma.
Evin yaraşığı gəlindir.
Evin yaraşığı uşaqdır, süfrənin yaraşığı – qonaq.
Evin yıxılsın Müşküllü Məmməd, ayının böyüyünü burada qoyub gedib meşədə axtarır.

Evin minarə dibində olsa da, qulağın səs eşitməz.
Evin olsun avardan, od düşsün gilavardan!
Evində dəlik, belində yara, yar sirrini ellərdə ara.
Evində yatır, yuxuda Həzrəti Suleymanı görür.
Evində tapmaz bir çürük darı, bardaş qurub oturar hamıdan yuxarı.
Evlənən evdar olar.
Evlənən göz-qulaqda olar.
Evlənənlə ev tikənin köməkçisi çox olar.
Evlənmək su içmək deyil.
Evlər ayrı, qayğılar ayrı.
Evlər damı isti sacdır, davam gətirən oturar.
Evlərə gedən qızın başı qovğalı olar.
Evlərə gedən qızın: qulaqları kar, dili lal, gözləri kor gərək.
Evlərə gedən qızın dili altında qənd gərək.
Evli evdə yatar, qərib harda axşamlar?!
Evli evində gərək.
Evsizə qız verməzlər.
Ey əmmamə, gör qayış nə çəkir?
Ey zər, allah deyilsən, amma eyiblərə pərdə çəkənsən.
Ey yar, gəl bağrımı yar, gör içində nələr var.
Ey özü-özünü bəyənmiş, qoy səni el bəyənsin.
Ey fələk, batmanı eylədin çərək, hamıya verdin qovun, qarpız, mənə erdin yelpənək.
Ey cüt yatan bəxtəvər, demirsən bir tək də var?!
Eyib eləmə eybəcərin eybinə, eyib edirsən öz-eybinə eybi yox.
Eyibi eylər eybəcər, soğanı yeyər dərdəcər.
Eyib tapır özgəyə, bir baxmayır güzgüyə.
Eybini bilən, özgəyə eyib eyləməz.
Eyibli eybini bilsə, başına kilim örtər.
Eyibli söz danışma.
Eyibsiz dost axtaran, dostsuz qalar.
Eyibsiz yar axtaran, yarsız qalar.
Eyibsiz gözəl olmaz, ay üzündə də ləkə var.
Eyməçiyə (qatıqçıya) doşab göstərməzlər.

El ağzı ilə quş tutulmaz.
El ağzı – yel ağzı.
El ağzı kəramətdir.
El ağzı torba deyil ki, büzəsən!
El ağzı faldır.
El oğzı – çuval ağzı.
El ağzı ilə şorba içilməz.
El ağzına baxan, qarısını tez boşar.
El ağzında bir sözün yüz rəngi var.
El ağzını bağlamaq olmaz.
El adamı igid deyə candan edər, comərd deyə maldan edər.
El ayranı yanğını soyutmaz.
El arasında it quyruğu kəsməzlər.
El atan daşa güc çatmaz
(El atan daşı qalxızmaq olmaz).
El atanı – ər atar, el tutanı – ər tutar.
El atanı haqq da atar.
El bərəkallahı qarın cırar.
El bir olsa – dağ oynadar yerindən, söz bir olsa, zərbi gərən sındırar.
El qabağı – yel qabağı.
El qazanı ilə aş qaynamaz.
El qalxdı, sən də qalx.
El qapısı – həkim qapısı.
El qapısı, həm gec, həm güc açılar.
El qızına inanmaq olmaz.
El dağlara dayanıb, çıraqlı indi oyanıb.
El dəli olanda mollaya gedər, molla dəli olanda hara gedər?
El dəlisiz olmaz.
El dəlisin çölə atmaz.
El eybini sənə deyən, sənin də eybini elə deyər.
El el ilə, dəyirman yel ilə.
El el ilə keçinmiş, qardaş qardaş ilə keçinməmiş.
El elin aynası – batmanı, tarazısı.
El elin itgisini bayatı oxuya-oxuya axtarar.
El igidləri ilə tanınar.
El ilə allahu-əkbər.
El ilə bir ağla, el ilə bir gül.
El ilə qara gün bayramdır.
El ipilə quyuya düşən, quyuda qalar.
(Özgə ipilə quyuya düşən, quyuda qalar).
El içində – əmioğlu; əmioğlu içində – qardaş.
El içində ol, el içində öl.
(El içində – öl içində).
El yandıran şamı söndürmək olmaz.
El ağzı faldır
El ağzı – çuval ağzı.
El el üstə sığınar.
El yaxşı, biz yaman, el buğda, biz saman.
El yaxşılığın unutma.
El yumruğunu görməyən, öz yumruğunu batman sanar.
El keçən körpüdən sən də keç.
El kisəsindən dəvələr sənə qurban.
El köçdü, oba qaldı.
El köçdü, sən də köç.
El gözü aydın görər.
(El gözü sərrafdır).
(El gözü tərəzidir).
El gözüylə dünya görünməz.
El gözündən düşən boy atmaz.
El gücü güclü olar.
El malı ilə dost qazanılmaz.
El malına kəm baxan, malsız-davarsız qalar.
(El malına kəm baxanın gözlərindən qan damar).
El malına göz tikən, gözsüz qalar.
El malına göz tikmə, özün qazan, özün ye.
El malını qoru öz malın kimi.
El mahnısı – yallı səsi.
El namusu elə düşər.
El nəğməsini eldən öyrənərlər.
El oğlu yumurtaya qulp qoyar.
El od başına yığılar.
El öz dəlisini yaxşı tanıyar.
El sağolunu qazandın, el sağolundan özünü gözlə.
El salan körpüdən hamı keçər.
El sevəni aləm sevər.
El səsi – haqq səsi.
El sözü – ata nəsihətidir.
El sözü – atalar sözüdür.
El hara, sən də ora.
El hər qalın bostan qırağına gəlməz.
El hümmətlə, quş qanadla.
El çalan zurnanın səsi uzaqdan gələr.
El şamı daim yanar.
Eldə olan bəydə olmaz.
Eldə xəbər çox olar.
Eldən dərs alan Loğman olar.
(Eldən-elə, dildən-dilə, kim gülə, kim gülməyə).

Elə arxalanan igid başa çatar.
Elə edən, sənə də edər.
Elə iynə sancmaq istəyən əvvəlcə özünə sancar.
Elə kor deyən özü badamgözlüdür?!
Elə gedən əliboş qayıtmaz.
Eli olmayanın dili də olmaz.
Elimə qalsın, günümə qalmasın.
Elin atdığı daş uzaq gedər.
Elin gözü daşı əridər.
Elin gücü – tufan gücü.
Elin gücü, yelin gücü, selin gücü – güclü olar.
Elin sözü daşı yeridər.
Elin sözü əvvəl-axır düz olar.
Elin sözünə baxan ac qalmaz.
Elin tərəzisi yoxdur.
Elin tutduğu quşun quyruğu qısa olar.
Elə allam, eşşəkdən palan alan kimi!
Elə atadan belə oğul?!
Elə bağın belə də meyvəsi olar.
Elə bil balıq ağzıdır.
Elə bil buz baltasıdır.
Elə bil qurbağa gölünə daş atdılar.
Elə bil dalınca atlı salıblar.
Elə bil dədəsini mən öldürmüşəm.
Elə bil dənizdə üzən gəmidir.
Elə bil yumurta üstə oturub.
Elə bil malakan xəncər bağlayıb.
Elə bil odun üstə su töküblər.
Elə bil ölü qəbirdən xortdayıb.
Elə bil kilsəyə bir daş atdım.
Elə bil tükün oda tutdular.
Elə bil üstümdən dağ götürüldü.
Elə bil daşdan talaşa qopub.
Elə bilir yuxa arasında halvadır.
Elə bilirsən qara gözünə aşiq olub?
Elə bir daşdır ki, götürən də peşmandır, götürməyən də.
Elə vurram beş gedərsən.
Elə qazana, belə çuğundur gərək.
Elə qazanın belə də aşı olar.
Elə qırmızıdır ki, toxum xoruzuna oxşayır.
Elə don geymək gərək ki, yamağı evdə tapıla.
Elə elə ki, bir də bazara şor satan gəlsin.
Elə elə ki, nə şiş yansın, nə kabab.
Elə zılxın (çuğundurun) belə qazanı olar.
Elə iş tut ki, içindən qənbərqulu çıxmasın.
Elə ye ki, dişlərinə zərər eləməsin.
Elə ye ki, həmişə yeyəsən.
Elə yeməyin belə də qusmağı olar.
Elə yerdə ev salmışam ki, yıxılanda vay deyəm.
Elə yerdə otur ki, altına su çıxmasın.
Elə keçəl deyil ki, qartmağı yerə tökülə.
Elə söz de ki, kalı tökülsün, dəymişi qalsın.
Elə söz deyir ki, bişmiş toyuğun gülməyi gəlir.
Elə hürəyən itdən, belə zınqıldayan tula olar.
Elə çobanın belə də sürüsü olar.
Elə çömçənin belə də qazanı olar.
Elə tikə götür ki, uda biləsən.
Ellər bizə, biz ellərə.
Ellər köçər, dağlar qalar.
Ellər nə gözəl məsəl demişlər:
Dünyanı mürur ilə yemişlər!
Ellərə gülən canım, el mənə gülən oldu.
(Ellərə gülən canım, indi olmuşam el gülüncü).
Elm ağlın çırağıdır.
Elm adama zinətdir.
Elm bir xəzinədir, nə qədər sərf edərsən, o qədər artar.
Elm zəhmət ilə ələ gələr.
Elm insana böyük mirasdır.
Elm var ki, – rəndədir, adamı hamarlayır.
Elm mərtəbəsi uca olar.
Elm oxumaq – iynə ilə gor qazımaq deməkdir.
Elm para ilə yox, çalışmaq ilə ələ gələr.
Elm sahibinə böyük zinətdir.
Elm öyrən beşikdən qəbrəcən.
Elminə əməl etməyən alim, əlində çıraq gəzdirən kora bənzər.
Elmli adam cürətli olar.
Elmli qazıya şahid lazım deyil.
Elmsiz adam meyvəsiz ağac kimidir.
Elmsiz adam – ruhsuz cəsəd.
Elçi çox olar, qismət bir.
Elçiyə zaval yoxdur.
Elçiyə yox cavabı verməzlər.
Enişin yoxuşu, yoxuşun da enişi var.
Erkək aslan şirdir, dişi aslan şir deyil?!
Erkək atın yəhəri yırtıq olar.
Erkək balıqdan da yaşınır.
Erkək quş ötər, dişi quş yuva tikər.
Erkək quşun yuvası olmaz.
Erkək eşşəyin altında bala axtarır.

Erkək eşşək, yanı qoduqlu?!
Erkək itin qarnı tox gərək.
Ertəyə qalan, arxaya qalar.
Ertəyə qalan bəladan qorxma.
Ertəykən əkən, erkən də biçər.
Ehtiyat ən böyük qoçaqlıqdır.
Ehtiyat igidin yaraşığıdır.
Ehtiyat şərtdəndir.
Ehtiyatlı qoyunu qurd yeməz.
Ehtiyatlı oğulunë anası ağlamaz.
Ehtiyatı əldən vermə.
Eşq ağladar, dərd göynədər.
Eşq bir dəryadır, üzmək bilməyən bu dəryada boğular.
Eşqi topuğuna vurub.
Eşqin tərs-avandı olmaz.
Eşidən görənə xəbər verir.
Eşik qar, içəri dar.
Eşit inanma!
Eşitdiyini unut, gördüyünü demə.
Eşitmək istəmədiyini özgəsinə eşitdirmə.
Eşitmək hara, görmək hara.
Eşitmək görməyə bənzəməz.
Eşitmişəm, görməmişəm.
Eşşək aldım qatır çıxdı.
Eşşəyə min, ata çatınca.
Eşşəyə min, baxtın açılsın.
Eşşəyə min, piyada qalma.
Eşşəyə minib, eşşəyi axtarır.
Eşşək anqıranda itin başı ağrıyar.
Eşşək at yerini verməz, ciyər - ət yerini.
Eşşək bozdur, dəyirmana getməz.
Eşşək böyük, palanı kiçik.
Eşşək qaçıb, palanı qalıb.
Eşşək dağda ölər, sorağı evə gələr.
Eşşək eşşəyə uzunqullaq deyər.
Eşşək ya oduna gedər, ya suya.
Eşşək yük altında anqırmaz.
Eşşək Məkkəyə getməklə hacı olmaz.
Eşşək nə bilir zə№fəran nədir?
Eşşək nə bilir xurmanın dadını?
Eşşək nədir, döşək nədir.
Eşşək olsa da özümüzünküdür.
Eşşək olan qulaqların sallasın, nalbənd gəlib ayaqların nallasın.
Eşşək olasan, çulun bu qədər nazik?!
Eşşək palçığa batan, yiyəsindən qeyrətlisi tapılmaz.
Eşşək palçığa bir dəfə batar.
Eşşək palçığa batandan sonra yol göstərən çox olar.
Eşşək tapılanda yük vuran çox olar.
Eşşək üstən düşən olmuşdu, heç bunun kimisi olmamışdı.
Eşşək üstə qəmə bağlayana gülərlər.
Eşşəkqulaq - qabanbaş, heç görmüsən yeriyə daş?!
Eşşəkdən nə qanacaq umursan?!
Eşşəkdən soruşdular:
Mənzilə nə vaxt çatırıq?
Dedi: - Üstümdəkindən soruş!
Eşşəklər evdə oturub, qoduqlar sahəyə çıxıb.
Eşşəyə buynuz versən, vurar ölkəni dağıdar.
Eşşəyə qızıl yükləsən, qiyməti artmaz.
Eşşəyə qızıldan noxta taxsan yenə adı eşşəkdir!
Eşşəyə dedilər:
Mə№rifətini göstər!
Yıxıldı ağnadı.
Dedilər: - Yenə!
Anqırdı.
Eşşəyimin qurd dayısı.
Eşşəyin anqırmayanı olmaz.
Eşşəyin anqırması özünə xoş gələr.
Eşşəyin anqırması artıq düşəndə, yiyəsinə şıllaq atar.
Eşşəyin qarqışı töylədədir.
Eşşəyin quyruğu kimi, nə uzanır, nə qısalır.
Eşşəyin qulağını kəsməklə köhlən olmaz.
Eşşəyin qulağını uzadan uzadıb.
Eşşəyin duası müstəcab olsaydı çarvadar yolda ölərdi.
Eşşəyin yaşından çərçinin daşından baş çıxartmaq olmaz.
Eşşəyin yükü ağır olanda yiyəsi aparar.
Eşşəyin yükü yüngül olanda oynamağı gələr.
Eşşəyin palanı eşşəyə yük olmaz.
Eşşəyin üzünü yüyanda külək qopar.
Eşşəyin hesabı başqa, eşşəkçininki başqa.
Eşşəyin canı yananda atdan bərk qaçar.

F

Fayda – zərər hesab başında məlum olar.
Fayda zərərin qardaşıdır.
Faydasız qohumdan faydalı yad yaxşıdır.
Fal yox, yumurta da yox.
Falın faldır, fərmanın allah.
Farsın – qəzəli, türkün məsəli.
Fəqir əlinə baxırsa, sən cibinə bax.
Fəqirə axmaq deyərlər, kasıba gic.
Fəqirə həmdən gəlməz.
Fəqirin təsəllisi – ölümdür.
Fəqirin cibi – boş, qəlbi doludur.
Fələkə bel bağlamaq olmaz.
Fələyin beylə-beylə işləri çox, aslanı ac gəzdirər, tülkünü tox.
Fələyin qaydasıdır, dağı dağ üstündən çəkər.
Fələyin zoruna heç nə kar etməz.
Fələyin çərxi dönər.
Fələyin işinə bax, ayıya qaval çaldırır.
Fələk birin qurar, birini dağıdar.
Fələk güclü – mən gücsüz.
Fənd nə bilir fel ilə fənddə nə var?!
Fərə çıxdığı qabığı tanıyar.
Fərsiz oğuldan bir qara daş əfzəldir.
Fərsiz övlad altıncı barmaq kimidir, kəsərsən ağrıdar, saxlarsan – eybəcər göstərər.
Fikri nəysə, zikri də odur.
Filin gücü xortumundadır, dəvənin gücü – dizində.
Fırtdayıb burnundan düşüb.
Füzulu atdılar cəhənnəmə, dedi: – Odunu yaşdır!
Fürsət əldə ikən yaxşılıq eylə.
Fürsət hər zaman ələ düşməz.
Fürsəti fot eyləyən aqil deyil, divanədir.

©2005 – Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

G

Gah qovurt, gah qovurğa, keçirtdik ömrü belə.
Gah qul olar satılar, gah çıxar taxta kosa.
Gedən gedər, oturan yol gözlər.
Gedənə – yoldaş, gələnə qardaş.
Gedəni saxlamaq olmaz.
Gedər aclıq, gələr bolluq, bizə qalar kömbə yanığı.
Gedər bağlar qorası, qalar üzlər qarası.
Gedər bu gözəllik, sənə də qalmaz.
Getdi – görə bilməzsən, yıxdı – hörə bilməzsən, onu ki, sən deyirsən, onu daha görməzsən.
Get özünə dost qazan, düşmən ocaq başında.
Get çanağım, gəl çanağım, ortalıqda sın çanağım.
Getdi babamın xeyratına.
Getdi qara qızın eşqinə.
Getdi gedər-gəlməz yoluna.
Getdim adına, tüpürdüm dadına.
Getdim dərdli yanına o məndən narın ağladı.
Getdim savab edəm, günaha batdım.
Getmə gözümdən, gedərəm özümdən.
Getməsin o yaman ki, yerinə yaxşı gəlməyəcək.
Getmişdi kabab iyinə, gördü ki, eşşək dağlayırlar.
Gec danışsan, kəlamın gül olar.
Gec kəsər, karlı kəsər, məzlumun ahı səni!
Gec gəldi, tez öyrəndi.
Gec gələn qonaq, olduğundan yeyər.
Gecə qara, cücə qara.
Gecə gedər, gündüz gələr.
Gecə gəl, vecə gəl.
Gecə gəldi, gecə getdi, necə gəldi, necə getdi!
Gecə-gündüzüm bir olub.
Gecəni gündüzə qatmışam.
Gecəsi-gündüzü yoxdur.
Gecə sol yatan səhər sağ oyanar.
Gecə şərab, gündüz qumar, bu əməllə sənət umar.
Gecənin ərizəsini həzrət Süleyman oxumayıb. (Gecənin ərizəsini heç kəs oxumayıb)
Gecə dırnaq kəsən, gündüz nağıl danışan əlbət gora gedər.
Gecənin xeyrindən gündüzün şəri yaxşıdır.
Hər zülmət gecənin bir gündüzü var, bir yandan bağlayan bir yandan açar.
Gecə pişik samura oxşar.
Gədadan bəy olmaz.
Gədadan borc alma, ya toyda istər, ya bayramda.
Gəzən ayağa daş dəyər.
Gəzən qızın qazancı ənlik-kirşana gedər.
Gəzəyən qızdan gəlin olmaz.
Gəzər divanə-divanə parası olmayan dərviş.
Gəzərdə – qoyun əti, onun da boyun əti.
Gəl bir addım, gəlim iki addım.
Gəl bu şeytan atından en!
Gəl daşı ətəyindən tök!
Gəl deməsi yaxşıdır, get deməsi pis.
Gəl məni gör, dərdimdən öl.
Gəldi qaşın qayırsın, vurdu gözün çıxartdı.
Gəldi – qatıq, gəlmədi – ayran
Gəldi əcəl – vermədi macal.
Gəldi-gedəri saxlamaq olmaz.
Gəldi-gəldisi şah gəldisinə dönüb.
Gəldi xəzri, ver nəzri, gəldi gilavar – onda nə var?
Gəldik cahan haqqı tapaq, molla qoymadı.
Gələn qismətini yeyər.
Gələn, gedənə rəhmət oxuyar.
Gələnə qapı açıqdır, gedənə yox!
Gələnə «gəlmə» deməzlər.
Gələnə «xoş gəldin», gedənə – «yaxşı yol» deyərlər.
Gələnin qisməti özündən qabaq gələr.
Gələcəyi varsa, gedəcəyi də var.
Gəlin anasına həm ağlar, həm də «gedirəm» deyər.
Gəlin atda, qisməti yadda.
Gəlin var gələr – gətirər, gəlin var gedər – itirər.
Gəlin evin yaraşığıdır, cəlalıdır, bəzəyidir.
Gəlin gəlin deyil, gəldiyi yer gəlindir.
Gəlin mənim süpürgəmdir, harda qoysam oturar.
Gəlin ocağa çəkər.
Gəlindən qız olmaz.
Gəlinin dili yox, qaynananın imanı.

Gəlinciyim, qızlığım, darayı tuman, dizliyim.
Gəlinin yelkəni əyilib.
Gəlmək qonaqdan, yola salmaq ev yiyəsindən.
(Gəlmək səndən, yola salmaq ev yiyəsindən)
Gəlmək bizdən, yola salmaq sizdən.
Gəlməkdən əvvəl gedəcəyini düşün.
Gəlirinə bax, xərc eylə.
Gəmidə oturub gəmiçi ilə savaşır.
(Gəmiyə minib gəmiçi ilə dalaşır).
Gəmini qurtaran pişgahdır.
Gəminin işini gəmiçi bilər.
Gəmisi suya oturub.
Gəmisini batıran çarığını axtarmaz.
Gənəşəkli don gen olar.
Gənc yaşlarından namusunu qoru.
Gənclik gözəllik deməkdir.
Gənclik ömrün baharıdır.
Gənclikdən qocalığa ömür saxla.
Gəncliyin yükünü gənclikdə çəkərlər.
Gərək gərəklə iş keçməz.
Gərək saatla yox, vicdanla işləyəsən.
Gərək soyuq günlərdə də, dost salsın dostu yada.
Gərəyi əkiblər, quluncan göyərib.
Gərəyi əkiblər, bitməyib.
Gərəkli malı gərəksiz gündə al.
Gərəkməzi saxla, bir gün gərək olar.
(Gərəkməzi saxla, gərəkli günə qala.)
gərəksiz şey gərəkli gündə.
Gətirəndə: – El gətirər, yel gətirər, sel gətirər.
Aparanda: – El aparar, yel aparar, sel aparar.
Gizli düşmən ilan kimidir, sürünə-sürünə səssiz gələr.
Gilavar, get, xəzri, gəl.
Gilas bağın olsa, bilərsən sığırçın necə quşdur.
Girdiyin yer qaranlıqsa, sən də gözünü yum.
Girərəm yaylağından çıxaram qışlağından.
Gic toyuq yumurta aparar.
Gicin buynuzu olmaz.
Goru var ki, kəfəni də olsun?!
Gödək adam gündə üç dəfə padşahlıq iddiasında olar.
Gödək adam vurdu uzunun başına, uzun dedi: – Əcəb yadıma saldın!
Göz bizim – söz bizim.
Göz bir pəncərədir, könülə baxar.
Göz qənimini tanıyır.
Göz qulaqdan irəlidir.
Göz dəyəndə «gözlə» dəyər.
Göz istədiyi gözələ baxar.
Göz yumulub açılınca fürsət əldən gedər.
Göz gözə alışanda ayrılıq çətin olar.
Göz gördü, könül sevdi, daha mənim nə günahım.
Göz gördüyün danmaz.
Göz gördüyündən qorxar.
Göz gördüyünə inanar.
Göz görməz, üz utanmaz.
Göz görməsə könül bulanmaz.
Gözdə olmayan, könüldə də olmaz.
Gözdən düşüb.
Gözəl ağa çox gözəl idi, vurdu çiçək çıxartdı.
Gözəl arvad şıltaq olar.
Gözəl eyibsiz olmaz.
Gözəl kamallı gərək.
Gözəl – göz üçün, ağıllı – könül üçün.
Gözəl gözəl deyil, könül sevən gözəldir.
Gözəl görünər, çirkin bürünər.
Gözəldə etibar olmaz.
Gözəldən göz ağrısı, çirkindən dərdi-bəla.
Gözələ baxmağın könül səfası var.
Gözələ göz dəyər, qəlbə – söz.
Gözələ baxmaq göz qaydasıdır.
Gözəllər çox iş görərlər, soyarlar adamı, dərviş edərlər.
Gözəllik vardan olar, olmasa – hardan olar?!
Gözəllik ondur, doqquzu dondur.
Gözəllik baş tacıdır, hər adama qismət olmaz.
Gözəllik hər kəsin əməlində yaşayır.
Gözdən əsgi asır.
Gözdən iraq, könüldən uzaq.
Gözləri vəlfəcri oxuyur.
Gözləri buz üstə çıxmış dananın gözlərinə oxşayır.
Gözləri yollarda qalıb.
Gözləri fal daşı kimi açılır.
Gözlərindən qan damır.
Gözlərindən cin çıxır).
Gözsüz yaşamaq olar, vətənsiz yox.
Gözü ilə görən tanrıdan yaxşı bilər.
Gözü ilə görür, dili ilə istəyir.
Gözü yolda, qulağı səsdə.
Gözü tox olanın könlü də tox olar.

Gözüm səndən su içmir.
Gözüm üstündə yerin var.
Gözümüz yollarda, qulaqlarımız səsdə.
Gözümün ağıcan olsun, özümün olsun.
Gözün aydın olsun, pişiyimiz oğlan doğub!
Gözün bir ayağın altına baxsın.
Gözünə qara su gələr.
Gözünə torpaq atır.
Gözünün qabağına baxmayanın ayağına baş dəyər.
Gözünün nuru yoxdur.
Göydə axtarırdım, yerdə əlimə düşüb.
Göydən zənbil ilə düşməz.
Göydən yağmasa, yerdə bitməz.
Göydən gələn yerə qəbuldur.
Göyə tüpürmə, üzünə tökülər.
Göyçək arvadlı ilə, yorğa atlıya yoldaş olma.
Göycə muncuq kimdədir, mənim gözüm ondadır.
Gölməçəyə su gəlincə qurbağanın gözləri bərələr.
Gönü qalın adamdır.
Gönü suya vermə, verdin heyfsilənmə.
Gördü – hənək, görmədi – gerçək.
Gördüyün güllü kömbədir, bazara çıxıb qoğal olub.
Gördüyündən göz kirayəsi istəyir.
Gördüyünə aldanma.
Gördüyünlə nə işin var, sən bildiyindən danış.
Gördüyünü qoyub, eşitdiyinə inanma.
Gördün yarın yar deyil, tərkin qılmaq ar deyil.
Gördün ərin ər deyil, tərkin qılmaq ar deyil.
Gördün yemək, daha nə demək?
Görən gözə yasaq olmaz.
Görən gözün haqqı var, görən görüb götürər.
Görmədiyin yükün altına girmə.
Görməyə gözü var, eşitməyə qulağı.
Görməmiş görsə, ağıldan çıxar.
Görməmişin oğlu oldu, vurdu gözün çıxartdı.
Görülmüş işdən gül iyi gələr.
Görünən dağ uzaq deyil.
Görünən kəndə nə bələdçi?!
Gönünü dabbağxanada tanıyırlar.
Götürən peşiman, götürməyən də.
Guş daşı yerdə qalmaz.
Güvənmə varlığa, düşərsən darlığa.
Güvəc qazana dedi: – Üzün qaradır!
Güvəc daşa toxunsa – vay güvəcin halına,
Daş güvəcə toxunsa – vay güvəcin halına!
Güvəc yumbalanar qapağın tapar.
Güvəcə verə-verə çıxan qazan bahası.
Güvəci ya sındır, ya dağdan yuvarlat.
Güvəclə qazanın nə aşnalığı?!
Güzgü əyri olsa əksi əyri göstərər.
Güzgüyə baxan öz camalın görər.
Güzgüyə baxan özgəsini görməz.
Gün altında yatmayan kölgənin qədrini bilməz.
Gül, bülbüldən artıq, insan əlindən çəkər.
Gül qönçədə qalmaz, söz – qəlbdə.
Gül əzizdirsə, gülşən ondan əzizdir.
Gül istəyən tikanın da istəsin gərək.
Gül getdi, xar qaldı, güldən yadigar qaldı.
Gül güllüyü ilə üşüməz.
Gül o qədər bitib, reyhan arada itib.
Gül olmayan yerdə, böyürtkən özünü gül sanar.
Gül solanda bülbül ağlar.
Gül tikansız, dərə ilansız, səfa cəfasız olmaz.
Güldən ağır söz demək olmur.
Güldən gül iyi gələr.
Gülər üz, dadlı dil ilanı yuvadan çıxardar.
Güllə məndən sovuşsun, ya yoldaşıma dəysin, ya saman çuvalına.
Güllüyün gülü beş günlükdür.
Gülmək ağlamaqla əkizdir.
Gülü yad etdikcə, bülbülün fəryadı artar.
Gülü get güllükdən gətir.
Gülün qədrini bülbül bilər, nə bilər hər divanə?!
Gülünə bax, qönçəsini dər.
Gülmə qonşuna, gələr başına.
Gülmə gülünc olana, xəmiri linc olana, özün gülünc olarsan, xəmiri linc olarsan.
Gülmək ağlamağın qardaşıdır.
Gün var keçib gedər, gün var yadda qalar.
Gün doğuşundan bəllidir.
Gün ilə bat, gün ilə çıx.
Gün keçər, qəza keçməz.
Gün keçər, kin keçməz.
Gün keçir, ömür gedir, dəli bəzənir ki, bayram gəlir.
Gün kimi aydındır.
Gün girən evə həkim girməz.
Gün girməyən evə həkim girər.
Gün görməyən günü gördü, durdu çıraq yandırdı.

Gün o gün deyil, dünya o dünyadır.
Gün öz işığını heç kəsdən əsirgəməz.
Gün hansı tərəfdən çıxıb?
Gün çıxar, aləm görər!
Gün çıxdı – kosanı aldatmaq olmaz.
Günahkar oldu lələ, saqqalı verdi ələ.
Günbəz görər, elə bilər içində imamzadə var.
Gündə bir dona (rəngə) girir, ana da deyir qızım var.
Gündə bir söz eşitməsəm qulaqlarım tutular.
Gündə qazan, gündə ye.
Gündoğan səlamətdir, günbatan məlamət.
Gündüz gedir dar-dar edir, axşam gəlir yer dar edir.
Gündüz gəzər obanı, axşam sancar dabanı.
Gündüz molla, gecə oğru?!
Gündüz çıraq yandıran, axşam qaranlıqda qalar.
Gündüz şam yandıran gecə şamsız yatar.
Günəbaxan günə baxar!
Günortadan sonra dükan açan nə qazanar?
Günü ilə gün yoxdur.
Günü günə satmazlar.
Günü gündən günü əsirgər.
Günü gününün ölümünü istər.
Günlüyə, yanı qoduqluya, ruzigar haramdır.
Günüm yoxdur, günüm var.
Günümü göy əskiyə bağlayıb.
Güc birlikdədir.
Güc doğanağa düşər.
Güc gələndə dad bacadan çıxar.
Güclü yanında gücsüz günahkar.
Güclü günahkar olmaz.
Güclü gücsüzdən qisas almaz.
Güclüyə nə düz, nə çörək?!
Gücü var, təpəri yox.
Gücü gücümdən çox, ağlı ağlımdan az.
Gücü çatana donuz güddürər.
Gücün çatmayan işə girişmə.
Gücün çatmayan daşı qaldırma, zərbə düşərsən.
Gücünə bax, şələni bağla.

©2005 - Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

H

Havayı sirkə baldan şirin olar.
Haqq ver, haqq al.
Haqq verən haqq götürər.
Haqq – qüvvət, qüvvət – haqqdır.
Haqq daşı ağır olar.
Haqq deyən məhrum olmaz.
Haqq yandıran şamı söndürmək olmaz.
Haqq iş gündən aydındır.
Haqq kömək eyləsə qurd çoban olar.
Haqq getsin, nahaq gəlməsin!
Haqq söz axar suları saxlar.
Haqq söz acı olar.
Haqqa ləkə düşməz.
Haqla batilin arası dörd barmaqdır.
Haqlı haqqdan keçməz.
Haqq-hesaba dağlar da baş əyər.
Haqq-hesabı düz elə, hər yerdə yerin olsun.
Hazır aşın dik qaşığıdır.
Hazır oldu bişmişlər, gəldi gözdən düşmüşlər.
Hayıf qiyamətə qalmaz.
Hayıf olsun, mərd igidlər qocalır.
Haynan gələn, vaynan gedər.
Hay-hayı gedib, vay-vayı qalıb.
Halal artar, haram batar.
Halal incələr, amma üzülməz.
Halal ye, halal danış.
Halalzadə barışdırar, haramzadə qarışdırar.
Halva-halva deməklə ağız şirin olmaz.
Halvanı yeyib, eşşəyi minib.
Halvaxor molladır!
Halvaçı qızı – daha şirin!
Hamam-hamam içində, xəlbir saman içində, dəvə dəlləklik eylər, köhnə hamam içində.
Hamam suyu ilə özünü dost tutur.
Hamamdan gəlirsən – get ərin evinə, paltar yumaqdan gəlirsən – get dədən evinə.
Hamamdan çıxanın əri olasan, səfərdən gələnin arvadı.
Hamı bilir ki, dağda kəklik gözəldir.
Hamı bilir ki, Şirvan çuxurdadır.
Hamı dedi – Dad oldu, mən deyəndə – bidad.
Hamı dinəndə can oldu, mən dinəndə qan oldu.
Hamı ilə xoş görüşmək ədavəti yox eylər.
Hamı istər cənnətə getsin, amma günahları qoymaz.
Hamı çox yaşamaq istər, amma qocalıq istəməz.
Hamını bəzər, özü lüt gəzər.
Hamını ley vurdu, mənim kimi tükü dağılan olmadı.
Hamıya aftafa-ləyən, bizə sarımsaqdöyən.
Hamıya it hürər, bizə Mazandaran çaqaqlı.
Hamıya kələk, bizə də kələk?
Hamıya gələr gözü qara, qələm qaş, bizə də gələr sallaqburun keçəlbaş.
Hamıya ovuc-ovuc, bizə bir iynə ucu.
Hamımız birimiz üçün, birimiz hamımız üçün.
Hamıya hörmət elə, hörmətin olar.
Hamısı bir bezin qırağıdır.
Hamısı bir yuvanın quşudur.
Hansı daşı qaldırsan, altından bir əqrəb çıxar.
Hansı dərdimi deyim, ağlayım?
Hansı yuvanın quşusan?
Hansı əl ilə vermisən, o əl ilə də alarsan.
Hanı o sulu qəlyan?
Hanı papağım, hanı çomağım?
Harada qamış, orada camış.
Harada dəvənin quyruğu, orda eşşəyin qulağı.
Harada gördün dərviş, orada olar nikbət iş.
Harada gördün molla, qaşqabağını salla.
Harada gördün hamı kor, sən də ol kor.
Harada çalğı, orada qalğı.
Haradan işıq gəlir, barmağını ora tıxar.
Hardasan, ay cavanlıq?
Haraya mıx çaxıram, papağını asır.
Haram gəldi halalı apardı.
Haram malın bərəkəti olmaz.
Haram harama gedər.
Hacı yatmaz, yatarsa qalxmaz.
Hacı Məkkəyə, dərviş təkyəyə.
Hacı hacını Məkkədə görər.
Hacadan, hucadan, biri də çıxdı bacadan.
Hacılar Məkkəyə getdi, qapıları açıq qoyun,
Hacılar Məkkədən gəldi, qapıları bağlayın.
Heyvan qatlaşar, yiyəsi qatlaşmaz.

Heyvan elə heyvandır.
Heyvan saxlasan pişik saxla, özü tutar, özü yeyər.
Heyvana çuluna görə, insana geyiminə görə qiymət vermək düz deyil.
Heyvanda arıqlıq, insanda yekə qarınlıq eyibdir.
Heyvanı budundan dağlarlar, insanı ürəyindən.
Heyvanı acgözlüyü onu kökəldər, insanın acgözlüyü onun başını yeyər.
Heyvanın dişinə baxarlar, insanın – işinə.
Heyvası yox, narı yox, qoy desinlər Şahbudağın bağı var.
Heydərü-Səfdərdi bizim pirimiz, qırxınıza taydı bizim birimiz.
Heyrətdə ağıl, yolda – salam, qəmdə – təsəlli.
Hesab bilməyənlə durub-oturma.
Hesab bilmirsən, yoxsa yanın çubuq görməyib?
Hesab var dinar-dinar, bəxşiş var xalvar-xalvar.
Hesabda doğru ol, hesabdar olma, hesab bilməyənlə durub oturma.
Hesabı təmiz olanın üzü ağ olar.
Hesabsız gələn zərərlə gedər.
Hesabı doğru olanın alnı açıq olar.
Hesablıya dağlar da əyilər.
Hesabın böyük-kiçiyi olmaz.
Heç bəndənin yaralı balası gözü qabağında olmasın.
Heç bilmir, harada bişib, deyir: – Bir çömçə də mənə ver!
Heç igidin yatmasın baxtı, yanı üstə çevrilməsin taxtı.
Heç kəs ana qarnından gətirməyib.
Heç kəs arxasız olmasın.
Heç kəs qurdnan qiyamətə qalmaz.
Heç kəs yalqız qalmasın.
Heç kəs öz ayranına turş deməz.
Heç kəs öz eybini bilməz.
Heç kəs heç kəsin kitabını oxumur.
Heç kəsə bel bağlama.
Heç kəsin qara papağı yanmasın.
Heç kəsin xoruzu sabaha kimi banlamayıb.
Heç kəsin çörəyi heç kəsin qarnında qalmaz.
Heç kəsin şamı səhərəcən yanmayıb.
Heç kimin adı vayqanlı olmasın.
Heç kim adama müftə quş tutmaz.
Heç neyə – heç nə ala bilməzsən.
Heç toy görməmisən, bacasından da baxmamısan?
Heçi heçə vurarsan, yenə də heç çıxar.
Həvəsdir – bəsdir.
Həqiqət bir şeydir, onu hər kəs dürlü anlar.
Həddini bilməyənə həddini qandırarlar.
Hərdən sözün mərəzi gələr.
Həya imandandır.
Həyası olmayanın insafı da olmaz.
Həyasıza salam ver, keç.
Həyasızda insaf olmaz, insafsızda – həya.
Həyasızdan həyanı qoru.
Həyatı ölənə qədər sev.
Həkim qapısı – el qapısı.
Həkim məhrəmdir.
Həkim həkim deyil, başına gələn həkimdir.
Həkim ceyran əti buyurubdur.
Həkimdən sorma, çəkəndən sor.
Həkimə getsən – dava verər, falçıya getsən – dua.
Həkimi həkim eyləyən xəstədir.
Həkimsiz, hakimsiz şəhərdə qalma.
Hələ arxanla qapı açmamısan?
Hələ boynu qoltuq görməyib.
Hələ döyülməmiş dənləri var.
Hələ quyruğu qapı arasında qalmayıb.
Hələ yarası sağalmayıb.
Hələ görməli günüm qabaqdadır.
Hələ saqqalı ələ verməmişəm.
Hələ səfrəsi naməhrəm üzü görməyib.
Hələ halvaxor olmayıb.
Hələ harasını görürsən?
Həlləm-qəlləm adamdır.
Həm ziyarət, həm ticarət.
Həmyaşlıqda ölən şəhiddir.
Həmid xəstə, Həsən xəstə, Nadirqulu can üstə.
Həmişə bağda-bağatda!
Həmişə biz görürük, bir yolda sən gör.
Həmişə bülbül ötməz.
Həmişə sən gələsən!
Həmişə şaban, bir kərə də Ramazan.
Həmnişini bab elə, görən desin hə belə.
Həmsayənin arvadı göyçək.
Həmxana – dəmxana.
Həmcinsini tanımayan ayağa düşər.
Həmşəridən kəndxuda hansı vilayətdə var?
Hənək-hənək, axırı dəyənək.

Hənəyin axırı savaşdır.
Hər adam öz eybini bilməz.
Hər adamın öz yeri var, hər yerin də öz adamı.
Hər adamın əkdiyi bitməz.
Hər ağac kötüyündən çürüyər.
Hər ağac meyvəsi ilə tanınar.
Hər ağaca söykənmək olmaz.
Hər ağacın kölgəsi olmaz.
Hər ağacda bar olmaz.
Hər ağlar gözlüyə aşiq deməzlər.
Hər ağız bir deyil.
Hər ağızda bir dua var.
Hər ağızdan bir söz çıxar.
Hər ağıl bir deyil.
Hər ağıl bir olsa, keçiyə çoban tapılmaz.
Hər almağın bir qaytarmağı var.
Hər anın bir hökmü var, bir mələlı var.
Hər arvad öz evinin həm xanımı, həm qulluqçusudur.
Hər arvad saqqız çeynər, amma Ayişə kimi çeynəyə bilməz.
Hər atalar sözünün bir yeri var.
Hər atasının gözü çıxarılana Koroğlu deməzlər.
Hər atılan daşın dalınca getməzlər.
Hər axan su içməli olmaz.
Hər axan suya Araz deməzlər.
Hər acının bir şirini var.
Hər aşiqin bir dövranı var.
Hər bağçanın öz bağbanı var.
Hər başın bir dərdi var.
Hər binanın bir ustası var.
Hər bir adam işi ilə tanınar.
Hər bığı burma meydana girə bilməz.
Hər vaxt bazara gedər – yağış yağar, dəyirmana gedər qırğın olar.
Hər vaxt «dü şeş» gəlməz.
Hər vaxt fürsət ələ düşməz.
Hər qaba bir qapaq qoyarlar.
Hər qazanda qaynayar.
Hər qazılan yerdən su çıxmaz.
Hər qatırçı Murad olmaz.
Hər qaşığın qisməti bir olmaz.
Hər qəbahəti özündə bil.
Hər qəbahəti üzə vurmazlar.
Hər qoz girdədir, hər girdə – qoz deyil.
Hər quş şahin olmaz.
Hər quş öz dəstəsiylə uçar.
Hər quş öz yuvasının ağasıdır.
Hər quş öz tayı ilə uçar.
Hər quşa – öz yuvası, hər kəsə – öz vətəni.
Hər quşun əti yeyilməz.
Hər quruldayan sulu qəlyan deyil.
Hər qışın bir yazı var.
Hər dağ olsa çəkilər, bala dərdi çəkilməz.
Hər dağın öz ətəyi var.
Hər damcı qüvvətdir bir daşqın selə.
Hər danışana cavab versən boğazın yırtılar.
Hər daşın dibində bir Koroğlu var.
Hər dəlinin bir ağıllısı olmalıdır.
Hər dəlləyin əlinə saqqal vermək olmaz.
Hər dərdin bir dərmanı var, tapanı gərək.
Hər dərədə bir at öldürüb baytar olub.
Hər divarın qulağı var.
Hər evin bir adəti var.
(Hər elin bir adəti var).
Hər eybi üzə vurmazlar.
Hər enişin bir yoxuşu, hər yoxuşun bir enişi var.
Hər yetəni eylədilər kəndxuda, girami Şüvalan getdi bada.
Hər zaman bir aşiqin dövranıdır.
Hər zamanın bir fironu var, hər fironun da bir Musası.
Hər zamanın bir hökmü var.
Hər zərər bir ağıl artırar.
Hər zərərdə bir xeyir var.
(Hər ziyan bir xeyirdir)
Hər igid öz adıyla tanınar.
Hər iri gözün işığı olmaz.
Hər iş vədəyə baxar, vədə heç şeyə baxmaz.
Hər iş ustasının əlində asandır.
Hər işi atüstü görməzlər.
Hər işi insafla gör.
Hər işimiz düzəlib qalıb saqqal darağımız.
(Bitib hər yarağı, qalıb saqqal darağı)
Hər işin başı – sağlıq.
Hər işin əvvəli çətindir.
Hər işin sonuna baxarlar.
Hər işıq bir kölgə salar.
Hər yazan şair olmaz.
Hər yazan şair olsa, dibərlər çaqqal olar,
Çox çalışan xırdavatçı axırda baqqal olar.
Hər yazılana inanmazlar.

Hər yerdə olsa, qanlını, əlbəttə, qan tutar.
Hər yerin bir dəbi var.
Hər yerin dovşanını o yerin tazısı tutar.
Hər yetən gözələ gözəl deməzlər.
Hər kəs ata bilər, amma vura bilməz.
Hər kəs atdığı oxun hara dəyəcəyini bilsin gərək.
Hər kəs bildiyini, dəyirman – döydüyünü.
Hər kəs yüz il yaşamasa, günah onun özündədir.
Hər kəs ki, bilmir, və bilir ki, bilmir, çolaq eşşək üstə özünü mənzilə yetirər.
Hər kəs necə olsa, başqasını da, özü kimi bilər.
Hər kəs odu öz kömbəsinə çəkər.
Hər kəs öz ağlını bəyənər.
Hər kəs öz adını çəkər.
Hər kəs öz dərdilə, dəyirmançı su ilə.
Hər kəs öz dərdindən danışar.
Hər kəs öz evinin həm nökəri və həm də ağasıdır.
Hər kəs öz eybini bilir.
Hər kəs öz əkdiyini biçər.
Hər kəs öz əməlinin meyvəsini dərər.
Hər kəs öz yurdunu bəyənər.
Hər kəs öz kisəsindən yeyər.
Hər kəs öz kömbəsini gözlər.
Hər kəs öz gəlir-çıxarına baxar.
Hər kəs öz ölüsünü oxşayır.
Hər kəs öz ürəyindən su içər.
Hər kəs özündən dəm vurar.
Hər kəs nə eyləsə özünə eylər.
Hər kəs hər şeyi öz ölçüsü ilə ölçər.
Hər kəs şərarət əksə, peşimançılıq biçər.
Hər kəsə öz vətəni əzizdir.
Hər kəsə öz adəti xoş gələr.
Hər kəsə öz yükü ağır gələr.
Hər kəsin balası öz gözündə göyçəkdir.
Hər kəsin bir dərdi var, heç kəsə deməz, ağlar.
Hər kəsin bir işi var.
Hər kəsin dəlisi evdə, dərdi qarnında.
Hər kəsin dərdi özünə bir at yüküdür.
Hər kəsin iradəsi öz əlindədir.
Hər kəsin keçəcəyi özünə görə olar.
Hər kəsin malı özünə görə qiymətlidir.
Hər kəsin öz ağlı.
Hər kəsin öz bəxti.
Hər kəsin uşağı özünə şirindir.
Hər kəsin hörməti öz əlindədir.
Hər kəsin çörəyi xəmirinə görədir.
Hər kimin ki, bağı var, keyf çəkməyə çağı var.
Hər kişi gücünə görə yük tutar.
Hər kişinin nəbzinə görə şərbət verərlər.
Hər könülün bir yazı, bir qışı var.
Hər gördüyünü dost sanıb, sirrini açma.
Hər külək dağı yerindən tərpədə bilməz.
Hər gedişin bir gəlişi var.
Hər gecənin bir gündüzü var.
Hər gəlirin bir çıxarı var.
Hər gözəldə bir eyib olar.
Hər göldən bir qurbağa, Göy göldən min qurbağa.
Hər gördüyünə aldanma.
Hər gördüyünü atana oxşatma.
Hər gün bir olmaz.
Hər gün günahkar, bir gün tövbəkar.
Hər güldən gülab olmaz.
Hər gülün bir qoxusu, bir ətri var.
Hər nə gedər ömürdən gedər.
Hər gün ömürdən bir kərpic düşür.
Hər gün nə tapsan, odur.
Hər meyvə öz ağacında.
Hər meyvə öz vaxtında yetişər.
Hər meyvənin kalı dəysə, insanın kalı dəyməz.
Hər meyvənin öz dadı var.
Hər nə desən özünə gedər.
Hər nöqsanı özündə gör.
Hər nə yedin dadındır, hər nə verdin adındır, hər nə qalsa yadındır – oğluna qalsa yad qızı ilə yeyəcək, qızına qalsa yad oğlu ilə.
Hər nəyə əl vururam, qulpu qalır əlimdə.
Hər otun öz kökü var.
Hər oxuyan Molla Pənah olmaz.
Hər ölümə qəhrəmanlıq deməzlər.
Hər parıldayan qızıl olmaz.
Hər pərdə dalında yüz sirr var.
Hər rast gələnə dost demə.
Hər saatın bir hökmü var.
Hər saqqala salam verməzlər.
Hər saqqallı baba olmaz.
Hər saqqallıya dədə demə.
Hər saqqalı ağ olana ağsaqqal deməzlər.
Hər sarğı hər yaraya sarılmaz.
Hər səbrin axırı var.
Hər səhvi üzə vurmazlar.

Hər səhəng suda sınmaz.
Hər sözün bir pərsəngi var.
Hər sözün öz yeri, öz məqamı var.
Hər su keçid verməz.
Hər suda mərcan olmaz.
Hər tullanan qoz bitsə, meymun qozsatan olar.
Hər ucaboylu ağac sərvi-xuraman olmaz.
Hər uzun ağaca çinar deməzlər.
Hər üzə gülənə dost deməzlər.
Hər fəslin bir meyvəsi var.
Hər xoruz öz yerində eşələnər.
Hər xoruz öz həyətində banlar.
Hər xoş görünən kimsəyə aldanma, heyifsən, hər xoş görünən kimsədə vicdan ola bilməz.
Hər heyvanın balası dalınca gedər, eşşəyin balası qabağınca.
Hər hürənə daş atsan, Daş daş üstə qalmaz.
Hər çağırılan yerə getməzlər.
Hər çərənçiyə cavab versən, boğazın yırtılar.
Hər çiçəyin bir ətri var.
Hər cəfanın bir səfası var.
Hər şey bitər, kosanın saqqalı bitməz.
Hər şey öz vaxtında.
Hər şey ustasının əlindədir.
Hər şeyə barmaqarası baxmazlar.
Hər şeyə dodaq büzmə.
Hər şeyə göz dəyər, müflisə göz dəyməz.
Hər şeyi bilmək olmaz.
Hər şeyi vaxtında əksən, dürr bitər.
Hər şeyi demək olmaz.
Hər şeyin azı yaxşıdır.
Hər şeyin əvvəli çətin olar.
Hər şeyin öz adı var.
Hər şeyin öz vaxtı var.
Hər şeyin öz yeri var.
Hər şeyin sonu vardır.
Hər şeyin təzəsi, dostun köhnəsi.
Hər şeyin xiridarı gərəkdir.
Hər şeyin çoxu zərərdir.
Hərdən ipək, hərdən köpək.
Hərzə sözün mərəzi gələr.
Hərzə-hərzə danışma, ağzın yamana öyrənər.
Hərə bir barmaq batırar, hənasına dəllək Muradın.
Hərə bir sap versə, çılpağa köynək olar.
Hərə bir tük versə, kosa da saqqallı olar.
Hərə bir cürə başını itirib.
Hərəkət səndən, bərəkət məndən.
Hərəkət harada, bərəkət orada.
Hərəmxana quşudur.
Hərənin başından bir avaz gəlir.
Hərənin bir adəti var.
Hərin də yandırdı məni, bəlin də yandırdı məni, susadım su istədim, suyun da yandırdı məni.
Hərif olma!
Hərif hərifi uzaqdan tanıyar.
Həsən də qəlyan çəkər, Hüseyn də qəlyan çəkər, tənbəki bol olanda siçan da qəlyan çəkər.
Həsən keçəl, keçəl Həsən - nə fərqi?.
Həsir altından su yeridir.
Həsiri oğurlayıb məscidə salır.
Həftə səkkiz, mən doqquz.
Həftədə bir bazar, onu da dərviş pozar.
Həcəri öpməyənə hacı deməzlər.
Həcdən gələn mən, xəbər gətirən sən?
Həccə gedən gəldi, saca gedən gəlmədi?
Həşəmin azdırsa, xırmanını böyük tut.
Hiylə ilə iş görən, möhnət ilə can verər.
Hiylə ilə tikilən ev, bəhanə ilə yıxılar.
Hiyləbazın şamı yarıyacan yanar.
Hiyləgər doqquz ocaq yıxmayınca bir ocaq tikməz.
Hikmət sahibinə hər yarpaq bir kitabdır.
Hikmətdən sual olmaz.
Hind dilənçisinə dönübdür.
Hindistan fili ağcaqanaddan qorxar.
Hirs gələndə acığını ud.
Hirs gəlir, göz qaralır, hirs gedir, üz qaralır.
Hirsin dövlətə zərəri var.
(Hirsin cana ziyanı var).
Hırnan-zırı anlamır.
Hoqqabazlar kimi, hər şeyə bəli demə.
Höyür sürüyə qurd batmaz.
Hünər əhlinin qədrini bilmək gərək.
Hünər sahibləri darda qalmaz.
Hünərin bilmədiyini acizi döymə.
Hürə bilməz, itləri başa salar.
Hürən it qapmaz.
Hürəndə anası kimi hürər.
Hürə-hürə axırda it olub.
Hürər-hürər, burnu şişər.
Hürkütməyincə sanamaq olmaz.

Hürməyin bilməyən it, kəndə qonaq gətirər.

İ

İblis ilə mollanın sirri birdir.
İddiası tərlan, özü yapalaq.
İy bilir.
İy bilməyən tula dərisini kola verməz.
İyirmisində yel çəkən altmışında sızıldar.
İylənmiş ətə milçək qonar.
İyirmi mədaxili, iyirmi bir məxarici olanın vay halına.
İylənmiş suyu içməzlər.
İynə aləmi bəzər, özü lüt gəzər.
İynə batırana çuvalduz batırarlar.
İydə varsa, cəhrədə də var, onu əyirən qarıda da var.
İynə verərsən, sap da istər.
İynə-iynə, ucu düymə, hoppan-huppan, yarıl-yırtıl su iç, qurtul!
İynə ilə gör (quyu) qazır.
İynə gətir, sap gətir, Şahqulu, yamaq gətir.
İynə gözündən baxaram, cümlə cahanı yıxaram.
İynə olub yaxama sancılma.
İynə olub sancılmısan ətəyimə.
İynə salsan yerə düşməz.
İynə torbada qalmaz.
İynə udmuş köpəyə dönüb.
İynə ucu qədər bir deşik bir küpü boşaldar.
İynə üstündə oturan kimi oturub.
İynə hara, sap da ora.
İynəni axtaran dəvəni itirər.
İynəni özünə batırar, çuvalduzu yoldaşına.
İynənin işini çuvalduz görməz.
İki adam bir adama qoşundur.
İki adam danışanda üçüncüsü danışmaz.
İki ağız bir olsa, bir ağız heç olar.
İki ayaq bir başmağa yerləşməz.
İki ayağın var, ikisini də kirayə elə.
İki arvadlı ev bərəkətsiz olar, süpürülməmiş (zibilli) qalar.
İki arvadlının ağzının dadı olmaz.
İki arvadlının donu yırtıq olar.
İki at bir ağaca bağlanmaz.
İki atlı ağam vay, birini xan bağışlayacaqdı, birini də lobya satıb alacaqdı.
İki baş bir qazanda qaynamaz.
İki baş - dörd ayaq.
İki başlı heyvandan yox, iki dilli insandan qorx.
İki bit, bir birə, kəndxudanı saldılar girə.
İki verməsən, bir ala bilməzsən.
İki qapıda gəzən köpək ac qalar.
İki qibləyə namaz olmaz.
İki qılınc bir qına sığmaz.
İki qulaq iki eşitmək üçündür, bir ağız bir demək üçün.
İki dəvə əlləşəndə otluq xarab olar.
İki dilənçi bir qapıda dilənməz.
İki dişi var qabaqda, çörək qoymaz tabaqda.
İki dovşan dalınca yüyürən heç birini tuta bilməz.
İki dostun arasına girməzlər.
İki düşün, bir danış.
İki evi bir eləmişik, düyünü batman yarım.
İki əli yaxasındadır.
İki eşit, bir danış.
İki eşşəyin arpasını bölə bilmir.
İki eşşək bir axurdan arpa yeməz.
İki eşşəkdən bir at yaxşıdır.
İki əl bir baş üçündür.
İki əl bir başı saxlamayacaq?!
İki itin arasına bir sümük atmazlar.
İki yana baxan çaş qalar.
İki kəsək bir daşa əvəz olmaz.
İki kişi danışanda, üçüncüsü sən olma.
İki gözü var idi, birini də borc elədi.
İki güləşənin biri basılar.
İki nəsihətdən bir sərəncam yaxşıdır.
İki nəfər desə ki, sərxoşsan, başını qoy yerə.
İki su bir çörək yerini tutmaz.
İki fındıq bir qozu qırar.
İki həkimi olan xəstə sağalmaz.
İki canbaz bir ipdə oynamaz.
İkinci arvad yamaqdır.
İkisi birə dəyməz, biri - heçə.
İkisini də bir ilan sancıb.
İkiüzlü adamdan dost olmaz.
İgid arxasında igid gizlənər.
İgid basdığını kəsməz.

İgid qovğasız olmaz.
İgid döyüşdə məlum olar.
İgid igidə xor baxmaz.
İgid ilqarından dönməz, dəvə ovsarından.
İgid ya tər altda, ya yer altda.
İgid yarasız ölməz.
İgid yarasına igid qatlaşar.
İgid yüz yaşar, fürsət bir düşər.
İgid ləqəbilə tanınar.
İgid meydanda məlum olar.
İgid odur, atdan düşüb atlana, igid odur, hər əzaba qatlana.
İgid odur ki, apardığını gətirsin.
İgid oğul düşmənə əyilməz.
İgid oğul cavan eylər atanı.
İgid ölər, adı qalar, müxənnətin nəyi qalar?
İgid ölər ünü qalar, öküz ölər köpü qalar.
İgid səsinə güc verməz.
İgid ürəyi haça olar.
İgid canlı, kabab qanlı.
İgidə hünərinə görə ad verərlər.
İgidi yaxşı saxlar, yaxşı arvad, yaxşı at.
İgidim igid olsun, kol dibi evim olsun.
İgidin axmağı qılıncını dayısında sınar.
İgidin başı qalda gərək!
İgidin əli işdə gərək.
İgidin igiddən nəyi artıqdır?
Ehtiyatı!
İgidin (mərdin) mənzili bir olar, namərdin mənzili olmaz.
İgidin xəncəri qınında qalmaz.
İgidliyin də yeri var.
İmam əzizdir, qara pul imamdan da əzizdir.
İmam tək-tək tapılar, tin başı şümürdür.
İmam şaftalı ağacı deyil ki, hər yerdə bitə.
İmamzadə piy gətirəni tanıyar.
İl baharından bilinər.
İl var bir günə dəyər, gün var bir ilə.
İl ötər, ay dolanar, şənbə düşər novruza.
İldə başa gəlməyən, dildə başa gələr.
İl xırmansız olmaz.
İlan ağzından qurtardı, qurbağa ağzına düşdü.
İlan adamın topuğunu gözlər, adam ilanın başını.
İlan balasını da çalar.
İlanın boğazına girən çıxmaz.
İlan boğan vaxtıdır.
İlan vuran ala çatıdan qorxar.
İlan vuran yatar, ac yatmaz.
İlan qabığını dəyişər, xasiyyətini dəyişməz.
İlan deyər: - Mən adamı sancmaram, sancanda elə sancaram ki, eşşək buynuzunda sərçənin südü dərman olsun.
İlan əvvəl ovsun qızdıranı sancar.
İlan ilanı vurmaz.
İlan yatar, düşmən yatmaz.
İlan yolu əyri gedər, yuvasına düz gedər.
İlan yeddi qardaş olar.
İlan yeyib əcdaha olub.
İlan yerisin, balası da dalınca.
İlan kimi qıvrılır.
İlan öz qonşusunu sancmaz.
İlan torpağı mürur ilə yeyər.
İlan ulduz görməsə ölməz.
İlan üzdən xal-xal olur, insan içəridən.
İlan çıxdığı bacanı yaxşı tanıyar.
İlana ağunu kərtənkələ verər.
İlana balası qənim olar.
İlanı yaralı buraxmazlar.
İlanı yuvasında öldür.
İlanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdırmayana lənət!
İlanı özgə əli ilə tutur.
İlanı sən tut, mən gözünü çıxardım.
İlanın ağına da lənət, qarasına da.
İlanın ayağını, qarışqanın gözünü, mollanın çörəyini, heç kəs görməyib.
İlanın başı ağrıyanda, yolun ortasında yatar.
İlanın başını özgə əli ilə əz.
İlanın quyruğunu basmasan sancmaz.
İlanın quyruğunu yox, başını əzərlər.
İlanın zəhləsi yarpızdan gedər, o da bitər yuvasının ağzında.
İlqar imandadır.
İlqarından dönən namərddir.
İlk atılan daş uzaq gedər.
İlkin var - mülkün var.
İlin axır çərşənbəsi kimiyə düşər, kimiyə yox.
İllər qocaltmaz insanı, qüssə qocaldar.
İlmənin ucunu tutanda iş yoluna düşər.
İnsan qocaldıqca aynaya baxmağı az istər.
İnsan daşdan bərk, güldən zərifdir.
İnsan dostunu, düşmənini tanımalıdır.

İnsan döyüş meydanında tanınar.
İnsan insana lazım olar.
İnsan gərək insana gərək olsun,
İnsan gərək hər an gərək olsun.
İnsan olmayan insan qədrini bilməz.
İnsan məxluqatın əşrəfidir.
İntelligent Həsən!

İnsan səy və qeyrəti ilə tanınar, bəzəyi ilə tanınmaz.
İnsan xain olmasa, heyvan damğanı neylər?
İnsan çiy süd əmib.
İnsanı yaşadan arzu ilə ümiddir.
İnsanı şöhrətləndirən əməlidir.
İnsanın bir özü, bir sözü.
İnsanın dəlisi daşa güc eylər, öküzün dəlisi - başa.
İnsanın dili sandıq, dodaqları qıfıl olmalıdır.
İnsanın əti yeyilməz, dərisi geyilməz, ancaq şirin dili gərək!
İnsanın zilləti də, izzəti də öz əlindədir.
İnsanın gözünü bir ovuc torpaq doyurar.
İnsanlar danışmaqdan qalanda, daşlar danışmağa başlar.
İntiqam almağa tələsmə.
İlxıçının qazancı havayı minməkdir.
İndi itər, yengədə bitər.
İndiyəcən yeddi kəfən çürüdüb.
İndi ki, nisyədir, astarını gülü-xəndan elə.
İnəyi itən soraq eylər.
İnəyi olana nisyə dol verərlər.
İnəyin buynuzuna baxarlar, qızın - üzünə.
İnəyin üzünə bax, südünü sağ.
İnək kimi süd verməyən, öküz kimi kotan sürər.
İnək su içər - süd olar, ilan su içər - zəhər.
İnsaf qanunların anasıdır.
İnsaf dilin yarısıdır.
İnsafı olmayanın imanı da olmaz.
İpək necə xar olub, eşşəyə çuval olub!
İpin uzunu yaxşıdır, dilin qısası.
İpini eşiblər.
İrz (ismət) insanın qanbahasıdır.
İrz puldan qiymətlidir.
İsa öz yerində, Musa öz yerində.
İsa tək kişiyə, verib bir eşşək, eşşək tək kişiyə verib min köşək.

İslandıq, quruduq, sel bizə neylər?
Qarlı dağdan aşsaq yel bizə neylər?
İslanmışın yağışdan nə arı (pakı)?
İslanmış cücəyə dönüb.
İsraf haramdır.
İstədi qaşın düzəldə, vurdu, gözün çıxartdı.
İstədiyim yar idi, yetirdi pərvərdigar.
İstədiyini söyləyən, istəmədiyini eşidər.
İstəyənin bir üzü qara, verməyənin iki üzü.
İstəyirsən bal-çörək, al əlinə bel-kürək.
İstəyirsən qocalıqda hörmətin olsun cavanlıqda qocalara hörmət elə.
İstək gözdə olar.
«İstəmirəm» deyəndən qorx.
İstəmirəm heyvasını, narını, qoy desinlər:
«Şahbudağın bağı var!»
İstərəm dosta varam, əlim boş, üzüm qara.
İsti sevən tüstüsünə dözər.
İsti-soyuq bilmir.
İsti çörək təndirdən, minnəti yox pendirdən.
İt adına alır, özü yeyir.
İt aya hürər, başına bəla gətirər.
İt aparan olsun!
İt araba kölgəsində yatar, elə bilər öz kölgəsidir.
İt ardına düşən, leş üstünə çıxar.
İt balası it olur.
İt bilir xurcunda nə var, çoban da bilir itə nə verəcək.
İt bir olar, yoxsa bir sürü?!
İt bir parça çörəyə də qane olar.
İt qorxduğu yerə hürər.
İt quduranda yiyəsini də qapar.
İt qulağını kəsəndən qorx.
İt qursağı yağ götürməz.
İt dəvəyə hürər, dəvə eşitməz.
İt də getdi, ip də getdi.
İt dəm vuran ayranı kim içəcək?!
İt dəmirçi dükanından nə aparar?
İt dəftərində adı yoxdur.
İt də öz qapısında ağadır.
İt əzabı çəkir.
İt əlindən sümük gəmirmək olmur.
İt əl çəkdi, molla əl çəkmədi.
İt əppəyə həris olar, uşaq - məhəbbətə.
İt yanına bəy kimi, bəy yanına it kimi.
İt ilxısı - köpək sürüsü.

İt it ilə boğuşdu, yolçuya girəvə düşdü.
İt it ilə dalaşanda, qurd körpünü aşar.
İt itə buyurar, it də öz quyruğuna.
İt itin quyruğunu basmaz.
İt də öz yediyini qusar.
İt yiyəsini tanımır.
İt kimi quyruq bulayır.
İt kimi yeddi canı var.
İt kimi nə yeyər, nə yedirdər.
İt kökündəyəm, kəllə-paça ütürəm.
İt kölkəsindən qorxar.
İt getdi, qurd gəldi.
İt nədir ki, yunu nə olsun?
İt nə görsün, nə də hürsün.
İt oğludur, qurd basır.
İt oyun ilə, qurd qoyun ilə.
İt olsun, komasında hürsün.
İt olsun, yiyəsinin qapısında olsun.
İt otaran nəvəsidir.
İt özüdür, qurdu mənə göstərir.
İt özü nədir ki, südü nə ola?
İt pişik ilə yola getməz.
İt pişik kimi yola gedirlər.
İt sümüyü ölçüb udar.
İt, sümüyü sevinə-sevinə udar, tamaşadır xirtdəyinə gələndə.
İt sümsümməkdən əl çəkməz.
İt ular, payını gəsər.
İt ular, üstünə (sürüyə) qurd gətirər.
İt hardan tapa iki əppəyi, birini başı altına qoya, birini yerə.
İt hürdü, çərçi gəldi, elə bildim, elçi gəldi.
İt hürər, karvan geçər.
İt hürməsə də, quyruğu çömbər gərək.
İtdən qurtardıq, qurda rast gəldik.
İtdən küçük olar, qoyundan - quzu.
İtdən olar - it köpək oğlu.
İtdən utanmasan, sahibindən utan.
İtdən çox çarıq yığan olmaz, yenə ayaqları yalındır.
İtə atmağa daşı yoxdur.
İtə bax, qarpızdan pay istəyir!
İtə dedilər: - Gündə neçə dəfə döyülürsən?
Dedi: - Mərdimazara rast gəlməklədir!
İtə dedilər: - Nə üçün hürürsən?
Dedi: - Canavarı qorxutmaq üçün.
Dedilər: - Nə üçün quyruğunu bulayırsan?
Dedi: - Canavardan qorxuram.
İtə də bir çörək borcludur.
İtə ümid bağladıq, hürməyib evimizi yıxdı!
İtə hörmət edərlər - yiyəsi xatirinə.
İtə hürmək qalar.
İti qaçan atı məhmizləməyin mənası yoxdur.
İti qışqırtmasan hürməz.
İti quyruğundan bağlasan durmaz.
İti qurddan seçəndə gəl!
İti dalıma almışam - qurd qorxusundan.
İti itə boğdurarlar.
İti itmiş çobana dönüb.
İti yiyəsinə tanıtdırma.
İti görüm, qurdu görüm, onu görməyim.
İti məsciddən qovan kimi qovdular
İti öldürənə sürütdürərlər.
İti sahibinə tanıtdırırsan?
İtib, axtaranı yoxdur.
İtimin qurd dayısı.
İtin ağzına sümük verdilər.
İtin ağılsızı qayqanaqdan pay umar.
İtin adını çəkdin, ağacı əlinə al.
İtin ayağın basarsan, səni qapar.
İtin alası çaqqalın dayısıdır.
İtin axmağı tula olar.
(itin axmağı tula olar, atın axmağı - yorğa).
İtin acığı quyruğundan bilinər, atın acığı - qulaqlarından.
İtin boynuna ciyər asma.
İtin qabağından qalanı alsan yeməz.
İtin qohumu it olar.
İtin qudursun, çaqqal!
İtin quyruğunu qəlibə salsan düzəlməz.
İtin dilini bilir.
(itin dilini bilir, cəhənnəmin yolunu).
İtin dirisi nədir ki, ölüsü nə ola?
İtin duası qəbul olsa, göydən ət yağar.
İtin əbləhi qaysavadan pay umar.
İtin ətini yeyərəm, qəssabın minnətini çəkmərəm.
İtin könlünə qalsa, gündə bir leş yeyər.
İtin peşəsi hürməkdir.
İtini haya öyrətmə, qonşunu - paya.
İtlər bizə, qurdlar bizə, sağ sağanlar çırtlar bizə.
İftira dağdan ağırdır.
İçdim üzüm suyunu, tökdüm üzüm suyunu.

İç dedilər, çeşməni qurut demədilər.
İçim məni yandırır, bayıram özgəni.
İçmə namərd əlindən su abi-həyat olsa da.
İçmə çaxırı, açar paxırı.
İş adamı bəyan eylər.
İş adamın cövhəridir.
İş bacaranın, aş yeyənindir.
İş başqa, söz başqa.
İş başdan aşıb.
İş başından aşınca, dövlət cibindən daşar.
İş bilən müşküldə qalmaz.
İş işdən keçib!
İş danışıqdan keçər.
İş əlindən yeməyə həsrət canım.
İş igidlər başına gələr.
İş ərəb sacına döndü.
İş ilə zarafat olmaz.
İş içində iş var.
İş işi açar.
İş yiyəsi işdə gərək!
İş yuxu görəndə deyil, yuxu yozandadır.
İş kələfin ucunu tutmaqdadır.
İş görənindir.
İş olan yerdə nöqsan da olar.
İş tərsə gələndə tər halva diş çıxardar.
İşə bağlı - zəhmətə bağlı.
İşə bax, ağılsız ağıllının başına ağıl qoyur.
İşə bax, ala qarğa şux tərlanı bəyənmir.
İşə bax, sular baş yuxarı axır.
İşə getməyən oğlum olunca, cütə gedən öküzüm olsun.
İşə xor baxma, boynuva torba taxar.
İşi allaha qalıb.
İşi düşəndə arar məni, işim düşəndə qovar məni.
İşi əndazədə gör.
İşi işə bənd elə, görən desin ha belə!
İşi halətlə görərlər, höcətlə görməzlər.
İşim şuluqdur.
İşin düşdü arvada, ölən gününü sal yada.
İşin düşdü qazıya, özün döndün tazıya.
İşin düşdü sarıq başa, başın dəyər daşdan daşa, yapışginən əyri xışa, get o başa, gəl bu başa.
İşin canını iş alar.
İşinə yaxşı baxarsan, iş də sənə yaxşı baxar.
İşıq üzü görünmür.
İşığa kor baxım!
İşığa gəlirlər!
İşığı var, istisi yox.
İşlə - dişlə.
İşlə nökər kimi, ye ağa kimi.
İşləyən atı tövlədə bağlasan cəngi olar.
İşləyən açar parıldar.
İşləyən dəmir pas tutmaz.
İşləyən dişlər, işləməyən kişnər.
İşləyən inci taxar, işləməyən yandan baxar.
İşləyən olsun, iş tapılar.
İşləyənlə işləməyəni bir ayağa yazmazlar.
İşlək keçəl qız ərə gedər, pinti - gora.
İşləməyən dişləməz.
İşləmək adamı safa çıxardar.
İşləmək dərdindən yeməyə həsrət canım.
İşlərin mayası o tünbətündür.
İştaha diş altındadır.
İşsizlik arsızlıq gətirər.
İşsizlik yoxsulluğun anasıdır.
İşçi işdə gərək!

K

Kabab qanlı, igid canlı.
Kababı köz öldürər, igidi söz.
Kamal ata kürki deyil ki, irs ilə övlada keçə.
Kamil adam az danışar.
Kamil bağban çəkər bağın səfasını.
Kamil insan kəlamından bəlli olar.
Kamil ovçu boşuna güllə atmaz.
Kankanın vəsiyyəti – qızıl öküzdür.
Kar dedi: – Səs gəlir!
Kor dedi: – Odur, gəlirlər!
Çolaq dedi: – Durun qaçaq!
Lüt dedi: – Qaçmayın, məni soyarlar!
Kar eşitdiyini, kor tutduğunu buraxmaz.
Kar eşitməz, yaraşdırar, kor görməz, quraşdırar.
Kar iki dəfə gülər.
Kar könlündəkini anlar.
Kar özünə sərf eləyəni eşidər.
Kar üçün iki dəfə azan verilməz.
Karın qulağına taxta tıxadılar, dedi: – Bu taqqıltı haradan gəlir?
Kasa sındı, ya cingildədi.
Kasanı mənim başımda sındırır.
Kasıb bacını varlı qardaş istəməz.
Kasıb, itinin adını gümüş qoyar.
Kasıb geyəndə soruşarlar:
Haradandır?
Varlı geyəndə deyərlər:
Mübarəkdir!
Kasıb öləndə molla xəstə olar.
Kasıb ölüsünə yas saxlamaz.
Kasıb pul tapdı, qoymağa yer tapmadı.
Kasıb cavan mərd olar.
Kasıb çıraq yandırar, dövlətlinin pulunu sayar.
Kasıb xərcini bilsə, məxmər geyər.
Kasıba bazarın tulası da hürər.
Kasıba qul ol, varlıya oğul olma
(Kasıba oğul olunca, dövlətliyə qul ol).
Kasıbdan allah da bezardır.
Kasıbı dəvə üstündə böv vurar.
Kasıbın ağzı aşa dəyəndə başı daşa dəyər.
Kasıbın bir oğlu oldu, o da boynu əyri.
Kasıbın dövləti saqqalda olar.
Kasıbın dörd düşməni var – it, bit, yasavul, molla.
Kasıbın dürməyi yavan olsa, dili yağlıdır.
Kasıblıq eyib deyil, oğurluq eyibdir.
Kasıbın halını kasıbdan sor.
Kasıbın gözü tox olar.
Kasıbın günü – itin günü.
Kasıbın pulu cəhənnəmdə olar.
Kasıbın sacı axırda qızar,
Kasıbın sözü, yorğunun gözü.
Kasıbın toyunda gecə qısa olar.
Kaş mal zərəri olsun, insan zərəri olmasın.
Keyf qılığa baxmaz.
Keyf sənin, kənd kovxanın.
Keçdi gül, uçdu bülbül, istər ağla, istər gül.
Keçəl baxar güzgüyə – adın qoyar özgəyə.
Keçəl başa taxta daraq?!
Keçəl başından qorxar, kor gözlərindən.
Keçəl başını yudu da, daradı da.
Keçəl var – zığıdı keçəl, keçəl var – noxudu keçəl.
Keçəl qız bacısının saçı ilə öyünər.
Keçəl qız çeşmənin gözündən su içər.
Keçəl qız bəzənincə toy əldən getdi.
Keçəl qızı saçlı dəyə ağlama.
– Keçəl qızın nəyi var?
– Başın qaşımağa dırnağı.
– (Keçəl qızın nəyi var?
– Dəmirdən darağı).
Keçəl yaradı, öz başını daradı.
Keçəl suya getməz.
Keçəl halva yeyər, puluna minnət.
Keçəl Həsən, Həsən keçəl, nə fərqi?
Keçəl çarə bilsə, öz başına eylər.
Keçələ baxma, bəxtinə bax.
Keçələ kosa qənim olsun.
Keçəli gün çıxmamış gör.
Keçəli gün Zülfəli çağırarlar.
Keçəli papağının yanından tanımaq olar.
Keçəlin adı – Zülfəli!
Keçəlin bəxti yaxşı olar.
Keçəlin qazandığı başının ziftinə (qartmağına) gedər.

Keçəlin dərdi-başı, bir qazan ayran aşı.
Keçəlin dırnağı olsa, öz başını qaşıyar.
Keçəlin papağı düşənəcəndir.
Keçəlin tükdən acığı gələr.
Keçəlin hindi başı, eşşəyə mindi başı, o tayda dava düşdü, bu tayda sındı başı.
Keçən zaman qayıtmaz.
Keçən (köçən) yurdun qədrini, düşən yurdda bilərlər.
Keçən keçdi, vay gələcək dərdidir!
Keçən keçib, gələn günün xeyir olsun.
Keçən keçib, sən gələcəkdən danış.
Keçən gün ömürdəndir.
Hər ağ gün, qara gün ömürdən gedir.
Keçən günə gün çatmaz, calasan günü günə.
Keçənə güzəşt deyiblər.
Keçər bu dövran sənə, də qalmaz.
Keçi deyər: - Adım Əbdülkərimdir!
Keçi, qurdun nəyini yeyiblər?!
Keçi kasıbın inəyidir.
Keçi keçim olsun, oturduğum yer samanlıq.
Keçi öldü, qoturu qurtardı.
Keçi öləndə quyruğunu dik tutar.
Keçi suyu bağıra-bağıra keçər.
Keçi suyu bulandırdı.
Keçi can hayında, qəssab piy axtarır.
Keçi şərab içsə, dəvəyə meydan oxuyar.
Keçib gəlib Arazı, bəyənməyir Gülnazı.
Keçidə saqqal var, amma şeyx deyil.
Keçiyə bir sürü qoyundan, bir keçi yaxşıdır.
Keçiyə qurd dəyməsə gedib Həccə çıxar.
Keçilər yer əkə bilsəydilər, öküzlər işsiz qalardı.
Keçinin qoturu sərçeşmədən su içər.
Keçini dəvə adına satır.
Keçinin başı gicişəndə, buynuzunu çobanın çomağına sürtər.
Keçinin şeytanla qohumluğu var.
Keçmə namərd körpüsündən, qoy aparsın sel səni, yatma tülkü kölgəsində, qoy yesin aslan səni.
Keçmişin arabası ilə uzaq gedə bilməzsən.
Keçmişin qazancı bu günün rahatlığıdır.
Keçmişi unutma, gələcəyin müəllimidir.
Kəbinim halal, canım azad.
Kəklik başını soxar kola, quyruğundan xəbəri olmaz.
Kəklik qaqqıldamasa qaraquş onu tapmaz.
Kəkliyin dimdiyi qan, dili qan, dimdiyi qan, ağa dinsə söz olmaz, nökərin dindiyi - qan.
Kəl qoşub cüt sürməyən çörək qədrini bilməz.
Kələ kələlər neylədi ki, kərtənkələlər neyləsin?
Kələk ilə gələn, külək ilə gedər.
Kəllə-paça, qoyma qaça.
Kəllə-paça suyu üçün Hövsana gedir.
Kənardan baxan yaxşı görər.
Kənardan baxana hər şey asan görünər.
Kənd aşırı it hürməz.
Kənd kalafasından bilinər.
Kənd girovun naxırdan tutarlar.
Kənd kovxasız olmaz.
Kənd köpəksiz olmaz.
Kənd nədir, qənd nədir?!
Kəndə molla gəlib, kim ölür, ölsün.
Kəndə təzə dəllək gəlib, kəkili yandan qoyur.
Kəndi köpəksiz gördü, əli ağacsız girdi.
Kənkanın vəsiyyəti qızıl öküzdür.
Kəpək altında unları var.
Kərbalayi Kazım, sənə demək nə lazım?
Kərə yağından qıl çəkir.
Kərə yeyən də çıxar yaza, tərə yeyən də.
Kəs barmağını çıx bazara, əlac tapan çox olar.
Kasad bazarın gəliri olmaz.
Kəsək oturub daş üçün ağlayır.
Kəsənin üzün tikən ağardar.
Kəsik baş bitməz, bitsə də yiyəsinə xeyir verməz.
Kəsilən başın zülfü üçün ağlamazlar.
Kəsilsin o iki əl ki, bir başı saxlamaz.
Kəfən havayı olanda adam özünü öldürməz.
Kəfəni var idi, goru da olsun?!
Kəfgir qazanın dibini deşib.
Kilid dost üçündür.
Kim eşşək olar, biz ona palan olarıq.
Kim güclüdür - haqq onundur.
Kim canından bezardır?!
Kimə yaxşılıq elədin, özünü ondan qoru.
Kimi əkər, kimi biçər, kimi qazanar, kimi yeyər.
Kimi gülür, kimi ağlayır, hərənin bir dərdi var.
Kimin arabasında gedirsən, onun mahnısını oxu.
Kimin əlindən nə gəlir?!
Kiminə qat-qat, kiminə - ac yat.
Kimini qaldırır, kimini endirir.
Kiminin başında tac, kimi ac-yalavac.

Kiminin əvvəli, kiminin axırı.
Kiminin sacı olar, kiminin ələyi.
Kimsə kimsənin qismətini yeməz.
Kimsə namərdə möhtac olmasın.
Kimsənin ahı kimsəyə qalmaz.
Kimsənin tikəsi kimsənin qarnında qalmaz.
Kimsənin nəsibin kimsə yeməz.
Kiri kir açar, sirri – sir.
Kirayənişin olduğu bəs deyil, toyuq-cücə də saxlayır.
Kirpik gözün çəpəridir.
Kitab verənin bir əlini kəsərlər, qaytaranın iki əlini.
Kitabı satıb, gəncəfə alıb.
Kitabın köhnəsi, libasın təzəsi.
Kiçiyi böyüyün üzünə qalxızmazlar.
Kiçik açar böyük qıfılı açar.
Kiçik daş da baş yarar.
Kiçikdən xəta, böyükdən əta.
Kiçiklərə hörmət elə, böyüklərdən hörmət qazan.
Kiçiyin kiçik dərdi var, böyüyün – böyük.
Kiçiyin kiçik yeri var, böyüyün – böyük.
«Kiş» deyirsən getmir, «hoş» deyirsən dayanmır.
Kişi bilmədiyini ayağı altına yığsa, başı ərşə dəyər.
Kişi qızı olma, kişi arvadı ol!
Kişi kişidən qorxmaz, amma utanar.
Kişi öz sözünün ağası olar.
Kişi öz tayı ilə gəzər.
Kişi sevdiyinin nazını çəkər.
Kişi seldir, arvad göl.
Kişi, sözü üzə deyər.
Kişi tüpürdüyünü yalamaz.
Kişi fəhlədir, arvad – bənna.
Kişidə qeyrət olsa, torpağı qızıla döndərər.
Kişidə səbir olmalıdır.
Kişinin alnı açıq gərək.
Kişinin başına gələn, ağzından çıxandır.
Kişinin dilinə qarqış gəlməz.
Kişinin malı göz qabağında.
Kişinin özünə baxma, sözünə bax.
Kişinin sözü ilə işi bir olar.
Kişinin hörməti öz əlindədir.
Kişini cavan saxlar, yaxşı arvad, yaxşı at.
Kişinin cibi iki olsa, arvad almaq fikrinə düşər.
Kişisi olmayan evin ruzisi olmaz.
Kovxa atlanar, öz kəndini çapar.
Kovxa ilə hesaba oturan borclu olar.
Kovxanın bacısı oğlusan?-
Gəl min boynuma!
Kovxası gülüm olanın başına külüm olar.
Kolxoz ambarı el süfrəsidir.
Kor at gecə də otlar.
Kor atı minən şahlıq iddiası edər.
Kor bulaqdan su gəlməz.
Kor burada, ya Bağdadda.
Kor qurdun ruzisini yetirən özü yetirər.
Kor əlifə bəy deməyib.
Kor əsasını bir itirər.
Kor ilə çörək yeyəndə insafı arada gör.
Kor it kölgəsindən qorxar.
Kor kimdir?
Nabələd!
Kor-kor, gör-gör!
Kor kora deyər:
Çırt bu yandakı gözünə.
Kor kora kor deməsə, bağrı çatlar.
Kor koru tapar, su çuxuru.
Kor gözdən əski asır.
Kor gözün sahibinə nə faydası!
Kor gözündən qorxar, keçəl başından.
Kor leyləyin yuvasını allah tikər.
Kor nə istər?
İki göz, biri əyri, biri düz.
Kor olsun o iki göz ki, dostunu, düşmənini tanımır.
Kor tutduğun buraxmaz.
Kor tutduğundan kəsər.
Kora gecə-gündüz birdir.
Korlar şəhərində ayna satmazlar.
Koroğlu deyib:
Basılanı kəsməyin!
Koroğlu üçəcən deyib.
Koroğlunu tutmağa bir keçəl Həmzə gərək.
Koru dar yerdə qısnamazlar.
Koru kor yanında həyan üçün qoyarlar.
Korun ağacı özündən qabaq gedər.
Korun istədiyi bir göz, iki göz olsa – nə söz?!
Korun nə borcu ki, şam bahalanıb?!
Kosa kəndə girməmiş gəraylısını başladı.
Kosa getdi saqqal gətirməyə, bığı da qoydu gəldi.

Kosaya rişxənd edənin, top qara saqqalı gərək.
Kosanı gün batandan sonra aldatmaq olar.
Kotan nə bilir qayış nə çəkir?
Kövək kolunun kölgəsi olmaz.
Köynək dondan irəlidir.
Kölgədə bitən ağacın meyvəsi olmaz.
Köynək olanın kölgəsi olmaz.
Kölgəsindən qorxur!
Kölgəsini qılınclayır.
Köməyi igidə – sözlə, zəifə – əllə et.
Kömürçünün qaralmaqdan nə arı?
Kömürçünün evinə girən üzü qara çıxar.
Köndələn çəpərə söykənmək olmaz.
Könlü balıq istəyən quyruğunu suya vurar.
Könlü bədöy at istəyən vaxtında alar.
Könlü yemiş istəyən dolanar tağ başına.
Könül arzunun mənbəyidir.
Könül bir böyük saraydır, tikilməsi çətin, yıxılması asan.
Könül bir uşağa bənzər, nə verərsən istər.
Könül qocalmaz.
Könül quşu uçar, bir budaqdan o birinə qonar.
Könül gözdən su içər.
Könül nə mey istər, nə meyxanə, könül dost istər, mey bəhanə.
Könül sevən ağanın nə ağı, nə qarası?!
Könül sevən göyçək olar.
Könül umduğu yerdən küsər.
Könülxoşluğu maldan əfzəldir.
Könülsüz (pulsuz) bazara gedən, gördüyünü almamış qayıdar.
Könülsüz köpəyin sürüyə xeyri olmaz.
Könülsüz namazı allah qəbul eləməz.
Könülsüz tula ilə ova çıxmazlar.
Könülsüz hürən köpək, sürüyə qurd gətirər.
Köpəyə səlbə dəyən kimi dəydi.
Köpəyə ümid olduq, özümüz də hürmədik.
Köpəyin qarnı tox olsa, gecə ulduza hürməz.
Köpəyin iyə düşəni tuladan bərk qaçar.
Köpək qocalanda, qurda gülünc olar.
Köpək elə köpəkdir, xaltası qızıldan da olsa.
Köpək sahibini tanıyar.
Köpək taya dibində yatar, elə bilər öz hünəridir.
Köpəksiz sürüyə qurd dadanar.
Körpə südsüz böyüməz, pambıq – susuz.
Körpü qaldı çayın o tayında.
Körpüdən keçəndə yan-yana deyiblər.
Kötək aradakına çox dəyər.
Kötək yeyənin kisəsindən gedər.
Köhnə adət başında qalıb.
Köhnə qurd yolunu azmaz.
Köhnə dərdi təzələmə.
Köhnə düşmən dost olmaz.
Köhnə kəndə təzə darğa gəlib.
Köhnə kəndə təzə nırx qoyma.
Köhnə getdi, sən təzədən danış.
Köhnə palan, içi zər-zivər.
Köhnə paltar yamağından bəllidir.
Köhnə pambıq bez olmaz, dul arvaddan qız olmaz.
Köhnə süpürgəni dama atarlar.
Köhnə təqvim pula getməz.
Köhnə un çuvalıdır, vurduqca toz qopar.
Köhnə hamam, köhnə tas.
Köhlən at yeriyəndə toz qopar.
Köç qayıdanda axsaq keçi qabağa düşər.
Köç köçər, it hürər, ikisi də mənzilə birgə yetər.
Köçdən azan qarıya bu da azdır.
Köçən yurdun qədrini, düşən yurdda bilərlər.
Köçün dönməsi axsaq itə xoş gələr.
Köçün yaraşığı dananın soncuqlamasıdır.
Kuzəçi sınıq qabda su içər.
Kül başına gözəl fərə, beçə də səni bəyənmir.
Külahın sat xirac eylə, tüfeyli olma namərdə, cahanda kəllə sağ olsun, külah əskik deyil mərdə.
Külək əsər, gül bükülər, könül yanar, can sökülər, gecə gündüz yaş tökülər, gözlərimin qarasından.
Külək kimi hərdən bir yana əsmə.
Küləkdə yatanın cin atı olar.
Küləkli gündə pambıq atır.
Küləkli gündə xırman sovurmazlar.
Küləş tez yanar, tez də kül olar.
Külü küllükdən götür, külü təpəyəcən olsun.
Külü ocaqdan götürərlər.
Külün altında göz olar.
Kündəsi küt düşüb.
Küp yanında küpçələr.
Küpü sındıran da bir , suyu gətirən də bir.
Küpün günahı nədir ki, içinə çaxır tökülür?!
Küpdən nə çıxar?

Ancaq içindəki!
Kürd kürdü dəyirmanda axtarar.
Kürd kürdü tanımasa, məkri məkrəni tanıyar.
Kürdə dedilər:
Allah şirindir, ya doşab?
Dedi: - İki dostun arasına girməyin.
Kürdün dilin kürd bilər.
Kürəyə düşməyən dəmir yumşalmaz.
Kürəkən imam kimi gələr, sonra yezidə dönər.
Kürən adam xətakar olar.
Kürən adamla, kürən ata yaxın düşmə.
Kürən toyuq hindən bayıra çıxmaz.
Kürkü əvvəl il özün gey, ikinci il ver düşmənینə.
Kürkünə birə düşüb.
Küsənə pay düşməz.
Küsənin payını yeyərlər.
Küsülü qardaş, gəl yükü çataq, küsümüz küsülülükdə .
Küçük hürə-hürə köpək olar.
Küçələri ölçür.

L

Lazımlı yerə sərf eləmir, lazımsız yerə su kimi axıdır.
Lal-dinməz qovluq.
Lalam, karam - dinmərəm.
Lalın dilini anası bilər.
Lat-lüt İmam Rza!
Laçın balasın verməz, bəlkə zorla alalar.
Laçın qalada balalar.
Leyli bazarıdır, Məcnun can satır.
Leylək gününü tak-takla keçirdər.
Leş görəndə quzğuna dönər.
Dəb deməkdənsə, ləbləbi de.
Ləbləbidir - el dəbidir.
Ləvənd ləvəndi tapar.
Ləzgi nədir, güzgü nədir?
Ləyaqət ağıldadır, əsil-nəbəslə deyil.
Ləl daşını, çay daşına qatma qardaş, kərəm eylə.
Lələ var, yurdu yox.
Lələ ikinci anadır.
Lələ köçüb yurdu ağlayır.
Lələnin yaz evi.
Lənət kor şeytana.
Lənət heçə!
Libasım yamaq götürür, qarnım yox.
Loğma qarın doyurmaz, hörmət artırar.
Loğma dağ aşırar.
Loğma deyil - boğmadır.
Loğmanı az götür, çox çeynə.
Lotu lotunu aldatmaz.
Lotu lotunu tapmasa, qara geyər, yaslı olar.
Lotu lotunun sözünə inanar.
Lotudan adam zərər görməz.
Lotuya bir şillə kar eləməz.
Lotunun da allahı var.
Lotunun dilini lotu bilər.
Lotunun pulu qurtaranda soğan-çörək də səlamətdir.
Loş kimi burnunu salladıb.
Lüləyin aftafa yerini tutar, girova qoyanda tutar, girova qoyanda alan olmaz.

M

Mağarada qurd az idi, biri də gəmi ilə gəldi.
Maya doğar, nər doğmaz.
Maya səndən, can məndən.
Mayabaş oldular.
Mayanı uduzub çuruna güvənir.
Mayasız fətir olar.
Mal adamın düşmənidir.
Mal acıdı – can acısı.
Mal başa bəladır.
Mal bacından qorxmaz.
Mal qatlaşar, yiyəsi qatlaşmaz.
Mal dediyin can yanğısıdır.
Mal gedər bir yerə, güman gedər min yerə.
Mal insana, insan mala əmanətdir.
Mal itdi – iman itdi.
Mal yiyəsinə oxşamasa haramdır.
Mal yığınca ağıl yığ.
Mal malı qazanar.
Mal mənimdir, belə yeyirəm, əritmirəm, kərə yeyirəm.
Mal mənimdir, məsləhət mənim.
Mal sahibindən qiymət götürər.
Mal sahibi ölməyib ki.
Mal canı qazanmaz, can malı qazanar.
Malı maldan, canı candan ayırmaq olmaz.
Malı qırov öldürər qışın adı bədnamdır.
Malı yox oğru apara imanı yox şeytanı apara.
Malı mal yanında tanıyarlar.
Malı malla ölçərlər, canı – canla.
Malı satandan al.
Malım zay olunca, qoy canım zay olsun.
Malım getdi, pulum getdi, qonağım razı getmədi.
Malımız budur, yarısı sudur, alsan da budur, almasan da budur.
Malın yiyəsi gərək, oğlu yox, atası gərək.
Malın yiyəsi – uşağın atası.
Malın getməsinə yiyəsi səbəb olar.
Malın mal olunca bazarın bazar olsun.
Malın ortaqlı olmasın.
Malına düşdü talan, sən də bir yandan tala.
Malını bəylər apardı, camalına nə oldu?!
Malını dişin var ikən ye.
Malını yaxşı saxla, qonşunu oğru tutma.
Malını yeməyənin malını yeyərlər, ölüsünü də döyərlər.
Mamaça çox olanda uşaq tərsə gələr.
Manatı manat qazanır.
Mart çıxdı – dərd çıxdı, keçilər yaza çıxdı.
Martın gözünə barmağım, yaza çıxdı oğlağım.
Martın özünə lənət, aprelin on beşinəcən.
Maşa var ikən əlini yandırma.
Meyvə kimi saralıb, gül kimi solub.
Meyvəli ağaca quş qonar.
Meyvəsi yox, barı yox, xaraba qalsın belə bağ.
Meyvəsini yedin, bağbanına rəhmət oxu.
Meydan bizim, söz sizin.
Meydana girən kişi nər gərək.
Meydana girən köpək kötəkdən qorxmaz.
Meyl vermə evliyə, evə gedər – unudar.
Meymun olub düşüb ortaya.
Meymunun balası əvvəlcə yeriyər, sonra iməklər.
Meymunun boğazına su çıxanda, çıxar oturar balasının başında.
Meymunun xarratlıqda nə işi var?
Meyxanada yazılan məktub cəhənnəmdə oxunar.
Meyxanaçıdan şahid istədilər, sərxoşu göstərdi.
Meşə ayısız olmaz.
Meşədə ağacın düzünü seçərlər.
Meşəyə girən ayıdan qorxmaz.
Məqsədsiz iş tutma.
Mədinə ilə Məsmə düşübdür bəhsə-bəhsə.
Mədrəsənin qızları, çopur-çopur üzləri, nə molla var, nə keşiş, kəbin kəsər özləri.
Məkkə evin içidir.
Məkruh yeyənə haram söz yaraşar.
Mələsə əti halaldır.
Mən almıram, yan cibimə qoy.
Mən aşığam bu daşa, bu torpağa, bu daşa, düşməni elə vur ki, kəlləsindən bud aşa.
Mən balamı istərəm, balam da öz balasını.
Mən baş vurum, sən ayaq, gəl onu ortalayaq.
Mən bu evin öküzüyəm, istər kotana qoşsunlar, istər cütə.
Mən qaçıram molladan, molla çıxır qarşıdan.

Mən qaçıram bəladan, bəla çıxır qabaqdan.
Mən qurdam – alaram, mən çobanam – vermərəm.
Mən dedim eşidəsən, demədim öyrənəsən.
Mən dedim: «Zənbil», sən bil.
Mən deyirəm xədiməm, o soruşur, oğul-uşaqdan nəyi var?
Mən demədim, sən eşitmədin.
«Mən» demək şeytana yaraşar.
Mən demirəm, sən deyirsən.
Mən dəli, anam dəli, bir də dəli atam var.
Mən dəliliklə verdim, sən ağıllı ol, qaytar.
Mən elə keçəl deyirəm qartmağı yerə tökülə.
«Mən kimdən?» demə,
«Məndən kim!» de.
Mən gedirdim, məni yamaq saxladı.
Mən gəldim gəlin görməyə, gəlin getdi təzək yığmağa.
Mən gəlmişəm qənddana qənd qoymağa gəlməmişəm ürəyimə qan qoymağa.
Mən gətirrəm yığın-yığın, arvad paylar torba-torba.
Mən mənəm, aləmləri dindirmərəm!
Mən öz adımı özgədən soruşuram.
Mən ölərəm – kiçik qiyamət, arvadım ölsə – böyük qiyamət.
Mən ölməyim, mən öləndən sonra, istərsə qiyamət olsun.
Mən ölü, sən diri.
«Mən ölüm» deyəndə, axar sular dayanar.
«Mən ölüm», «sən öləsən»lə iş getməz.
Mən ölürəm çiçəkdən, ört üzümü milçəkdən, yad gələr yalan ağlar, anam ağlar gerçəkdən.
Mən səni bəyənmədiyim bulama, sən mənim bığımı bulama!
Mən söz sərrafıyam.
Mən sözü dedim daza, daz özün qoydu naza.
Mən şahla çilov yemirəm ki, bığım yağa batar.
Məndən böyüyü tabaq altındadır.
Məndən olub mənə oxşamır.
Məndən sənə öyüd, dənini özün üyüd.
Məndən uzaq olsun, istər cəhənnəmə dirək olsun.
Mənzil kəsər bədöy at.
Mənzilin yaxın, kiryəsi çox, bunda nə sirr var?!
Mənzili uzaq, eşşəyi çolaq.
Mənə bax, mənim kimi olma.
Mənə bax nə haldayam, yara bax nə sallanır.
Mənə yaramaz iş tapşırır, adımı qoyur yarıtmaz.
Mənə nə veribsən ala bilmirsən?!
Məndən sənə yar olmaz!
Mənə usta deyərlər, arvadıma ustazən.
Məni anam damda doğub.
Məni aparan suya «Araz» deyərəm.
Məni qəbirdə görəsən!
Məni yeyirsə – qoy aslan yesin, pişik yeməsin.
Məni yeməyən qurda köpək demərəm.
Məni sayanın quluyam, saymayanın – ağası.
Məni satan satıb, alan da alıb.
Mənim ayağım biləni sənin başın bilməz.
Mənim yaram ağrayır, sənin haran ağrayır?!
Mənim gözüm var sənin dolu ilxında, sənin nəyin var mənim boş axurumda?!
Mənim üçün bağ da bir, dağ da bir.
Mənim üçün xan da bir, gülxan da bir.
Mənim xoruzum – özgələrin damı.
Mənimki belə keçdi çərxi dönmüş fələkdən.
Mənimlə qoz-qoz oynama.
Mənlik olan yerdə sənlik şamı yanmaz.
Mərd arxadan vurmaz.
Mərd başa baxar, namərd – ayağa.
Mərd dostluq qanar, bərkdə dayanar.
Mərd əli kasad olmaz.
Mərd igid tək qalmaqdan qorxmaz.
Mərd igidə arxa dur.
Mərd igidlər süfrə açar ad alar.
Mərdlər ilə gəz ki, vəfadar olur,
Nakəslərə yoldaş olan xar olur,
Namərd olur yaxşı gündə yar olur,
Yaman gündə baxmaz, ötən yan ilə.
Mərd ilə gəzən mərd olar, namərd ilə gəzən biyaban-gərd!
Mərd ilə ülfət edən, axırda bir gün mərd olar, namərdlə ülfət edən, axır biyaban-gərd olar.
Mərd kişi çörəyini daşdan çıxardar.
Mərd gördüyün deməz.
Mərd mərdi kəsər Murtuza-Əli hər ikisini.
Mərd özündən bilər, namərd yoldaşından.
Mərddən bir çıxar, namərddən iki.
Mərdə gələn qadanı, namərdin sərinə yaz.
Mərdə güllə dəyməz heç kürəyindən.
Mərdə şirin ol, namərdə – acı.

Mərdəkan – mərd məkan deməkdir.
Mərdi qova-qova namərd eləməzlər.
Mərdin gözü tox olar, namərdin gözü yox.
Mərdin paxılı deyilsən ki?
Mərdin süfrəsi açıq olar.
Mərdin töyləsi namərdin otağından yaxşıdır.
Mərdimazarı axtarmaqla deyil, rast gəlməkdədir.
Mərdimazardan özünü qoru.
Mərifət manqura dəyməz, simu-zər dövranıdır.
Mərifətsiz millət yaşamaz.
Mərmər – yaxşı daşdan, yaxşılıq iki başdan.
Mərmər üstə gül-bitməz.
Məsəl güldür – söz çiçək.
Məsəldə münaqişə olmaz.
Məsləhətə xəyanət olmaz.
Məsləhətlə atılan daş uzaq gedər.
Məsləhətlə tikilən don gen olar.
Məsləhətlərin xeyirlisi – ortası.
Məsləhətli aş dadlı olar.
Məsləhətsiz görülən işdən xeyir olmaz.
Məscid qapısıdır, nə sındırmaq olur, nə yandırmaq.
Məscid şamını yeyən pişik kor olar.
Məscidin hörməti: bir orucluqda, bir məhərrəmlikdə.
Mətahın atma bazara xiridar olmayan yerdə.
Mətləbi darı üstə qoyur.
Mətləbi uzatmazlar.
Məhəbbət və doğruluq məğlub edilməz.
Məhəbbəti qorusan, onunla ucalarsan, məhəbbətli qocalsan, qoca deyil – cavansan.
Məhəbbət dostluqdan başlanır.
Məhəbbət iki başdan olar.
Məhəbbət gözdə olmaz, könüldə olar.
Məhəbbət ürəkdən silinməz.
Məhəbbət şərikli olmaz.
Məhləmizdə bir quyu var – əmi qızı, şirin olur onun suyu – əmi qızı.
Məclisdə yerini tanı, deməsinlər: – dur burdan!
Məcnun kimi dərs oxuyan «Vəlleyli» də qalar.
Məşğuliyyət üçün saqqız çeynə!
Millət necə tarac olur-olsun nə işim var?
Milçək qarasından minarə tikir.
Milçək kimi qırılır.
Milçək mindim Kür keçdim, yaba ilə dovğa içdim, heç belə yalan görməmişdim.
Milçək özü bir şey deyil, ancaq könül bulandırır.
Milçək şirəyə yığılar.
Milçəkdən fil qayırır.
Min atlının öhdəsindən gələndir.
Min acını yeyərlər, bir şirinin xətrinə.
Min batman varın olunca, bir batman ağlın olsun.
Min bilən olsan, bir biləndən soruş.
Min bir dərdin min bir dərmanı var.
Min qapıda duz dadan, bir qapıda bənd olmaz.
Min qarğaya bir sapand daşı?!
Min qoyunlunun bir qoyunluya işi düşər.
Min dərd var, min bir dərman.
Min dərədən su gətirər.
Min dost azdır, bir düşmən – çox.
Min evli Kəsəmənə bir ay oruc, yeddi evli kəndə də bir ay oruc?!
Min eşit, bir söylə.
Min il qanqal otlasan, ağzın dəvə ağzına oxşamaz.
Min il keçsə qohum sənə yad olmaz.
Min ilin azarlısıdır.
Min ilin ölüsündən bir ilin dirisi yaxşıdır.
Min gün yaraq – bir gün gərək.
Min nəsihət, bir sərəncam.
Min ulduz var, bircə ay.
Min xala yığılsa, bir ananın yerini verməz.
Minarə başında qoz dayanmaz.
Minarə görməyən elə bilər yerdən göbələk çıxıb.
Mindin atın sağrısına, qatlaş yanın ağrısına.
Minə dözən min birə dözər.
Minmə qoduq, vermə cərimə.
Minnət ilə behiştə getməkdənsə, minnətsiz cəhənnəmə getmək yaxşıdır.
Minnət qədər ağır yük olmaz.
Minnət deyil, dərvişlikdir.
Minnətli plovdan, minnətsiz pendir-çörək yaxşıdır.
Mis ya sındı, ya cingildədi.
Mis gəldi, saxsı qaç!
Mis mis ilə toqquşdu, arada güvəc parçalandı.
Mişka piyandır, şapkəsi yandır.
Mırığa dedilər:
Çırağı pilə!
Mıx iki haçalı olsa, yerə keçməz.
Mıx da əyiləndə onu düzəldirlər.

Mıxı mismar edən var.
Mıxı çıxarıb qaçanı döyə bilmir, mıxdakını döyür.
Molla acgöz olar.
Molla, azar olmasın?!
Molla alacağını unutmaz.
Molla aşı gördü, yasin yaddan çıxdı.
Molla bəyə qoşuldu, xalqın evi yıxıldı.
Molla buzovdur, qırılsa hamıdan bərk qaçar.
Molla qarınqulu olar.
Molla duru sudan qaymaq yığar.
Molla evindən aş, kor gözündən yaş çıxmaz.
Molla ilə durub oturan, axırda mürdəşir olar.
Molla kişidir saqqalı uzun, ağlı qısa.
Molla Nəsrəddin o qədər ölü oldu ki, bir qazan halvanı yeyə bilmədi?!
Molla sadağa verməz.
Molla tuluq zurnasına bənzər, qarnı dolduqca səsi çıxmaz.
Molla Turab banladı, kim bildi, kim anladı?!
Molla çörəyi, ilan ayağı görünməz.
Molladan adam olmaz, palıddan badam.
Molladan soruşdular:
- Verməklə necəsən?
Dedi: - Mənimki almaqdır, iki xasiyyət bir adamda olmaz.
Mollaya dedilər:
Oğlun damdan yıxıldı, ağlı başından çıxdı.
Dedi: - Ağlı olsaydı dama çıxmazdı.
Mollaya dedilər:
- Ölüləri istəyirsən, diriləri?
Dedi: - Ölüləri!
Dedilər: - Nə üçün?
Dedi: - Ölülərdən halva yeyirəm, dirilərdən töhmət.

Mollanı məcsiddə, sərxoşu meyxanada taparsan.
Mollanın bağrı onda çatlar ki, iki yerə ehsana çağıralar.
Mollanın qarnı beşdir, daima biri boşdur.
Mollanın nə pisi, nə yaxşısı; molla elə molladır.
Mollanın ovcu həmişə gicişər.
Mollanın cibi dərin olar.
Motala dadanan köpək bir də gələr.
Murdar əsgiyə od düşməz.
Mus-mus deyincə birdəfəlik - Mustafa de.
Musa-musa, tumanı qısa, anası uzun, atası qısa!
Musiqi könül həmdəmidir.
Musiqi ruha qidadır.
Mustafa xandan kağızı var.
Muşqulatçun saqqız çeynə.
Müqəssirin dili qısadır.
Müəllim ən böyük bağbandır.
Müəllim ikiqat atadır.
Mückan oxunan atar, yay qaşın çəkər.
Mülayim adam salamat olar.
Mülk alan qırx gün ac olar, mülk satan qırx gün tox.
Mülk aldın abad al, bağ aldın bərbad.
Müsəlmanın sonrakı ağlı.
Müftəxor sahibi - səliqəli olar.
Müştərinin ağlı gözündə olar.
Müştərinin biri gedər, biri gələr.
Müştərinin gözü satıcının əlində olar.

N

Nabələdə gün də buluddur.
Naqqa balın tasa yerləşməz.
Naqqalar olmasaydı, dünya laləzara dönərdi.
Nağd al-verdən ətir iyi gələr.
Nağdı əldən vermə.
(Nağdı qoyub nisyənin dalınca düşmə)
Nağıl dili yüyrək olar.
Nadan əlindən su içmə ab-həyat olsa da.
Nadanı kötək düzəldər, qozbeli qəbir.
Nadanın düşməni özüdür.
Nadiri taxtda görüb, Süleymanı qundaqda.
Nakəsə borclu olma.
Namaz qıla-qıla yıxdın evimi, indi başlamısan həccə getməyə.
Namaza meyli olanın qulağı azanda olar.
Namazdan əvvəl boğazdır.
Namazı əkib, orucluğa gedir.
Namə vüsalın yarısıdır.
Namə yazmaq asandır, yetirmək çətin.
Namərd körpüsündən rahat keçincə, razıyam apara o sellər məni.
Namərd gəlib mərd olmaz yüz ətəklə yüz yalvar.
Namərdə yaxa vermə, mərdə arxa ol.
Namərdə möhtac olma.
Namərdə yaxa vermə, mərdə arxa ol.
Namərdə möhtac olma.
Namərdə tuş olanın ciyəri qana dönər.
Namərdi bir gördün, bir də görsən namərdsən.
Namərdin adı olmaz.
Namərdin gözü dar olar.
Namərdin plovundan mərdin qaşıq aşı.
Namərdin çörəyi dizinin üstə olar.
Namı-nişanı qalmayıb.
Namus insanın qan bahasıdır.
Namusu itə atdılar, it yemədi.
Namus gedər, dönməz geri, yoxdur onun bəlil yeri.
Nanəcibə salam verərsən, deyər: - Qorxdu məndən!
Napakı hamam təmizləməz.
Nar ağacı - istək ağacı.
Nar üstündən turp yeməzlər.
Naümid şeytandır.
Naxçıvanın duzu, qızı, qarpızı.
Naxır itib, ala dananı qovur.
Naxır yeri ilə gedib ala dananı axtarır.
Naxıra gedirəm - çoban olmaz, axura gedirəm - saman.
Naxırda malın yox, növbədə başın yarılır.
Naxırçı qızı arpa çörəyi arzular.
(Naxırçı qızı naxırçı çörəyi istər)
Naxırçı qızını verdi (köçürtdü), torba dağarcığı da üstəlik.
Naxırçı qızının qeyrəti naxır gələndə tutar.
Naxırçı qızından xanım olmaz.
Naxırçının faydası havayı eşşəyə minməkdir.
Nacins ağac düyünlü olar.
Nacins qarpızın tumu çox olar.
Nahaq qan batmaz.
Nahaq qan yerdə qalmaz.
Nahaq iş ayaq tutmaz.
Naşı bilməz xara nədir, bez nədir?!
Naşı ovçu dağı adlayar, ov vura bilməz.
Naşı oğru özünü samanlığa vurar.
Neyləyirəm qızıl taxtı, bir qızıl baxtım olaydı.
Neyləyirəm qızıl teşti, içində qan qusacağam.
Neyləyirəm gözəlliyi, gözəl baxtım olaydı.
Necə gəlmisən, elə də get.
Nə ağacı tovla, nə də it hürsün.
Nə ağız yandıran aşdır, nə baş sındıran daş.
Nə alandır, nə satan.
Nə alacağı var, nə verəcəyi.
Nə altda undur, nə üstə kəpək.
Nə at var, nə meydan.
Nə bağım var, nə də çaqqalla davam.
Nə balanı istəyirəm, nə də balasını.
Nə baxırsan taxtına, sən baxgilən baxtına.
Nə başı var, nə ayağı.
Nə belə vəslin olaydı, nə elə hicranın.
Nə biçinini biçirəm, nə də ayranını içirəm.
Nə varlıya borclu ol, nə yoxsuldan alacaqlı.
Nə vaxt tülkü olsan, çarığımı çeynərsən.
Nə ver, nə al.
Nə ver, nə də dalınca get.

Nə vermişdi ki, ala bilmədi?!
Nə qaldırsa üzünə, o görünər gözünə.
Nə qanır, nə də qandırır.
Nə qədər uzaq olsa, yol yaxşıdır,
Nə qədər yaman olsa, el yaxşıdır.
Nə qoyuna gedir, nə də qapıda hürür.
Nə qədər qoca olsa min cavana dəyər.
Nə doğrarsan aşına, o çıxar qaşığına.
Nə dost kimi dostdur, nə düşmən kimi düşmən.
Nə əkərsən, onu da biçərsən.
Nə arabada, nə dünbədə.
Nə dəvəni görmüşəm, nə də ləpirini.
Nə dəlini işlət, nə də dəli üçün işlə.
Nə dərin suya gir, nə Xıdır Nəbini çağır.
Nə dil bilsin, nə dodaq.
Nə iyi var, nə səsi.
Nə izi var, nə tozu.
Nə ilə ölçərsən, onunla da ölçülərsən.
Nə ins var, nə cins.
Nə istərsən bacından, bacın ölür acından.
(Bac istərəm bacımdan, bacım ölür acından).
Nə istisi var, nə soyuğu.
Nə it yiyəsidir, nə gön yiyəsi.
Nə itirib, nə axtarırsan?
Nə işim var bayırda, çaqqal məni çığırda.
Nə işim var naqabilə söz deyəm?
Nə işim var, nə macalım.
Nə yada sirrini ver, nə namərdə bel bağla.
Nə yazılıb, o da olacaq.
Nə yaraşıb arığa, gedib girə qoruğa?!
Nə yeyilir, nə atılır.
Nə yer qəbul eləyir, nə göy.
Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım.
Nə yoxsuldan alacağım olsun, nə varlıya verəcəyim.
Nə gecəm gecədir, nə gündüzüm gündüz.
Nə gələnə üz göstər, nə gedəni qovan ol.
Nə görməli günlərim varmış!
Nə görmüşəm, nə eşitmişəm.
Nə günahı var, nə savabı.
Nə sal ilədir, nə mal ilədir, gülüm, ululuq kamal ilədir.
Nə o yanlıqdır, nə bu yanlıq.
Nə özü işləyir, nə işləyəni qoyur işləsin.
Nə özü yeyir, nə özgəyə verir, iylətdirir, itə verir.
Nə özündədir, nə sözündə.
Nə ölən kimi ölür, nə qalan kimi qalır.
Nə ölüyə hay verir, nə diriyə pay.
Nə salam, nə kalam.
Nə sən dedin, nə mən eşitdim.
Nə sən gəl, nə ilin axır çərşənbəsi.
Nə sərvətə bel bağla, nə fələyə güvən gəz.
Nə səs var, nə səmir.
Nə soyuğa tabım var, nə pulum var kürk alım.
Nə tiyanda barama var, nə cəhrədə ipək.
Nə şiş yansın, nə kabab.
Nə tökərsən aşına, o çıxar qaşığına.
Nə turşirin, nə doşab.
Nə tüfəngə çaxmaqdır, nə dünbəyə toxmaq.
Nə ucu var, nə bucağı.
Nə çəkərsə öküz çəkər, araba yolu ilə gedər.
Nə hə, nə yox.
Nə coraba yamaqdır, nə tumana bağ.
Nə şeytanı gör, nə bismillah de.
Nə şaşqın ol basıl, nə daşqın ol asıl.
Nə şilləmsən, nə şapalağım.
Nəbzi mənim əlimdədir.
Nəvə müamilədir.
Nəvə övladdan şirindir.
Nəzir seyidə düşər, fitrə yoxsula.
Nələr gəldi, nələr keçdi fələkdən?!
Nənə yarım dənə ilə də keçinər.
Nənəsinə nəmərəmdir.
Nər yükünü nər çəkər.
Nərdivana ilk pillədən çıxarlar.
Nərin dizi bağlı gərək.
Nəfəs haqdandır.
Nəfəs – nəfəsdir, bədnəfəsin adı bədnamdır.
Nəfəsi isti yerdən çıxır.
Nəfəsi gedir gəlir yalandır.
Nəcabət adamın zatında olar.
Nəcabət ata-ana ilə ölçülməz.
Nəcib atları nəcib kişilər mindi getdi.
Nəhəng dəryada olar.
Nəxunəkçi sahibi-səliqə olar.
Niyə elə yerdə yatıram ki, altıma su çıxsın?
Niyyətin hara – mənzilin ora.
Nisyə vermərəm, dalınca da getmərəm.
Nisyə – girməz kisəyə.
Nisyə çaxır içən iki dəfə keflənər.
Nakəslə comərdin xərci birdir.
Novruzdan sonra qırx gün kötük yanar.

Novruzgülü ilə bənövşə bir-birini görməzlər.
Noxudların hesabına baxanda görünür heç bayram olmayacaq.
Növbə bizə gələndə çırağın yağı qurtarar.
Növbə yetimə çatanda ya hərifin pulu qurtarar, ya çırağın yağı.
Növbə yetimə çatanda qaşığın dəstəsi sınar.

Nökər nədir, bekar nədir?
Nökərsən, niyə bekarsan, aç qapını, ört qapını.
Nur gözdə olar.
Nuh deyər, peyğəmbər deməz.
Nuh - Nəbidən qalıb.
(Nuh əyyamından qalıb).

©2005 - Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

O

O adam ki, səhər yalan danışdı, axşamacan yalan danışar.
O qədər dövlətli deyiləm ki, ucuz şey alım.
O qədər kötüklər üstündə budaqlar doğranıb ki...
O qədər pulu var ki, toyuq dənləsə qurtarmaz.
O olmasın, bu olsun.
Ov atanın deyil, yetənindir.
(Ov yetənindir)
Ovçu nə qədər hiylə bilsə, ov o qədər yol bilər.
Ovcuma qoy, ovcuna qoyum.
Ovcumun içini iynəməmişəm ki?!
Oğlan adamı – sındırar badamı,
Qız adamı – sındırar adamı.
Oğlan dayıya çəkər, qız – xalaya.
Oğlan gəldin, qız gəldin?
Oğlan süfrə açmağı, atadan öyrənər.
Qız anadan öyrənər paltar biçməyi.
Oğlana balacalıqda qız verən çox olar.
Oğlandır – oxdur, hər evdə yoxdur.
Oğlanı kamal ilə, qızı camal ilə.
Oğlanın oğlan oyunu var, qızın – qız oyunu.
Oğlum oğul olsun, ona tapılmayan qız olsun.
Oğluna qız axtarınca, qızına oğlan axtar.
Oğlunu sevən – gəlinin sevər, qızını sevən – kürəkənin.
Oğul arxadır, qız yaraşıqdır.
Oğul beldən, ər eldən.
Oğul bəd övlad olsa, öldürər dərd atanı!
Oğul günahsız olmaz, ata – mərhəmətsiz.
Oğul meyvədir, ata – bağban.
Oğul oğul olsa, neylər ata malını.
Oğul ölsə ciyərim yanar, qardaş ölsə belim bükülər.
Oğul ölümü göz tökər, qardaş ölümü bel bükər.
Oğru qalana yanar, mal sahibi – gedənə.
Oğru doğruluqdan danışar.
Oğru elə bağırdı, doğrunun bağrı yarıldı.
(oğru elə bağırdı, doğru küncə sıxıldı)
Oğru elə bilər hamı oğrudur.
Oğru it özünü bildirər.
(Oğru it xoflu olar).
Oğru kölgəsindən qorxar.
Oğru oğrunu tez tanıyar.
Oğru həmişə doğruluqdan danışar.
Oğrunu oğru ilə tutarlar.
Oğrunun yadına daş salma.
Od yanmasa tüstü çıxmaz.
(Od olan yerdən tüstü çıxar)
Od ilə oynamaq olmaz.
Od ilə pambığın nə dostluğu?
Od insanı həm qızdırır, həm də yandırar.
Od olsa özünü yandırar.
Od parçasıdır!
Olar – yazaram, olmaz – pozaram.
Olacağa çarə yoxdur.
Olmadı elə, oldu belə.
Olmasın azar!
On iki imama yalvarınca, bir allaha yalvar.
On ölç, bir biç.
Ona dözən, on beşə də dözər.
Ona söz dedin, elə bil daşa-divara dedin.
Onda elə idi, indi belədir.
Ortada yeyib qıraqda gəzir.
Oruc tutma, namaz qılma, işin belə rast gəlsin?
Oruc tutmayanın oğluna Ramazan adı qoyarlar.
Ot kökü üstə bitər.
Oturduğum yerdə işə düşdüm!
Ox yaradan çıxar, ədavət ürəkdən çıxmaz.
Oxu atırsan, yayını gizlədirsən?!
Oxu daşa dəydi.
Övlad bir turş almaya bənzər, yeyənin dişi qamaşar, yeməyənin könlü istər.

©2005 – Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

Ö

Övlad insanın məbədidir.
Övlad ki, var, badamdır, nəvə - məğzbadamdır.
Övlad könül meyvəsidir.
Övlad pəncərədən düşən işıqdır.
Övlad sərmayədir.
Övlad tapılar, ata-ana tapılmaz.
Övlad can yanğısıdır.
Övladda atadan nişanə olmalıdır.
Övladda nəvə, dövlətdə - dəvə.
Öz ağam, öz qulum.
Öz ağlını özgə ağlına vermə.
Öz adını özgələrə qoyma.
Öz anasını sevən, özgə anasını söyməz.
Öz arşını ilə ölçür.
Öz atının noxtasından yapış.
Öz bəxtindən küs.
Öz qabağından ye!
Öz qədrini bilməyənin qədrini özgəsi də bilməz.
Öz quru çörəyim özgənin plovundan yaxşıdır.
Öz daş-tərəzisi ilə çəkir.
Öz duzunuzla yeyin!
Öz evimin nökəriyəm, özgə evinin - ağası.
Öz evində öz başını bağlaya bilmir, özgə evində gəlin başı bağlayır.
Öz evimdir!
Öz eybini bilməmiş, özgəyə rişxənd eləmə.
Öz eşşəyimizdir.
Öz əli ilə öz ayağına balta çalır.
Öz əlim, öz başım.
Öz ipini özü eşir.
Öz itimizdir.
Öz işini özün gör.
Öz yağı öz başına.
Özgə malına dəymə, özünkünü bərk saxla.
Özgənin malı-mülkü, bizim də Qənbərimiz.
Öz kövşənində otla.

Öz kövşənində otlayan mal ac qalmaz.

Öz kölgəsindən uzağı görmür.
(Öz burnundan uzağı görmür).
Öz gözünə bayquşun balası tovuz quşundan da gözəldir.
Öz gözündə tiri görmür, özgə gözündə qılı seçir.
Öz oduna da məni yandırma.
Öz örüşündə Muradalı da bəydir.
Öz rahatlığını istə.
Öz rahatlığını istə, özgənin narahatlığın istəmə.
Öz səsi özünə xoş gəlir.
Öz sözü ilə tutulur.
Öz sözünü eşit özgə sözünü danışanda.
Öz sözünü özgənin ağzından danışma.
Öz çörəyini özgə süfrəsində yemə.
Öz çulunu sudan çıxarda bilmir.
Özgə ağzına baxan ac qalar.
Özgə atına minən tez düşər.
Özgə bağından gül dərməzlər.
Özgə qapısını bağlı istəyənin öz qapısı bağlı qalar.
Özgə evində qonaqdan borc istəməzlər.
Özgə əli ilə ilan tutur.
Özgə əlində kömbə böyük görünər.
Özgə yerin halvasını hövla ilə çalarlar.
Özgə kisəsindən pul bağışlamazlar.
Özgə gözü yaxşı görər.
Özgə malına göz tikən, malsız-davarsız qalar.
Özgə uşağından oğul olmaz.
Özgəyə bel bağlama.
Özgəyə it hürər, bizə Mazandaran çaqqalı.
Özgəyə kömək et, sənə də kömək edərlər.
Özgənin qarğası özgəyə qırğı görünər.
Özgənin qırğısı var, bizim də qarğamız.
Özgənin yaman gününə gülən öz gününə ağlayar.
Özgənin yaxşısından öz pisimiz yaxşıdır.
Özgənin kaşanəsindən bizim viranəmiz yaxşıdır.
(Özgənin sarayından, öz daxmam yaxşıdır)
Özgənin sözünü özgəyə deməyə nə var?
Özgənin sözünü özgənin evində danışma.
Özgəninki get-gedə ipək olur, bizimki köpək.
Özü balaca, sözü böyük.
Özü bişirib, özü yeyir.
Özü qazanmayan mal qədri bilməz.
Özü qoca isə, könlü cavandır.
Özü danışar, özü də qulaq asar.

Özü deyir, özü də gülür.
Özü etdi özünə külü tökdü gözünə.
Özü eşşək, tükü məxmər.
Özü ədalətli olanın, qazıya ehtiyacı olmaz.
Özü əkir, özü də biçir.
Özü yazır, özü oxuyur.
Özü yeməz, özgəyə də verməz.
Özü yəhər qaşında, gözü ocaq başında.
Özü yıxılan ağlamaz.
Özü yıxılan özü də qalxar.
Özü kəsir, özü tikir.
Özü getdi, sözü qaldı.
Özü öz ağasıdır.
Özü özünə qəbir qazıyır.
Özü özünə eyləyənə-çarə yoxdur.
Özü özünə eyləyəni el yığılsa eyləyə bilməz.
Özü ölçür, özü biçir.
Özü üçün əriştə kəsə bilmir, özgəyə umac ovur.
Özü üçün yatır, özgələrə yuxu görür.
Özü üçün yeyir, özgəsinə minnət qoyur.
Özüm qoturam, keçim ki, qotur deyil?
Özüm qürbətdəyəm, gözüm vətəndə.
Özüm öz ağamam.
Özüm özümə elədim, külü gözümə elədim.
Özüm yer eylərəm, gör sənə nə eylərəm.
Öz-özünü bəyənən ağam vay!
Özümüz evdə, sözümüz çöllərdə.
Özümüz bir şey deyilik, adımız təbildə döyülür.
«Özün bil»lə qal olmaz.
Özün bilən yaxşıdır.
Özün bişirdin, özün də dad.
Özün fil olsan da, qarışqanı yaddan çıxartma.
Özündə olmayanda qonşuya gedərsən, qonşuda olmayanda hara gedərsən?
Özündən böyüyə qabarma, bəlkə atandır.
Özündən qolu güclüyə rast gəlməmisən!
Özündən dövlətli ilə ayaq çəkmə.
Özündən yuxarı baxanda, özündən aşağı da bax.
Özündən güclü ilə vuruşma.
Özünə baxma, sözünə bax.
Özünə qıymadığını, özgəyə qıyma.
Özünə düşmən öz dostunu itirəndir.
Özünə umac ova bilmir, özgəsinə əriştə kəsir.
Özünə hörmət qoymayan, özgəyə də hörmət qoymaz.
Özünü alim istəyən cahildən uzaq olar.
Özünü atan da birdir, özünü dartan da.
Özünü atan dizinə döyər.
Özünü başqasına nərdivan eləmə.
Özünü başqasından gözləmə, öz ocağının pişiyindən gözlə.
Özünü böyük göstərmək kiçikliyin ən kiçiyidir.
Özünə qələmə verən axmaqdır.
Özünü gözə soxur.
Özünü günə verir.
Özünü tanımayan allahını da tanımaz.
Özünü tülkülüyə qoyub.
Özünü xəstə (yorulmuş) bilsən, yoldaşını ölmüş bil.
Özünün yavan çörəyi özgənin plovundan yaxşıdır.
Öyrənməyə ar olmaz.
Öyüdü anlayana verərlər.
Öküz altında buzov axtarır.
Öküz deyər: - Mən ağama nökərəm.
Öküz dəvəcən olanda, dəvə dağcan olar.
Öküz əhildəməkdən boyunduruq əhildəyir.
Öküz kimi yeyir, dana kimi yatır.
Öküz gərək cüt ola!
Öküz olacaq dana bugündən bilinər.
Öküz özünə yonca əkəndə başı ağrıyar.
Öküz öldü, ortaq ayrıldı.
Öküz öldürüb adını üstümdən götürə bilmirəm.
Öküz ölər, gönü qalar, igid ölər, ünü qalar.
Öküz ölməyincə inəyə qiymət olmaz.
Öküzü buynuzundan, adamı sözündən tutarlar.
Öküzü yorulana çox söz deyərlər.
Öküzü olana borc gön verərlər.
Öküzü öldürüb, qumuzunda bıçağı sındırdı.
Öküzü öləndən danışma.
Öküzü ölənə yol göstərən çox olar.
Öküzün böyüyü pəyədə qalıbdır.
Öküzün qaşqasına dəyərlər.
Öküzün qocalanı dana-buzova qoşular.
Öküzün cütə getməyənini ətlik adına satarlar.
Ögeyin adı bədnam olur.
Öldü var, döndü yoxdur.
Öldürən ox, günahkar ox atan.
«Öldürrəm» deyəndən qorxma, «ölləm» deyəndən qorx.
Öldürsələr qanı axmaz.
Ölən kim, öldürən kim?

Ölən görməyəcək, qalan görəcək.
Ölən onlardan olsun, bel-kürək bizdən.
Ölən öldü, vay qalanın halına.
(Ölən öldü, borcun uddu, vay qalanın halına).
Ölən öldü diriyə dirilik gərək.
Ölən canını qurtarır, vay qalanın halına.
Ölən üçün qəm yemə, beş bükümdən az yemə.
Ölənin borcunu baqqal dirilərə yüklər.
Ölənin cibindən gedər.
Ölər Koroğlu, getməz vətəndən.
Öləcəksən əgərçi şah olasan.
Ölkə abad ikən dəyirman xaraba idi.
Ölkə yansa, canı yanmaz.
Ölkə ki var, onun qabağında şah da acizdir, gəda da.
Ölkə sahibsiz olmaz.
Ölmə, itmə, qapımızdan getmə.
Ölməz, itməz Xədicə, görər nəvə-nəticə.
Ölmək var, dönmək yoxdur.
Ölmək istəyirsən köç Mazandarana.
Ölmək ölməkdir, xırıldamaq nə deməkdir?!
Ölmüş aslana dovşanlar da hücum eylər.
Ölmüş ata yük çatmazlar.
Ölmüş dəvənin dərisi bir eşşəyə yükdür.
Ölmüş eşşək axtarır ki, nalını çəksin.
Ölmüş aslandan diri köpək yaxşıdır.
Ölü aslanın saqqalını yolarlar.
Ölü bit deyil ki!
Ölü bit deyiləm ki, dırnaq altında qalım.
Ölü qəbristandan qayıtmaz.
Ölü dağı çəkilər, diri dağı çəkilməz.
Ölü yerdə qalmaz.
(Ölü kəfənsiz qalmaz).
Ölü kimdir ki, gorun söyən kim ola?!
Ölü kimi yatır.
Ölü gör necə ölüdür, Əzrail də halına ağlayır.
Ölü cəhənnəmə, təki mollaya pul olsun.
Ölüb ağlayanı yoxdur.
Ölüb ölümdən qayıdıb.
Ölüdən pay umur.
Ölüdən şeytan da əl çəkib.
Ölüyə də yiyə lazımdır, diriyə də.
Ölülər elə bilir ki, dirilər halva yeyir.
Ölüm var ki, həyat qədər dəyərli, həyat var ki, ölümdən də bədtərdir.
Ölüm var ölüm kimi, ölüm var zülüm kimi.
Ölüm qaş ilə göz arasındadır.
Ölüm-dirim bizim üçündür.
Ölüm haqdan, kəfən Məmməd Cəfər bəydən.
Ölüm haqdır.
Ölümdən başqa hər şeyə çarə var.
Ölümə gedən gəldi, pula gedən gəlmədi.
Ölümə çarə yoxdur.
Ölünü vaxtında ağla, el gələr tünlük olar.
Ölünü özbaşına qoysan, şıllaq atar kəfəni cırar.
Ölünün vəsiyyəti özü ilə gedər.
Ölünün dalınca danışmazlar.
Ölünün dalınca salat çəkir.
Ölürsə yer bəyənsin, qalırsa el bəyənsin.
Ölüsü bir gün, şivəni min gün.
Ölüsü olan kiridi, yasa gələn kirimədi.
Ölüsü ölən bir gün ağlar, dəlisi olan hər gün.
Ölçməmiş biçmə.
Ömrün bərəkəti yaxşı əməl ilədir.
Ömrünə qəbalə alıb.
Ömür bir iynədir, sapı çox qısa.
Ömür boyu lampa qayırdım, hələ də qaranlıqda qalmışam!
Ömür vəfasızdır, bizi tərk edir.
Ömür qarısa da, könül qarımaz.
Ömür deyir qocalmışam, ürək deyir: - Yaşa hələ!
Ömür edən yaşa dolar.
Ömürlər örtülüdür, həm qocaya həm cavana.
Öpürsən öz əlini öp.
Ördək ətin, qaz ətin, yeyən bilər ləzzətin.
Ördəyi bağlamağa, ipək gərək, yar ilə oynamağa ürək gərək.
Ördəyi su ilə qorxutmazlar.
Ördək gəlib qaz olmaz, gəlin gəlib qız olmaz.
Ördək öldü - qaz qaldı, sim qırıldı - saz qaldı.
Ördəkdən qaz yerişi tələb eləmək olmaz.
Örkən nə qədər uzun olsa, yenə də doğanaqdan keçəcək.
Örkən üstə darı sərib.
Örəpə qoyunun nə əti olar, nə yunu.
Örtülü bazar, dostluğu pozar.
Örüşündə otla.
(Örüşündən çıxma).
Ötüb keçən ömürdür, qocalan insan!

P

Padşah uzaqda, allah yuxarıda, kimə deyəsən dərdini?!
Padşah xəzinəsi də altı şahılıq qıfıla möhtacdır.
Padşahın ayağı dəyən yerdə yeddi il ot bitməz.
Padşahın da dalınca danışarlar.
Padşahın da rəiyyətə işi düşər.
Padşahın söhbətinin əvvəli – dirilik, axırı – ölüm.
Pay bölənə pay qalmaz.
Pay bölənin yüzdə biri cənnətə gedər.
Pay verdi, dalınca gəldi.
Pay dolu gələr, dolu gedər.
Pay payı döyər, çıxardar.
Pay paylayan payından olar.
Paydan pay ummazlar.
Paydan uman pay verməz.
Payın qabağı pay olar.
Payın cənnətdə.
Payını yalqız yeyən payını dişi ilə tutar.
Payını payımın üstə qoy, ya altından ye, ya üstündən.
Payız camışı qaçağan olar.
Payızın suyu kasıbın boğazına təngdir.
Palaza bürün, elə ilə sürün.
Palan –palan, mənə də palan?!
Palçığa batan arabanı öküz çıxardar.
Papaq elə – işimizi bilək.
Papaq isti soyuq üçün deyil, namus üçündür.
Papaq altında igidlər yaşar.
Papaqçının könlü olsa, bir dəridən doqquz papaq tikər.
Papaqçının papağı olmaz.
Papağı tülkü dərisindən, xəbəri yox gerisindən.
Papağımız günə yandı.
Papağın yerə girsin!
Papağını qoy qabağına, fikirləş.
Papağını məscidə atsalar, gedib götürməz.
Papağının zağarası gedib.
Para qurtardı, dükan bağlandı.
Para istəmə məndən, buz kimi soyuyuaram səndən.
Paran vardır – cümlə aləm qulundur, paran yoxdur – dar küçələr yolundur.
Paran ucuz isə, özün bahalı ol.
Paslı dəmirdən qılınc olmaz.
Paxıl adam ac canavardan pisdir.
Paxıl artsa, qurd artar.
Paxıl olma, qüssən olmasın.
Paxıla tanrı verməz, versə də qarnı doymaz.
Paxılın axırı olmaz.
Paxılın goru cəhənnəmdir.
Paxılın gözü doymaz.
Peyğəmbər əvvəl öz canına dua edib.
Peyinin adı «Çəməngül».
Peyininə bax – bostan at.
Pendir yeyən su axtarar.
Pendir-çörək səlamətdir.
Peşiman şeytandır.
Peşkəşin axırı dərvişə çatar.
Pəzəvəngin axırı dərviş olar.
Pələngə ət yeməyi, keçiyə ot yeməyi öyrətməzlər.
Pəncşənbənin gəlişi, çərşənbədən bəllidir.
«Pəncşənbənin» nöqtələrini düzürdüm...
Pəhrizini gözləməyən azarını uzadar.
Pöşəngin axırı torbakeş olar.
Piyada atlıya gülər.
Piyada züvvardır.
Piyada gedəndən at almağı öyrənmə.
Piyadanın atlı ilə nə yoldaşlığı?!
Pir mənimdir, kəramətini bilirəm.
Pişik arxasını yerə vurmaz.
Pişik atası xeyrinə siçan tutmaz.
Pişik balası özünü anasının döşündə gizlədər.
Pişik balasını istədiyindən yeyər.
Pişik bərkə düşəndə, dırnağı ilə pələng gözü çıxardar.
Pişik bəsləməyən – siçan bəslər.
Pişik evdən çıxanda, siçanlar baş qaldırar.
Pişik yeyəni, aslan qusdura bilməz.
Pişik yerə öyrənər, it adama.
Pişik kimi yeddi canı var.
Pişik miyo-miyonu anasından öyrənər.
Pişik miyoldamasın, toyuq taqqıldamasın.
Pişik ölüb, siçanların bayramıdır.
Pişik siçanı marıtdayan kimi marıtdayır.

Pişiyə dedilər:
Atan yaxşıdır, anan?
Dedi:
Nə bu, nə o, miyo-miyo.
Pişiyin ağzı birə salanda, dönər üzünü cırmaqlar.
Pişiyi bağlayıb çörək yeyənlərdəndir.
Pişiyi bir vursan - dinməz, iki vursan - dinməz, axırda üz-gözünü cırmaqlar.
Pişiyi çox sıxışdırma, pələngə dönər.
Pişiyin ağzı ətə çatmaz, deyər: - İy verir!
Pişiyin qanadı olsaydı sərçələrdən əlamət qalmazdı.
Pişiyin dərdi iti öldürər.
Pişiyin yatan yeri isti kürsü dibindədir.
Pişiyin yüyürməyi samanlığa qədərdir.
Pişiyin gözü siçan deşiyində olar.
Pişiyin könlü samanlıqda idi, tazı da qovdu, samanlığa saldı.
Pişiyini ağaca dırmaşdıraram.
Pişiyiniz nərdivanımızı aparıb.
Pirini tanımayanın aqibəti pis olar.
Pirimizə daş atmayın.
Pinəçinin mayası iynə ilə sapıdır.

©2005 - Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

Q

Qab-qaşıq qonaqlığıdır.
Qab sirkəyə görədir.
Qaba söz qaba hərəkətdən pisdir.
Qaba suyu tutduğu qədər tökərlər
Qabaqda gedirəm, deyirlər: - Bicdir; dalda qalıram, deyirlər: - Gicdir.
Qabiliyyətin məktəbi yoxdur.
Qazan qarası gedər, üz qarası yox.
Qazan qapaqsız olmaz, igid - papaqsız.
Qazan dibi yalayanın adaxlısı göyçək olar.
Qazan dedi: - Qızmışam!
Çömçə dedi: - İndi bulanıb çıxmışam!
Qazan oddan qızar, insan - sözdən.
Qazan olsun, dolu olsun, yeyən tapılar.
Qazanan kim, yeyən kim?!
Qazanı özündən, qazananı özündən.
Qazanına görə qaynat aşını.
Qazanmaq çətin, xərcləmək asan.
Qazanmağa nə var, iş onu xərcləməkdədir.
Qazanc qudurub mayanı yeyib.
Qazancım ata-anamın, öyrəndiyim özümün.
Qazancını itir, malını itir, duz - çörəyi itirmə.
Qazıya salam verdim, rüşvət deyil deyə almadı.
Qaya dağa arxalanar.
Qaya uçmasa, dərə-təpə dolmaz.
Qayınana - bir çiçək, hər sözü gerçək.
Qayınana, məgər gəlin olmamısan?!
Qayınana pambıq olsa belə, yerindən qalxsa, gəlinin başını əzər.
Qayınanalı gəlinin dilinin altında fənd gərək.
Qaynayan qazan qapaq saxlamaz.
Qayınanan səni istəyir.
Qalxdığın yerə bir də oturma, hər söhbətə atılma.
Qamış bizim yerdə bitir, zurnanı özgə çalır.
Qan-qan deyir,
Qan yol verməz.
Qana qan deyiblər.
Qanan düşmən qanmaz dostdan yaxşıdır.
Qanana işarə, qanmayana kötək.
Qanacaqlı adam həm qanar, həm qandırar.
Qanı qaradır.
Qanının arasına girdi.
Qanmaza nə demək?!
Qanmazın başmağın cütləyəndə deyər: - Qorxdu məndən!
Qanmazla yoldaş olma, səni də qanmaz eylər.
Qanun zora tabedir.
Qapıya gələni qovmazlar.
Qapını döyməsən açmazlar.
Qapını gen qoy, dəvə özü gələr. (Qapını gen qoy, dəvəsini allahdan istə!)
Qara bulud yağış yağdırar.
Qara qız bəzənincə, toy əldən gedər.
Qara qızın bəxti olsaydı, anadan ağ doğulardı.
Qara qızın dərdi var.
Qara eşşək, ağ palan?!
Qara eşşəyin boynuna yüyən vurmaqla, ya dalına yəhər qoymaqla qatır olmaz.
Qara gözlərinə aşiq olub.
Qara gün qaralıb qalmaz.
Qara günün ağ günü də var.
Qara günün ömrü az olar.
Qara səni basınca, sən qaranı bas.
Qara xəbər tez yayılar.
Qaraya sabın, dəliyə öyüd neyləsin?!
Qaranı yumaqla ağarmaz.
Qarğa, məndə qoz var.
Qarğadan gözəl quş istədilər balasını göstərdi.
Qarğanın qonaqlıq yeri peyinlikdir.
Qardaş qardaş yaranıb, cibləri ayrı.
Qardaş qardaşı bıçaqladı, sonra dönüb qucaqladı.
Qardaş qardaşın pis gününü istəsə də, ölümünü istəməz.
Qardaş da dost olsa yaxşıdır.
Qardaş olaq, tən bölək.
Qardaşa baxarlar, bacısını alarlar.
Qardaşıq, cibimiz ayrı.
Qardaşın kiçiyi olunca, donuzun böyüyü ol.
Qardaşlar savaşdı, əbləhlər inandı.
Qarı düşmən dost olmaz, yedirtsən yağı, balı!
Qarın qardaşdan irəlidir.
Qarın doyuranı göz tanıyar.

©2005 - Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

Qarın tox olanda çox şey yada düşər.
Qarnı toxdur, gözü ac.
Qarnı toxun qayğısı olmaz.
Qaçan da allahı çağırar, qovan da.
Qaçan yıxılmağa baxmaz.
Qaçanı qovmazlar, yıxılanı vurmazlar.
Qaçmaq da hünərdir, qovmaq da.
Qaş düzəltdiyi yerdə vurdu gözün çıxartdı.
Qaş ilə göz arasında işini görür.
Qaşqabağı yer süpürür.
Qaşqabağından zəhrimar tökülür.
Qaşıq-qaşıq yığır, çömçə ilə paylayır.
Qaşıqla verir, çömçə ilə başıma vurur.
Qaşıqla yığdığını çömçə ilə dağıtdı.
Qaşıyıram qanım çıxır, qaşımıram, canım çıxır.
Qaşınmayan yerdən qan çıxardır.
Qaşınmayan yeri qaşıma, qan çıxar.
Qəbahət çox vaxt öldürəndə yox, öləndə olur.
Qəbiristandan ölü qayıtmaz.
Qədəmi yüngüldür.
Qədir-qiymət bilən deyil.
Qəlb bir şüşədir, sındırsan – yamamaq olmaz.
Qələbə birlikdədir.
Qələbə sevinc gətirər.
Qələm qılıncdan itidir.
Qəm dağı yerindən qopardar.
Qəm insanı əridər.
Qəm, hara gedirsən?
əm yanına!
Dəm, hara gedirsən?
Dəm dayına!
Qəmiş qoyma!
Qənaət tükənməz bir dövlətdir.
Qəpiyə güllə atır.
(Qəpiyə mayallaq artır).
Qənaət xəzinədir.
Qərib quşa yuvanı allah yetirər.
Qərib dərdin tək ağlar.
Qərib dostu olmayandır.
Qəribə bir salam min tüməndən yaxşıdır.
Qəribi baxışından tanıyarlar.
Qəribin boynu uzun olar, dili qısa.
Qəriblik ağıl artırar.
Qəriblik cənnət olsa, yenə vətən yaxşıdır.
Qiyamət o gün qopar, biri yeyər, biri baxar.
Qiymətdən düşmək istəmirsənsə, heç kəsin qiymətdən düşməsinə çalışma.
Qiymətli yük yüngül olar.
Qisas qiyamətə qalmaz.
Qismət göydən zənbil ilə enməz.
Qismət olan qaşığa çıxar.
Qismətdən artıq yemək olmaz.
Qız alan alana kimi, qız verən ölənə kimi.
Qız alan göz ilə baxmasın, qulağı ilə eşitsin.
Qız alanın ya bir çuval qızılı, ya bir çuval yalanı gərək
Qız anadan olanda gözünü açar, deyər:
Bu bizim ev deyil!
Qız anadan öyüd alar.
Qız anası elçi gözlər.
(qız qapısı elçi gözlər).
Qız badamdır, balası – badam içi.
Qız qaldıqca qızıla dönər.
Qız qapısı – şah qapısı, mini gələr, biri razı gedər.
Qız – qızıl alma, qızı gözdən salma.
Qız qızıldır, qədrini bilsin gərək.
Qız qundaqda, cehizi sandıqda.
Qız dediyin ağacdakı almadır, kim salar, o da aparar!
Qız deyər:
Qırxım çıxmayınca məni atmasalar, daha atmazlar.
Qız evi – naz evi.
Qız evin qonağıdır, vaxt gələr, gedər.
Qız evində toydur, oğlan evinin xəbəri yox.
Qız evindən oğul bucağı yaxşıdır.
Qız evlərdə tanınar, ipək – dəzgahda.
Qız köçəri quşdur.
Qız gedəridir, oğlan ürək başıdır.
Qız gözəl gərək, oğlan – igid.
Qız güldür, oğlan bülbül.
Qız nəvəsi şirin olar.
Qız özgə əmanətidir.
Qız özgə çırağını yandırar.
Qız sevəndə tez sevər, vay o günə dul sevə!
Qız uşağı evin yaraşığıdır.
Qız ürəyi – çiçək ləçəyi.
Qıza dedilər: – Gözəlsən!
edi: – Hələ dayanın, əl-üzümü yuyum.
Qızdı – nazdı, min tümən azdı.

Qızdır, qızıldır, oğlan nə çoxdur,
Qızı anası öyrədər.
Qızı vermirsən, özünə oğul qazanmısan.
Qızı otaqlıya yox, papaqlıya ver.
Qızı öz xoşuna qoysan ya mütrübə gedər, ya zurnaçıya.
Qızı saldın beşiyə, cehizini çək eşiyə.
Qızıl arvadın, qılınc ərindir.
Qızıl gül olmayaydı, saralıb solmayaydı, bir ayrılıq, bir ölüm, heç biri olmayaydı.
Qızıl palçıqda da parıldar.
Qızıl taxtım olunca, qızıl bəxtim olsun.
Qılınc yarası sağalar, dil yarası sağalmaz.
Qılınc kəsməyəni çörək kəsər.
Qılınc gücü ilə müsəlman olub.
Qılıncının dalı da kəsir, qabağı da.
Qır-saqqız olub yapışıb yaxama.
Qızım sənə deyirəm, gəlinim, sən eşit.
Qızın isməti - atanın dövləti.
Qızın oldu, qırmızı donunu çıxart.
Qızınmadıq istisindən, kor olduq tüstüsündən.
Qoduq böyüyər - eşşək olar.
Qoz, qabığından çıxdı, qabığını bəyənmədi.
Qozbeli qəbir düzəldər.
Qoyunu qurda tapşırıb.
Qonaq bərəkət gətirər.
Qonaq bir gün olar.
Qonaq qonağı istəməz, ev yiyəsi - heç birini.
Qonaq, dur altını süpürüm.
Qonaq sevənin süfrəsi boş qalmaz.
Qonaq süfrənin yaraşığıdır, uşaq - evin.
Qonağa «Çörək yeyirsən?» deməzlər.
Qonağa «get» deməzlər, palazı altından çəkərlər.
Qonağı evə qoyan yoxdur, soruşur:
Paltarımı haradan asım?
Qonağı olmayan evlər yıxılsa yaxşıdır.
Qonağın ruzisi özündən qabaq gələr.
Qonaqlıq yaxşı şeydir, bir gün bizdə, bir gün sizdə.
Qonaqsan - xoş gəlmisən, niyə əliboş gəlmisən?
Qonaqsız ev - susuz dəyirman.
Qonaqsız ev uğursuz olar.
Qonşu aşı (payı) dadlı olar.
Qonşu qonşu olsa, kor qız ərə gedər.
Qonşu pisdir - köç qurtar, dişin ağrıyır çək qurtar.
Qorxaq kölgəsindən ürkər.
Qorxaq gündə yüz yol ölər, igid ömründə bir yol.
Qorxan gözə çöp düşər.
Qorxu olmayan yerdə nizam-intizam olmaz
Qorxursan pişikdən, niyə çıxırsan deşikdən?
Qohum gəlməyə-gəlməyə yad olar, yad gələ-gələ qohum olar.
Qohum qohumun ətini yesə, sümüyün çölə atmaz.
Qohumun pisinə də, yaxşısına da qurban olum.
Qohumun kimdir?
Yaxın qonşum.
Qocaya gedən quyruq yeyər, cavana gedən - yumruq.
Qocaya hörmət elə, sən də qocalacaqsan.
Qocalar uşaq təbiətli olar.
Qocalıq gəldi getməzdir, cavanlıq getdi gəlməzdir.
Qocalıq soruşmaz - gələr.
Qocalmasan qoca qədri bilməzsən.
Qudurasan, ay qurbağa, gəlib bizi vurmağa!
Quyruğundan ilişib.
Qulaq ardına salıb.
Qulaq gündə təzə söz eşitməsə kar olar.
Qulaq günahkarıyam.
Qulağı cingildəyir.
Qulağı doldurublar.
Qulluqçudan borc eləmə, ya toyda istər, ya yasda.
Qurd ürəyi yeyib!
Qurda qoyun tapşırmaq olmaz.
Qurddur, qoyun dərisinə girib.
Qurdu evdə saxlamaqla, ev heyvanı olmaz.
Qurunun oduna yaş da yanar.
Quşa qızıl qəfəs zindandır..
Qüvvə hər şeyi sındırar, ağıl - qüvvəni.
Qüvvət birlikdədir.
Qürbət yerdən vətən olmaz.
Qürbət görməyən adam vətən qədri bilməz.
Qürbət cənnət olsa, yenə vətən yaxşıdır.
Qürbətdə keçən ömür - ömür sayılmaz.
Qürbətdən vətənə qayıdanda sevinmək olmasaydı, qürbət səfəri haram olardı.

R

Rast gəlməyən işə peşiman olma.
Rahat durmayan, narahat olar.
Rahat oturana nə vali gələr, nə hakim.
Rahatlıq istəyən adam: - kar, kor, lal gərək.
Rəmmaldır, peyğəmbərlik iddiası eləyir.
Rəndə görməyib.
Rəncbərin ümidi əkinədir.
Rişxənd etmə qonşuna gələr bir gün başına.
Rişxəndlik ağlın zəifliyindən doğar.
Ruzi (yemək) olsun, ocaqda olsun.
Ruzi həllacbazarda gəzir.
Ruzimiz düşüb kor Məliyin əlinə.
Ruzi ki, dedin, qazıya məlum.
Rüşvət cəhənnəmin açarıdır.
Rüşvət haramdır.
Rüşvət qapıdan girərsə, iman bacadan çıxar.
Rüşvətxorun aqibəti yoxdur.

©2005 - Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

S

Sabaha kim ölə, kim qala.
Sabahın da sabahı var.
Sabahın naharı bədənin mismarıdır.
Sabahın şəri axşamın xeyrindən yaxşıdır.
Sabahın şirin yuxusu yolçunun yoldan eylər.
Sabah-sabaha salma.
Sabun qara palazı ağartmaz.
Sabun ilə üz yuyan, bir gün göyçək olar.
Savab tökülüb, yığan yoxdur.
Savab gör, hər zaman yaxşılıq eylə.
Savab adamı dilli eylər.
Saqqal ağarıb, bel bükülüb, başda ağıl yox.
Saqqal başa qurban olsun.
Saqqal adama qazılığ verməz.
Saqqal yox ikən bığ var idi.
Saqqala xal düşdü - ürəyə xal düşdü.
Saqqalda feyz olsaydı, keçiyə Kəraməddin ağa deyərdilər.
Saqqalı ağarıb, ağlı ağarmayıb.
Saqqalı hər dəlləyin əlinə verməzlər.
Saqqalım yoxdur, sözüm keçmir.
Saqqalımı dəyirmanda ağartmışam.
Saqqalımı hələ ələ verməmişəm.
Saqqalın çıxmamış, kosaya rişxənd eləmə.
Saqqalıma soğan doğrayır.
Saqqalını uşaq-muşaq əlinə vermə.
Saqqız çeynəməklə qarın doymaz.
Saqqız çeynədikcə çürüyər.
Saqqızını oğurlayıblar.
Sağ baş yastığa gəlməz.
Sağ başına saqqız yapışdırma.
Sağ əl verəni sol əl gərək bilməsin.
Sağ əli ilə haraylayır, sol əl ilə qovur məni.
Sağ əlin başımıza!
Sağ əlin rənci sol ələ haramdır.
Sağ əlin sol ələ ehtiyacı var.
Sağ yeri qarnı altındadır, onu da örkən kəsib.
Sağ gözün sol gözə etibarı yoxdur.
Sağ ol, var ol, gül ol, bülbül ol, qəfəsdə olma!
Sağa da vurur, sola da!
Soldan vurur, sağdan biçir.
Sağlam ruh sağlam bədəndə olar.
Sağlamlığın qədrini xəstələr bilər.
Sağlıq ən böyük varlıqdır.
Sağlıq böyük nemətdir, qədrini bilmək gərək.
Sağlıq ən böyük nemətdir, demə babam, yoxsulam.
Sağlıq olsun, görərik!
Sağlıq soltanlıqdır.
Sağlığında kor Fatma, öləndə badam gözlü.
Sağsağan kəkliyə baxar öz yerişini itirər.
Sadağa - bəlanı rəf eylər.
Sadağa qada qaytarar.
Sadağa saraydan çıxmaz.
Sadə yaşasan - yüz yaşaya bilərsən.
Sadəlik də abadlığın bir növüdür.
Saz olan yerdə sözü saza verərlər.
Saz şadlıq gətirər.
Sazına bülbül qonar.
Sazlı ev - sözlü ev.
Say, yerinə qoz qoy.
Sayanın quluyam, saymayanın ağası.
Sayılan gün tez keçər.
Saymadığın deşikdən tülkü çıxar.
Saymaz it adam qapar.
Sakit başın ağrısı olmaz.
Sakit olan salamat olar.
Salavat gücə bağlıdır.
Salavata işləyir.
Salam var baş kəsdirər, söyüş var ənam alar.
Salam verdim, borclu çıxdım.
Salam-ələk, sağsağan, isti çörək, göy soğan!
Salatçının səsi mollaya toy-bayramdır.
Salyan arabası kimi cırıldayır.
Sallaqxana köməyi arsız olar.
Saman altından su yeridir.
Saman yeyən eşşək torbasını özü daşıyar.
Saman qala-qala qızıla dönər, qızıl qala-qala samana dönər.
Saman sənin deyil, samanlıq ki, sənindir.
Samanın tüstüsü göz çıxardar.
Sandıq tulasıdır.
Sanılı pul durumsuz olar.
Sancmayanı sancmazlar.

Sap üzülən yerdən qırılar.
Sapdan asılıb.
Sapın ucunu tapandan sonra iş yaxşı gedər.
Sar çalağanın dayısıdır.
Sarala-sarala yaşamaqdansa, mərd-mərdanə ölmək yaxşıdır.
Sarbanla qonaq olanın darvazası gen gərək.
Sarı it çaqqalın dayısıdır.
Sarı yağdan tük çəkir.
Sarı yağla yağlayır, sarımsaqla dağlayır.
Sarsaq yaşamaq ömrə yamaqdır.
Sarsaqlar olmasaydı, yaltaqlar acından ölərdi.
Satınalma qulunam!
Saf armud sapdan düşməz.
Saxla gönü, gələr günü.
Saxla samanı, gələr zamanı.
Saxsıya verə-verə, çıxar misin bahası.
Sahibindən qabaq bostana girmə.
Sahibinin yanında pişik də it basar.
Sahibsiz qoyunu qurd yeyər.
Sahibsiz ev xarabdır.
Sahibsiz mal yetimdir.
Saç səfadan uzanar dırnaq cəfadan.
Saç ürəkdən su içər.
Saçı borc almaq mümkün olsaydı, keçəlin nə dərdi vardı?!
Sacı soyuq olanın kündəsi küt gedər.
Səbir ağacı hər bağda göyərməz.
Səbir acıdır, meyvəsi şirin.
Səbir edən muradına yetişər.
Səbir edən salamat olar.
Səbir eylə işinə, xeyir gələr başına.
Səbir eyləyən fərəc tapar.
Səbir eyləyən çox yaşar.
Səbir eylərəm, səbir daşı, çatladı ürəyimin başı.
Səbr ilə halva bişər ey qora səndən, bəsləsən atlas olar tut yarpağından.
Səbir kasam dolubdur.
Səbir təkamülün babasıdır.
Səbir cənnət açarıdır.
Səbirin axırı xeyir olar.
Sədaqət qəhrəmanın zinətidir.
Səkkiz yumurta verib, doqquz yumurta istəyir.
Sev səni sevəni.
Sevdanı sevda ilə yuyarlar.
Sevəni sevənə ver.
Sevəni sevilən incidər.
Sevənin gözündə pərdə olar.
Sevərəm məni sevəni, keçəl ola, daz ola, sevmərəm məni sevməyəni, şah ola, şahbaz ola.
Sevindim - quşum var, quşum var, aralığa çıxdı sərçə balası.
Sevinc sevinc gətirər.
Sevgi od deyil, amma oddan yamandır.
Sevgi adamı yandırar.
Sevgi adamı selə verər.
Sevgilimə çataydım, rahat-rahat yataydım.
Seyid cəddinə arxalanar.
Sel yüz gündə ovanı, dərd bir gündə ovar.
Seçə-seçə düşdü seçməliyə.
Səbəbkarın evi abad.
Səkkiz gün ömürə, doqquz gün çalışmaq lazımdır.
Səksən, doxsan, bir gün varsan, bir gün yox!
Səksənində yaşayır, indi belin qurşayır.
Səkkiz mıxa doqquz at bağlamazlar.
Səlbəni meyvəli ağaca vurarlar.
Sənə it saxlayanın, bir tikə artıq çörəyi gərək.
Sən ağa, mən ağa, inəkləri kim sağa?!
Sən ağacı əlinə al, oğrunu it qapacaq.
Sən ağacı götür, suçlu özünü bildirər.
Sən adını çək, mən nişan verim.
Sən atlı, mən piyada.
Sən bir yeyib içmisən, mən dünyanı gəzmişəm.
Sən bir kişisən, mən bir kişi!
Sən vuranda su çıxar, mən vuranda - qan?!
Sən vurmadın, mən yıxılmadım, bəs buna nə oldu?!
Sən qoçaq oğlan ol, qaranlıq gecələr çoxdur.
Sən dalını daşa ver, o qədər daş yığan olar ki.
Sən deyən qarpızdır, fal-fal yeyərlər.
Sən deyən oldu, mən deyən?!
Sən deyən olsun, ancaq bazar pozulmasın!
Sən deyən olsun, qal yatsın.
Sən də bir saqqal tərpət.
Sən dədəli, mən yetim.
Sən doğru ol, əyri bəlasını tapar.
Sən duza gedəndə, mən duzdan gəlirdim.
Sən eləsən, mən belə.
Sən içini ye, mən qabığını gəmirərəm.
Sən işi buraxmasan, iş səni buraxmaz.
Sən yediyini bilmirsən, mən doğradığımı bilirəm.

Sən yerindən tərpənincə, dağ-daşa dilə gələr.
Sən kim, mən kim?!
Sən get aşıq-aşıq oynamağa.
Sən get özünə dost qazan, düşmən ocaq başında.
Sən özünə gün axtar.
Sən görən ağacları dibindən kəsiblər.
Sən güllə atan ol, barıtını mən verrəm!
Sən gündüz gedən yolları mən gecə ikən keçmişəm.
Sən meyxanaya gedirsən, mən məscidə, bəs bir-birimizi harada görək?!
Sən məndən can istə, mən deyim gözüm üstə!
Sən mənim bir üzümü ağart, mən sənin iki üzünü ağardım.
Sən mollaya gedəndə, mən molladan gəlirdim.
Sən nə bilirsən ayı harada yumurtlar?!
Sən nə hayda, mən nə hayda?!
Sən orda, yaz, mən burda, kor olsun düşmənimiz!
Sən öl, mən Ağcaqabulda sənin üçün dəvə kəsim.
Sən öldün - borcdan qurtardın.
Sən razı, mən razı, nə qələt eləyir qazı?!
Sən saydığını say, gör fələk nə sayır.
Sən sapda durmaz baltasan.
Sən sevdanı et, quyruq heybədədir.
Sən sözü at, yiyəsi özü götürər.
Sən tərpənincə qırğı Şirvanı aşar.
Sən haqq ol, haqq da sənlə olar.
Sən çaldın!
Səndən ehtiyacı olanı, başqasına möhtac eləmə.
Səndən kor it xeyir görməyib!
Səndən mənə yar olmaz.
Səndən hərəkət, məndən bərəkət.
Sənə bir kəlmə söz, mənə bir illik yol.
Sənə bir toy tutaram ki, əlindən it əppəyini alar!..
Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış?!
Sənə məndən öyüd, dənini özün üyüd.
Sənə, mənə nə şəriət?!
Sənə hər kim daş atsa, sən ona çörək at.
Sənət ayrı, vərdiş ayrı.
Sənət, qolda qızıl bilərzikdir.
Sənət insanın xəzinəsidir.
Sənətin pisi olmaz.
Sənətkarın oğurluğun tutmaq olmaz.
Səni alar da, satar da, xəbər tutmazsan!
Səni nə tapan deyər: - Yaşa! nə itirən deyər: - Hayıf!
Səni istəyirəm, özümü səndən artıq istəyirəm.
Səni istərəm, çox istərəm, bir gözümü yox istərəm!
Səni mənim qəbrimə qoymayacaqlar!
Səni öküz vursun!
Sənin atın mənim arpamın gücünə yorğa gedir.
Sənin vaxtın keçib, allah övladına ağıl versin.
Sənin ipin ilə şələ bağlamaq olmaz.
Sənin yumurtanın sarısı olmaz.
Sənin üzün - dəvənin dizi.
Səninki nəğddir, sən apardın.
Səninki səndə, mənimki məndə.
Sənsiz bir günümüz olmasın.
Səpilməyən buğda göyərməz.
Sərv ağacı nə qədər uca olsa, əsli yoxdur, budağında bar olmaz.
Sərnic gətir, süd axtar.
Sərt olma, mərd ol.
Sərxoş biri iki görər.
Sərxoş sərxoşu meyxanada görər.
Sərxoşa məktub yazma ya oxuyar, ya oxumaz.
Sərxoşdan dəli də qorxar.
Sərxoşu it də tutmaz.
Sərxoşu meyxanada, mollanı məsciddə, dərvişi təkyədə tapmaq olar.
Sərxoşun dəniz topuğundandır.
Sərxoşun məktubu meyxanada oxunar.
Sərxoşun nə vecinə, aləmi su aparsın.
Sərçə qazan doldurmaz, qaz vur, qazan dolsun.
Sərçə qazan deyil budunu verim, bir dəvənin nəyini verim?!
Sərçə nədir ki, bozbaşı nə ola?!
Sərçə olsun, əlimdə olsun, göydə uçan qazı neylərəm?!
Sərçədən qorxan darı əkməz.
Sərçəyə cib-cib öyrətməzlər.
Sərçəni bülbül adına satır.
Sərçənin nəğməsi yox, cib-cibi yox!
Sərçənin cib-cibindən, toyuğu qaqqıldaması yaxşıdır.
Səs ver, sirr vermə.
Səs-küy ilə iş aşmaz.
Səfalət çalışqan adamın qapısından baxar.

Səfər məhək daşıdır.
Səfərə gedən su götürər.
Səxavət dövlətdən deyil, təbiətdəndir.
Səhvi dəyirmançı eylər, buğda aparar, un gətirər.
Səhər yeməyini özün ye, günorta yeməyini yoldaşına, axşam yeməyini düşmənینə ver.
Səhər gedər naxıra, axşam gələr axura.
Səhər gününə qızmayan axşam gününə heç qızmaz.
Səhərin işini səhər gör.
Səhrada gül bitməz, cahilə söz yetməz.
Sidqnən qaradaşdan mətləb almaq olmaz.
Sidr-kafuru müftə görsə uzanıb ölər.
Siyasət nənə-bacı bilməz.
Sizin aranızda ala qarğa balalamaz.
Sizin qazanınız var, biz vuraq öz güvəcimizi sındıraq?!
Sizin evdə yeyək, bizim evdə oynayaq.
Sirkə tünd olanda öz küpünü partladar.
Sirkənin öz qabına zərəri var.
Silah sahibinə də düşməndir.
Silahla oynamaq olmaz.
Sildim süpürdüm, silkindim çıxdım.
Siması boş, quşqunu boş.
Sirr açandan el qaçar.
Sirr vermə dostuna, o da deyər dostuna.
Sirr saxlamaq mərdlikdir.
Sirri sirr açar, kiri - kir.
Sifariş ilə həcc qəbul olmaz.
Siçan qarasından minarə tikir.
Siçan deşiyini satın alır.
Siçan kimi bir gözü deşikdədir.
Siçan kimi hər deşikdən baş göstərir.
Siçan görəndə pələngə dönən pişik, pələng görəndə siçana dönər.
Siçan olmamış qovurğa yeyir.
Siçan olmamış dağarcıq dəlir.
Siçan sidiyinin də dəryaya xeyri var.
Siçana araq versən, pişikdən pasport istər.
Siçana dedilər:
- Bu deşikdən çıx, gir o deşiyə, beş min altun verək sənə!
Siçan dedi:
- Bunda nə var?
Mənzili yaxın, pulu çox?!
Siçandan olan kəsəyən olar.
Siçandan olan torba kəsər.
Siçanı öldürmək pişiyə oyundur.
Siçanın anbara girməsinə yanmıram, başqasına yol göstərməsi məni yandırır.
Sızağanı qaşıma, çiban edərsən.
Sıyıq ilə yıxılan ev, aş bişir, viran olsun.
Sınan qol sağalar, sınan qəlb sağalmaz.
Sınanmamış atın dal-qabağına keçməzlər.
Sınıq qabda su qalmaz.
Sınsın o baş ki, dost yolunda gərək olmaz.
Sıradan çıxan qotur olar.
Sıxıb suyunu çıxardarlar.
Sıxıla-sıxıla behiştə getməkdənsə, oynaya-oynaya cəhənnəmə get.
Sovqatın adı birdir.
Soğan acı olsa da süfrədə öz yeri var.
Soğan eyib açandır.
Soğan yeməmisən, için niyə göynəyir?!
Soğan göyərdi, dedi:
- Mən də bir güləm!
Soğan olsun, nağd olsun!
Soyub-soyub quyruğunda bıçağı sındırdı.
Soyuq dəmir döyülməz.
Solaxay bərk vurur.
Sona qalan dala qalar, dala qalan dana qovar.
Sonrakı peşmançılıq fayda verməz.
Soraq-soraq ilə İsfahana gedərlər.
Sorğu-sual göydə deyil, yerdədir.
Soruşdular:
- Keçəl başını yudun?
Dedi:
- Yudum da, daradım da!
Soruşan dağlar aşar, soruşmayan düzdə çaşar.
Sofi soğan yeməz, tapsa qabığını da qoymaz.
Sevda arasında nırx qoymazlar.
Sevdanı pul kəsər.
Sevdanı pul kəsər davanı qılınc!
Sevdanın əvvəli!
Söz ağızdan çıxar.
Söz var adamı məst eylər, söz var məsti ayıldar.
Söz altında qalan deyil.
Söz bir olsa, zərbi gərən sındırar.
Söz böyüyün, su kiçiyin.
Söz var el içində, söz var ev içində.
Söz var xəstəni sağaldar, söz var adamı yaralar.
Söz var qulaqardına salarlar (vurarlar).

Söz var – gələr keçər, söz var – dələr keçər.
Söz var – xalq içində, söz var – xülq içində.
Söz var – şəkər-şirin bal kimi, söz var ki, zəhərdən də betərdir.
Söz vaxtına çəkər.
Söz qılıncdan kəskindir.
Söz vermə, verdin – yerinə yetir.
Söz vermək asandır, yerinə yetirmək çətin.
Söz quşdur, buraxarsan, uçar gedər.
Söz danış, söz olsun.
Söz danış söz eşit.
Söz danışıqdan keçər.
Söz dediyin dəmirdir, döydükcə uzanar.
Söz deyən azdır, söz çeynəyən çox.
Söz yaş dəridir, haraya çəksən oraya gedər.
Söz gəldi – deyərlər.
Söz gəldi, məqamında de gəlsin.
Söz gəzdirən adamdan qorx.
Söz gəzdirmə.
Söz gümüş olsa, sükut qızıldır.
Söz məndə, pul ingilisdə.
Söz odur ki, haqqa varam.
Söz pəhləvanı olma.
Söz sandığa girməz.
Söz sahibi ölsə də söz qalar.
Söz – sahibinin dustağıdır, sahibi – sözün dustağı.
Söz söylədiyin adamı tanı, sonra ona söz söylə.
Söz sözü gətirər.
Söz sözü çəkər, arşın bezi.
Söz tez yayılar.
Söz torbaya girməz.
Söz üçün əlini cibinə salmır.
Söz çox olan yerdə yalan da çox olar.
Söz üçün – usta, iş üçün – xəstə.
Sözdür, danışır.
Sözlə plov bişsə, dağ qədər yağ məndən.
Sözlər bir-birinə calanıb gedər.
Sözü ağzında bişir, sonra de.
Sözü at, yiyəsi götürər.
Sözü at yerə, gedər yerini tapar.
Sözü məqamında de.
Sözü məndən qabaq gedər.
Sözü xiridarı olana deyərlər.
Sözün acısı zəhərdən də betərdir.
Sözünü bilməyən ağız başa toxmaq vurdurar.
Sözünü qədəmi yeyin olar.
Sözün qısası dəyərli olar.
Sözün qısası hörüyün uzunu.
Sözün damarı olar, çəkdikcə uzanar.
Sözün düzü daşdan keçər.
Sözün düzünü de, atı min çap.
Sözün düzünü uşaqdan xəbər al.
Sözün ilə işin bir olsun.
Sözün yalanı olmaz, yanlışı olar.
Sözün yaxşısı baldan şirin olar.
Sözün zahiri zərif, batini lətif olmalıdır.
Sözün öz yeri var.
Sözün cavabı söz olar.
Sözün balla kəsim!
Sözünü bilməyəni bayıra atarlar.
Sözünü toylarda kəsim!
Söyləyənə baxma, söyləyəninə bax.
Söyləmək məndən, dinləmək səndən.
Söymə nökər atamı, söyməyim bəy atanı.
Söyüddən səndəl iyi gəlməz.
Söyüş qəlp puldur, yiyəsinə qayıdar.
Söndü bizim çırağımız, yandı sizin çırağınız.
Söhbət darı torbasıdır, deşildi – dağılacaq.
Söhbət ilə qarıyan, qəmdən qüssədən azad olar.
Söhbət üçün çənə, çaqqal üçün həna.
Su aydınlıqdır.
Su aydınlıqdır – cala öz bağına.
Su axar, arxa gələr.
Su axar, dəli durub baxar.
Su axar, çuxuru tapar.
Su axdığı yerə tökülər.
Su axdığı yerdən bir də axar.
Su aşağı axıdır, su yuxarı axtarır.
Su başdan bulanar.
Su başından aşıb.
Su bir yerdə qalanda iylənər.
Su qabı suda sınar.
Su qabını su tanıyar.
Su dayanar, düşmən dayanmaz.
Su daşı quma döndərər; arvad kişini – muma.
Su dirilikdir.
Su ilə, od ilə zarafat olmaz.
Su ilə odun imanı yoxdur.
Su yaranıb axmağa, göz yaranıb baxmağa.
Su ki, başdan aşdı, istər bir qarış olsun, istər min arşın.

Su ki, girdi qaba – oldu içməli.
Su kimi əziz ol.
Su kiçiyindir, yol böyüyün.
Su gələr, axar gedər, bəndləri yıxar gedər, dünya bir pəncərədir, hər gələn baxar gedər.
Su gələr ləyləndirər, bağçanı gülləndirər.
Su gərək quyunun dibindən çıxsın, quyuya su tökməklə quyu sulu olmaz.
Su görəndə balıqdır, qaya görəndə – keçi.
Su görməyincə ətək çəkmə.
Su götürməklə dəryadan su əskik olmaz.
Su murdarı pak eylər.
Su olan yerdə abadlıq olar.
Su səmtinə axar.
Su sənin dalınca gəlməsə, sən suyun dalınca get.
Su suya qarışanda güclü olar.
Su suyu tapar, su da çuxuru.
Su harada – dirilik orada.
Su hər şeyi pak eylər, üz qarasından qeyri.
Su çəkən də mən oldum, bərə gəzdirən də?!
Suda batan ilana da sarılar.
Suda batmaz, odda yanmaz.
Suda boğulan saman çöpündən yapışar.
Sudan ayrılan balığı oddan qorxusu olmaz.
Sudan qaymaq yığır.
Sudan xeyir olsa, qurbağa əcdahaya dönər.
Sudan çıxmış balıq kimi çapalayır.
Sudan çıxmış toyuğa oxşayır.
Suya düşsə quru çıxar.
Susuz yerdə ördək olmaz, qaz olmaz.
Suyu ver suzuyana.
Suyu püfləyə-püfləyə içir.
Suyun quyuda olsun.
Suyun əvvəli bulantı gələr.
Suyun lal axanı, adamın yerə baxanı.
Suyun üstə gəmi var, hər bir işin cəmi var.
Suyun şırıltısından, arvadın zırıltısından qorxmaq gərək.
Suları bir arxa getmir.
Sularınız axar-baxarlı olsun.
Sulu-sulu yudum, çamurlu-çamurlu sərdim.
Susamış it kəhrizə baxar.
Susuz ağac meyvə verməz.
Susuz aparıb, susuz gətirər.
Subay adamın yaxasını bit yeyər çörəyini – it.
Subaylıq soltanlıqdır.
Sür get deməmişlər, gör get demişlər.
Süd verən inəyi kəsməzlər.
Süd igidə halaldır.
Südlə gələn, sümüklə çıxar.
Süd gölündə üzür.
Süddə ağzı yanan, qatığı üfləyə-üfləyə içər.
Südlü aş dadlı olar, bir gün sizdə, bir gün bizdə.
Südlü qoyun sürüdən ayrılmaz.
Südlü inək ol, vur dolu sərnici dağıt.
Südlünü sürüdən ayırmazlar.
Südün dadını qısır əmən dana bilər.
Sükut edən salamat olar.
Sükut ixtiyardadır.
Sükutla görülən iş, qışqırıqla başa gəlməz.
Süleymana qalmayan dünya heç kəsə qalmaz.
Sümüyünü it sümüyünə qatma.
Sümükləri sürmə olub.
Süpürgə gəldi, qonağa cavab eylədi.
Sürməni allah aparıb paxlanın gözünə çəkib.
Sürməni gözə çəkərlər.
Sürü qoyun bizdə, satdıq yağ sizdə.
Sürü qotursuz olmaz.
Sürü sənə qurbandır, amma çəpişin biri bir tümənə.
Sürü çobansız olmaz.
Sürüdən ayrılan qoyunu qurd yeyər.
Sürüyə qurd düşəndə, vay bir qoyunlunun halına!
Sürüyə qurd gələndə, köpəyi yuxu tutar.
Sürüyə ki, düşdün, qapmasan da, gərək hürəsən.
Sürüvü hürküt, sonra say.
Süfrədə əlini saxla, məclisdə – dilini.
Süfrədən qalanı itə atarlar.
Süfrəni yuxarı başdan düzərlər aşağı başdan yığarlar.
Süfrənin başı-ayağı olmaz.

Ş

Şabalıtdan yağ çıxmaz.
Şabaşını vermişik.
Şadlığına şitlik eləyir.
Şair gördüyünü yazar.
Şair sözsüz olmaz.
Şayiə hər yanı gəzər.
Şalbanın bir ucu sənin çiynindədir.
Şam başından yanar.
Şam dibinə işıq salmaz.
Şam yanar, şölə çəkər...
Şam yanmasa, başına pərvanə dolanmaz.
Şam kimi əriyib.
Şamdan soruşdular: -İplik yanır, sən niyə əriyirsən?
Şam dedi: - Dad rəfiq əlindən! Rəfiqim yanır, mən də əriyirəm!
Şamın harada sönüb?
Şamaxıda danışır, Bakıda eşidilir.
Şahla plov yemirəm ki, bığım yağa batar.
Şahsənəm oğlan doğub!
Şahin ilə dəvə ovlamazlar.
Şahın da qaraçıya işi düşər.
Şahın da dəvələri ayaqyalın gəzir.
Şey qurd salanda duz səpərlər, duz qurd salanda nə səpərlər?
Şeytan əzabda gərək.
Şeytan ilə darı əkmişik.
Şeytan karxanası boş qalmaz.
Şeytan olmasa, qurd qoyunla gəzər.
Şeytana papış tikər.
Şeytanla ortaq olan buğda əkər - saman biçər.
Şeytanı tutmağa noxtasız gedir.
Şeytanın ayağını sındırır.
Şeytanın acığı yaxşı adamdan gələr.
Şeytanın qulağına qurğuşun!
Şap elə bilir şupdayam, şup elə bilir şapdayam, Nə şapdayam, nə şupda, hələ şarap-şurupda.
Şapalaqnan üz qızardar.
Şaftalı gəlməmiş, tabağı gəldi.
Şaftalı-tabaq olub girmə ortalığa.
Şah Abbasa yaradı, Keçəl Abbasa yaramadı?
Şah Abbasın tənbəlidir.
Şah bilər, şahivən bilər.
Şah vəzir ağlı ilə oturub durar.
Şah qapısı şaxtalı olar.
Şah da bilir Şirman çuxurdadır.
Şah, şah dediyim, öz canım üçündür.
Şah çiçək çıxardıb.
Şeytanın dostluğu dar günlərə qədərdir.
Şəbpərə gecə gəzər, gündüz gəzməz, elə bilər - özü bilər, özgə ilməz.
Şəkəri suya düşüb.
Şələ aşırmışlar kimi gözünü nə döyürsən?
Şələni elə bağla ki, gücün çatsın.
Şər deməsən, xeyir gəlməz.
Şər zahirə hökm eylər.
Şər kəsən barmaq ağrımaz.
Şər sevən - yalan, şər gətirən - gerçək.
Şər həmişə xeyrin dalınca gəzər.
Şərab, kabab - hay, hay!
Hesab, kitab - vay, vay!
Şərabın kədəri nəşəsindən artıqdır.
Şəri-şeytandan, məkri-zənandan, quru böhtandan, bəylər qəzəbindən özünü qoru.
Şəriət avamlar üçündür.
Şərik yaxşı olsaydı allah özünə yaradardı.
Şərikli qazan gec qaynar.
Şərikli əti it yeməz.
Şərti şumda kəs, xırmanda yabalaşmayasan.
Şəfa verən ağudan da verə bilər.
Şəfa piyalənin dibində olar.
Şəfa haqdandır, həkim - səbəbdir.
Şəhər bürclü - qalalı gərək.
Şikayət acizlik əlamətidir.
Şilə ilə yıxılan ev, plov bişir qoy dağılsın.
Şillə yeməmiş yanaq qızarmaz.
Şillə ilə üz qızardar.
Şir qocalanda özünə gülməyi gələr.
Şir gərək pəncə vura şir ilə.
Şir öz dişini heç kəsə borc verməz.
Şiri şiranə tutarlar.
Şirin aşına zəhər qatma.
Şirin dil adama dost qazandırar.
Şirin dil ilanı yuvasından çıxardar.

©2005 - Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

Şirin söz baldan şirindir.

Şücaətini Kərbəlaya saxlayıbsan?

T

Ta yeməsən bilməzsən.
Tava dəlik – yağ tutmaz, taxta çürük – mıx tutmaz.
Tava dəlik, tas dəlik, boş da qoyduq üstəlik.
Tavus bəzənər qaqqıldar, əyilib ayaqlarına baxanda sustalar, oturar.
Tavus hər yana baxar fərəhlənər, ayaqlarına baxanda qüssələnər).
Tanrı verən dövləti, bəndə ala bilməz.
Tazı heyz alanda, dovşanlar pəyədə balalar.
Tazını xaltası ilə tanıyarlar.
Tazının ağası varsa, dovşanın da tanrısı var.
Tazının yiyəsi varsa, dovşanın da yaradanı var).
Tazının topal olduğu dovşanın qulağına yetişib.
Tazısız ova gedən evə dovşansız qayıdar.
Tay-tuşuna bab elə, görən desin ha belə!
Taylı tayını tapmasa günü ah-vayla keçər.
Tayını bil, tuşunu tanı.
Tale insanla oynayır.
Taleyi yar olanın yar sarar yarasını.
Tamarzıdan al, dadanana ver.
Tamah yüzdür – doxsan doqquzu mollada, biri camaatda, ona da molla deyər: – Şərikəm!
Tamahkar olma!
Tamahkar öz nəfsinin quludur.
Tamahkarlıq başa bəladır.
Tamahkarı yalançı aldadır.
Tamahkarın gözü kor olar.
Tamahkarın gözünü torpaq doldurar.
Tanrı böyük – altı gen.
Tanrı bilir günahkar kimdir.
Tanrı bir yandan bağlasa, bir yandan açar.
Tanrı verən dövlətin zavalı olmaz.
Tanrı verib Zeyniyə, dişləri yox çeynəyə.
Tanrı vuran ağacın səsi çıxmaz.
Tanrı qoruyanı qurd yeməz.
Tanrı dadına çatsın!
Tanrı eşşəyi tanıyıb, buynuz verməyib.
Tanrıdan gəlməsə, bəndədən nə gələr.
Tanrıya tabaq aparıb.
Tanrının sabahı qurtarmaz.
Tanrının təndirini bəndə poza bilməz.
Tanrısız yerdə otur, həkimsiz yerdə durma.
Tanrısın tanımayandan nə umursan?
Tanımadığın adamı evinə buraxma.
Tapılan tapanın olsa, qoyun çobanın olar.
Tapanda ye, tapmayanda ac qal.
Tar çalan simi gözlər.
Tarlada izi olmayanın, süfrədə üzü olmaz.
Tarlasında darısı yox damında qarı.
Tarixi-nadiri əzbər bilir.
Tas ki, girdi başa, bil ki hamam vaxtdır.
Tatos kovxa, Matos kovxa on beş evə otuz kovxa!
Taxt yaratmaq olar, bəxt yaratmaq olmaz.
Taxt mənimdir, özüm bilərəm, altında yataram, üstündə yataram, özüm bilərəm.
Taxtına nə baxırsan, baxına bax.
Taxtanı rəndə hamarlar, bəndəni – bəndə.
Taxçadakı qarnımda, boxçadakı əynimdə.
Taxça mənə qaldı Şeydalı, boxça mənə qaldı Şeydalı,
Bir saat yarı görməsəm, yandırram dağı Şeydalı.
Tez bitər, tez yetər.
Tez qaçan, tez yorular.
Tez duran, tez evlənən peşiman olmaz.
Tez ələ gələn tez də ayağa düşər.
Tez parıldayan tez də sönər.
Tez-tez getmə, dodaq büzərlər.
Tez tündləşən, tez də yumşalar.
Təbil döysən eşitməz.
Təqdir ilə yazılan tədbir ilə pozulmaz.
Təqdir-qəza qüvvəti bazu ilə dönməz,
Bir şəm ki, haqdan yana, heç bad ilə sönməz.
Təqsir oldu lələdə, saqqalı verdi ələ.
Təqsir öldürəndə yox, öləndə olar.
Təqsir taledə deyil, insanın özündədir.
Təqsiri bağışlamaq qüdrətin bəzəyidir.
Təqsirim olsa, boynum tükdən nazikdir.
Təzə ay çıxanda, köhnə ayı doğrayıb ulduz qayırarlar.
Təzə bardaq, təzə su.
Təzə bəydən köhnə bəyə bir xələt.

Təzə evə köçəndə, köhnə evin ocağından kül götürərlər.
Təzə gəldi bazardan, köhnə düşdü nəzərdən.
Təzə kuzə suyu sərin saxlar.
Təzə süpürgə gələndə, köhnə süpürgəni dama atarlar.
Təzə süpürgə təmiz süpürər.
Təzə çıxan daylaqlar çuluna görə oynaqlar.
Təzək yığan əllər, ipək gördü dolaşdı.
Təzəcə çıxıb təndirdən, minnəti yox pendirdən.
Tək ağacdan bağ olmaz.
Tək atdım, cüt vurdum.
Tək qoyundan sürü olmaz.
Tək daşdan divar olmaz.
Tək duran təknəsilə qalar.
Tək əl ilə düyün düyünlənməz.
Tək əldən səs çıxmaz.
Tək gəzən dananı qurd yeyər.
Tək gəldi səbr eylə, cüt gəldi xeyirdir.
Tək otur, təknə qaşı.
Tək səbir yaxşıdır, cüt səbir xoşdur.
Tək xoruzdur, əlli yerdə hini var.
Təkə sürüyə böyük olmazdı, qoyunlar qoyun olsaydı.
Təkədə qoç hünəri olmaz.
Təkədən pendir tutmaq olmaz.
Təkəyə dedilər: – Buynuzların niyə haçadır?
Dedi: – Arasında iş var!
Təkərin başı ayağı yoxdur.
Təki çalan olsun, oynayan tapılar.
Təkləməsən – döyməzsən.
Təklik allaha yaraşar.
Tələsən bayaq büdrər.
Tələsən bir yerinə iki verər.
Tələsən yolda qalar.
Tələsən gecəyə düşər.
Tələsənə mənzil alınmaz.
Tələsənin kündəsi küt gedər.
Tələsik işə şeytan qarışar.
Təkrar biliyin anasıdır.
Təmiz hava girməyən evə həkim girər.
Təmizlik sağlamlığın rəhnidir.
Tənbəl badam istər, sındırmağının zəhmətindən qaçar.
Tənbəl yatağan olar.
Tənbəl arvad suyu dağıdar, deyər: – Aydınlıqdır!
Tənbəl dağda qar gördü, yorğanına büründü.
Tənbəl deyər: – Ver yeyim, ört yatım, gözlə canım çıxmasın!
Tənbəl dilənçinin qardaşıdır.
Tənbəl həmişə «xəstəyəm» deyər.
Tənbələ dedilər: – Qapını ört.
Dedi: – Külək əsər, örtər.
Tənbələ dedilər: – Atı sula.
Dedi: – Dodaqlarım yaradır.
Dedilər: – Gəl xörək yeməyə.
Dedi: – Hanı mənim yekə qaşığım?
Tənbələ iş buyur, o sənə ağıl öyrətsin.
Tənbələ həftənin hər günü cümədir.
Tənbəllik azar artırar, işləmək canı saf eylər.
Tənbəllikdən müsəlman olub.
Tənbəldən cəmiyyətə xeyir olmaz.
Təpik atma, qısır qalarsan.
Təpik döyüşündə oynar, təpik altında ölər.
Təpəri var, hünəri yox.
Təpəsini gün yandırdı.
Təpəsini gün yandırdı, ayağını çarıq dağıtdı.
Tərə yeyən də yaza çıxar, tərə yeməyən də.
Tərəzi gözü kimi iki tərəyə əyilmə.
Tərək halva xörəkdən sonra.
Tərlan yerində çəçələ-çərkəz əyləşib.
Tərlan oylağında sar ola bilməz.
Tərlan sar yerin verməz.
Tərləməmiş pul qazanmaz olmaz.
Təcrübə yüksəlişin qanadıdır.
Teşti damdan düşüb.
Tikan (iynə) üstəyəm.
Tikan əkən, gül dərməz.
Tikan olub ayağa batınca, gül ol yaxaya sancıl.
Tikə dostu olma.
Tikə ilə dost olan, illər ilə küsülü qalar.
Tikə tikəyə borcdur.
Tikəsi tarıya çatmır.
Tikəni qaytarmazlar.
Tikili don gen olar.
Tikmək güc aparır, yıxmaq asandır.
Tısbağaya – balası, hər kəsə öz balası.
Ticarət al-verdədir.
Ticarət dostluq körpüsüdür.
Ticarətin əsası – insaf, sonrası da insafdır.
Tiflisin üstü bostan, abad olsun Gürcüstan.
Tövbə – toxluqdan, qovqa – aclıqdan.

Tovus quşunu tükünə görə kəsərlər.
Toz ayrı – duman ayrı.
Tozdan-torpaqdan dərman tapılmış.
Toy-bayram bizim küçədə də olar.
Toy bəzəyi – gəlindir.
(Toy bəzəyi xonçadır)
Toy borcu ilə ev almaq olmaz.
Toy da olsa toyuğun vayıdır, vay da olsa toyuğun vayıdır.
Toy gününü qoyub vay gününü oynayır.
Toy tulasıdır, arada gəzir.
Toya getmə, yasa get.
Toya getməsən eyb etməz, yasa getmək vacibdir.
Toya toy deyiblər, yasa – yas.
Toyda oynamaz, vayda ağlamaz.
Toydan sonra nağara?
Toydan sonra xınanı tazıya yaxarlar.
Toyumda oynamasan, yasımda ağlamasan, daha nəyimə lazımsan?
Toyun yaraşığı oynamaqdır.
Toyunda oynayım!
Toyunda xəlbir ilə su daşıyım!
Toysuz ev tapılar, vaysız ev tapılmaz.
Tövləyə buraxmırlar ki, quşqun oğrayar.
Toyuq anasından süd görməyib.
Toyuq bir yumurtlasa xəbəri yüz evə çatar, camış doğsa – səsi çıxmaz.
Toyuq bir içər, bir göyə baxar.
Toyuq qaz yerişi yerisə, öz yerişini də itirər.
Toyuq yumurtasına görə qaqqıldar.
Toyuq ki, yumurta üstə oturdu, ona bıçaq yoxdur.
Toyuq banlamasının düşər-düşməzi var.
Toyuğun başı kəsiləndə də gözü eşənəkdə olar.
Toyuğun cəriməsi bir yumurtadır.
Topal eşşəklə karvana qoşulma.
Topal ilə gəzən axsamaq öyrənər.
Tora düşən səbr eyləməsə özünü fələkətə salar.
Torbada pişik var.
Torpaq qızıl quşdur əldən buraxdın – uçar gedər.
Torpaq deyər: – Döy məni, doyurum səni!
Torpaq deyər: – Öldür məni, dirildim səni!
Torpaq deyər: – Sən mənə tər ver mən sənə zər verim!
Torpaq kimi bərəkətli ol ki, hamının sevimlisi olasan.
Torpaq ovuclayan – qızıl ovuclar.
«Torpağa bax» deyiblər!
Torpaqnan oynayan ac qalmaz.
Torpağı bir yerdən götürülüb.
Torpağı sanı yaşayasan!
Torpağın qarası üz ağardar.
Torpağın sirrini əli torpaqda olandan sor.
Tox elə bilər ki, heç acmaz,
Ac elə bilər ki, heç doymaz.
Tox evin ac pişiyidir.
Tox ikən yeyən, dişi ilə özünə qəbir qazıyar.
Tox it ac bəydən yaxşıdır.
Tox gedər, ac qayıdar.
Tox nə bilir, ac nə çəkir?
Tox toyuğu ilə, ac soyuğu ilə.
Toxum at, toxum götür.
Topuğuna su çıxmır.
Topuğundan vursan yıxılmaz.
Tövbəsi tövləyəcəndir.
Tövbəsini sındıran məlںundur.
(Tövbəsin sındıran kişi deyil)
Traktora qulluq elə, atı yadından çıxartma.
Tula itdən murdardır.
Tulanın quyruğunu kəsməklə köpək olmaz.
Tumanı cırıq kəndxuda, istəyir bizi qorxuda.
Turp əkdim, şəlqəm çıxdı.
Turş alçadır – görənin ağzı sulanar, yeyənin dişi qamaşar.
Tut ağacı əkən ipək dərər.
Tutdu qatıq, tutmadı ayran!
Tutdu göv, tutmadı – kələm başı!
Tutu, çiyələyi birdən dəyib.
Tutivarı əzbərləyəndir.
Tutu quşu danışar, amma insan olmaz.
Tutmadı bostan, olmadı qarpız.
Tutmusan ucundan, gedirsən ucuzluğuna.

U

Uzaq yerin arpasından, yaxın yerin samanı yaxşıdır.
Uzaq yerin bir parça kağızı, yaxın yerin bir kəlmə sözü.
Uzaq yerin halvasını hola ilə yeyərlər.
Uzaqdan baxana dava asan görünər.
Uzaqlaşmaq yaxınlaşmaq üçün vasitədir.
Uzan, gözünə dərman töküm!
Uzun adamın ağlı dabanında olar.
Uzun danışanın ömrü az olar.
Uzun yolun bu başında yalan danışan, o başında özü də inanar.
Uzun kösöv əl yandırmaz.
Uzunsaqqal axmaq olar.
«Uzunqulaq» eşşəyə deyərlər.
Uzundraz, binamaz – xeyrə, şərə yaramaz.
Uyuşar – qatıq yeyərik, uyuşmaz – süd içərik.
Ulağa gücü çatmır, acığını palanına tökür.
Ulaya-ulaya it öz başına qal gətirər.
Ulamağını bilməyən köpək, sürüyə qurd gətirər.
Ulduz hesabı ilə gəmiçi yol aparır.
Ulduz çoxsa, ay birdir.
Ulduzu barışmayan gəlinin salamı da savaşdır.
Ulu sözünə baxmayan, ulaya-ulaya qalar.
Uma-uma döndüm muma.
Uman yerdən küsərlər.
Umac – burdan ye, ordan – acı.
Unumu ələdim, ələyimi asdım.
Usta əli dəyməyən iş haramdır.
Usta görən şagird, hər məqamda yorğalar.
Usta görməyən şagird ondan-bundan qarmalar.
Usta meymun qamçısız oynar.
Usta oğlundan şagird olmaz.
Ustadına gəc baxanın, gözlərindən qan damar.
Ustadına kəm baxan, ruzusunu az görər.
Ustakarın qapısı qırıq olar.
Ustakarın oğurluğun tutmaq olar.
Utan utanmazdan, qorx – qorxmazdan.
Utanırsan, üzünə rübənd sal.
Utancaqın eşşəyini qurd yeyər.
Uçan quşa da borcu var.
Uçuq ev xarabasından məlum olar.
Uca ol, ucalara qarış.
Ucuz alan aldanar.
Ucuz alan, baha alır, baha alan aldanır.
Ucuz aldın – quyruğunu düyünlə.
Ucuz ətin şorbası olmaz.
Ucuz satan tez satar.
Ucuzdur – var illəti, bahadır – var hikməti.
Ucuzluqda alanın, bahalıqda satanın üzünü görmə.
Ucuzluqda alıcının üzünü görmə, bahalıqda yadıma düşmür.
Uşaq ağlaya-ağlaya böyüyər.
Uşaq adamı qanlı qapısına aparar.
Uşaq arasına girməzlər.
Uşaq atasından güclüsünü bilməz.
Uşaq aşığı oynamaq üçün yığar.
Uşaq böyüklərindən öyrənər.
Uşaq böyük olunca, böyüyü yumaq olar.
Uşaq vardır-yoxdur bilməz.
Uşaq evdə böyüyər, balıq – göldə.
Uşaqla yola çıxma, eşşəyi yıxılsa ağlar, eşşəkdən yıxılsan gülər.
Uşaq yeməyini bilməz.
Uşaq yıxıldığı yerə baxar.
Uşaq gördüyünü istər.
Uşaq nədir, bıçaq nədir?!
Uşaq sözü şah sözündən hökmlüdür.
Uşaq sözün düzünü deyər.
Uşağa qundaq çağında məhək daşı deyərlər.
Uşağı süpürgə ilə döyməzlər, boyu çıxmaz.
Uşaqlar atalarının cavabdehi deyil.
Uşaqlar həyatın çiçəkləridir.
Uşaqlı evdə qiybət olmaz.
Uşaqlı evdə həvəng-dəstəni göydən asarlar.
Uşaqlıq ömrün baharıdır.
Uşaqlıqda divara nərdivansız çıxardım.
Uşaqlıqda yalan danışana böyüyəndə heç kəs inanmaz.
Uşağa buyur, dalınca yüyür.
Uşağı yemək böyütməz, sevinc böyüdər.
Uşağın vurmamağına baxma, daşın böyüyəndən yapışar.

Uşağın gici gedər yol üstə oturar.

Ü

Üz verdik dəliyə, palçıqlı çıxdı xalıya.
Üz verən, astar da verər.
Üz verilən yerdən ərinmə, üz verilməyən yerdə görünmə.
Üz vermə, astar da istər.
Üz göstərsən qohumluq iddiası eylər.
Üz döndü, göz döndü.
Üz ki var – ətdəndir.
Üz götürüb gedəni zəncir ilə saxlamaq olmaz.
Üz üzdən utanar.
Üz ürəyin güzgüsüdür.
Üzdə gülür, dalda hürür.
Üzdən iraq!
Üzə gülür, ayaqdan çəkir.
Üzərliksən varsan, yetmiş dərdə davasan, o yerdə ki, varsan, qada-balanı qovarsan.
Üzrü günahından artıq.
Üzü ağ, qəlbi qara, mən belə dostu neylərəm?!
Üzü necədir, ürəyi də elədir.
Üzü şeyx, astarı kafər.
Üzük tanınar qaşı ilə, qız – qardaşı ilə.
Üzük-üzük oynayan gecələr yatmaz.
Üzüm ayağın altında!
Üzüm qaradırsa, alnım açıqdır.
Üzüm üzümə baxar qaralar.
Üzümə bax, halımı sor.
Üzümü əldə gör, çöpünü – yerdə.
Üzün qaralığı yaman deyil, qəlbin qaralığı yamandır.
Üzünü xalqa çevirənin arxası möhkəm olar.
Üzü üstə gələni arxası üstə çevirməzlər.
Ümid ilədir cahanda hər iş.
Ümid həyatın sərmayəsidir.
Ümidsiz yaşamazlar.
Ürək qulaq deyil ki, barmaqla qurdalayasan.
Ürək dənizdən dərindir.
Ürək yanar, göz yaşarar.
Ürək yanmasa gözdən yaş çıxmaz.
Ürək ki var – şüşədir, sındırarsan kim yamar?!
Ürək öz dostunu tanıyar.
Ürəyim qana dönüb.
Ürəyimin dərdini təzələmə.
Ürəyimin daşqınını ağız dəyər.
Ürəkdən ürəyə yol var.
Üstü bəzək, altı təzək.
Üstümü unlu görüb, adımı dəyirmançı çağırma.
Üç eşşək bir axurdan arpa yeməz.
Üç tümənlik eşşəyin on beş qranlıq qoduğu olar.

©2005 – Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

V

Vay bu başdan, vay o başdan.
Vay o kişinin halına ki, yeməyə, içməyə, saxlaya arvadının sonraki ərinə.
Vay o gündən ki, adamın öz iti özünü qapa.
Vay o gündən ki, varlı adam yoxsulun əlinə düşsün.
Vay o gündən ki, çörəkçi çəkmə tikə, çəkməçi çörək yapa.
Vay o sürüsünün halına ki, canavardan çobanın təyin edələr.
Vay ondadır ki, varlı evinə yoxsul girə.
Vay ölənin halına.
Var adama oyun öyrədər.
Var axar, yox baxar.
Var var üstündən gələr.
Var evi – kərəm evi, yox evi – vərəm evi.
Var günün dostu çox olar.
Vara var deyərlər, yoxa yox.
Vardan – yoxdan çıxıb.
Vardır pulun – hamı qulun, yoxdur pulun – açıqdır yolun.
Varı olan taxar, varı olmayan baxar.
Varını verən utanmaz.
Varını itirən az şey itirər, namusunu itirən – çox şey.
Varlı arabasını dağdan aşırar, yoxsul düz yerdə yolunu çaşar.
Varlı varından pay versə, varsız da varlı olar.
Varlı yoxsullaşanda əlli il dəstgahını pozmaz.
Varlı kisəsini döyər, kasıb dizini.
Varlı olub qəm-qüssə ilə yaşamaqdansa, kasıb olub şad-xürrəm yaşamaq yaxşıdır.
Varlı umduğunu yeyər, kasıb – olduğunu.
Varlığa güvənməzlər.
Varlığa nə darlıq?!
Varlılığa tələsən yoxsulluğa tez düşər.
Varlığın sonu ilə yoxluğun sonu birdir.
Varlıya toxun keç, yoxsuldan qorun, keç.
Varlının arvadı öləndə yorğan döşəyi təzələnər, kasıbın arvadı öləndə yorğan-döşəksiz qalar.
Varlının varı gedər, muzdurun canı.
Varlının eşşəyi də yeyin gedər.
Varlının əlini bıçaq kəsəndə yoxsul köynəyini parçalar.
Varlının iti harın olar.
Varlının könlü oluncaya qədər kasıbın canı çıxar.
Varlının malı, kasıbın övladı.
Varlının torpağından çay keçər, kasıbınkından yol.
Varlının xoruzu da yumurtlayar.
Varlının çörəyi kasıbın çənəsini yorar.
Varsa əgər hünərin, hara getsən var yerin.
Varını verənin kisəsi boş qalar.
Vaxt atlı, biz piyada.
Vaxt vaxtı gözləyər.
Vaxt qənimətdir.
Vaxt qızıldır, bir dəqiqəsini də boş qoymaq olmaz.
Vaxt ikən oxu, aşıq, el gələr, tünlük olar.
Vaxt insana hər şeyi öyrədər.
Vaxtdan gileylənmə, vaxtın gedər.
Vaxtı boş olanın sözü çox olar.
Vaxtı itirsən hədər, görərsən böyük zərər.
Vaxtın qiyməti yoxdur.
Vaxtın qiyməti puldan bahadır.
Vaxtında atılan tüfəngin səsi vaxtsız atılan topun səsindən üstündür.
Vaxtında görülməmiş iş həmişə görülməmiş qalar.
Vaxtını itirən bəxtini itirər.
Vaxtsız açılan gül tez solar.
Vaxtsız banlayan xoruzun başını kəsərlər.
Vaxtsız qonaq öz kisəsindən yeyər.
Ver abbasını, ye halvasını.
Verdiyi abbasıya bax, etdiyi tələbə.
Verdiyi anda bax, gördüyü işə.
Verdiyin əl ilə al!
Verdiyin iki şahı, zərbaf çıxmayacaq ki!
Verdiyin sənindir, vermədiyin özgənin.
Verdim bir dana, aldım bir sona, ay qız anası, qal yana-yana
Verdin – doydur, vurdun – yıx.
Verən əl alan əlin üstündə olar.
Verən əl ac qalmaz.

Verən əli də var, vuran əli də.
Verən əli hər kəs öpər.
Verəndə imam olur, alanda Şümür.
Verəndə elə verər, alanda belə alar.
Verəndə yaxşısan, verməyəndə pis.
Verərsən adındır, yeyərsən dadındır – dala qoyulanı it yeyər.
Verərsən ətdən-mətdən, işlərəm bərkdən-bərkdən, verərsən şordan-mordan, işlərəm ordan-burdan.
Verərsən pendir, eylərəm kəndir, verərsən aş, eylərəm baş.
Verib yaman olunca, verməyib yaman ol.
Verilən aşı yeyərlər.
Verim vara baxmaz.
Verim əli hamı əldən ucadır.
Verirlər – al , döyürlər – qaç.
Vermə nisyə, girməz kisəyə.
Vermədi Məbud, neyləsin Mahmud?!
Verməz doqquzu, yeyər toppuzu, verər otuzu.
Vədə xilaf olma.
Vədəsi bitmiş nökərin əcəli yetən ağası gərək.
Vəziri qarğa olanın ağzı zibillikdə olar.
Vəzifə daimi deyil.
Vəzndə yüngül, qiymətdə ağır.
Vələ gedən öküzün olsun, işə getməyən oğlun olmasın.
Vəsiyyət yüngüllükdür.
Vəsmə bol olanda qaşa da çəkərlər, gözə də.
Vətən viranə də olsa, cənnətdir.
Vətən elin evidir.
Vətən mülkü doğmadır, özgə diyar – ögey.
Vətənə gəldim, imana gəldim.
Vətənə məhəbbət iman əsəridir.
Vətəni yadına düşən qərib ağlamasın, neyləsin?
Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır.
Vətənin sevməyən insan olmaz, olsa, ol şəxsdə vicdan olmaz.
Vəfalı dost yad olmaz, görməsə yüz il səni.
Vicdan bazarda satılmaz.
Vicdanla işləyən gözükölgəli olmaz.
Vücudu dönüb kimyaya.
Vücudu bir qəpiyə dəyməz.
Vur babam, dövran sənindir.
Vur dedim, öldür demədim ki?
Vur deyənlə vuran şərikdir.
Vura bilməyən, daşın böyüyündən yapışar.
Vuran əlin var olsun!
Vuran elin dirəyidir.
Vuran igid dayısına baxmaz.
Vuran öküzə allah buynuz verməz.
Vuraram ölər, «kiş» deyərəm, getməz.
Vurur daşa, çıxır başa.
Vuruşun kor vuruşuna oxşamır.

Y

Ya bağ ətəyi, ya dağ ətəyi.
Ya bağ ayarpağı, ya quzuqulağı.
Ya bil, ya bir biləndən soruş.
Ya bu dəvəni güdməli, ya bu dünyadan getməli.
Ya vəlvələdən, ya zəlzələdən.
Ya dalına min, ya dalına mindir.
Ya dəvə ölər, ya dəvəçi, ya da üstündəki hacı.
Ya dəli, ya divanə, Bəhlul danəndə, Bəhlul divanə.
Ya dövlət başa, ya quzğun leşə.
Ya əlimi kəs, ya ətəyimi.
Ya zor, ya zər, ya şəhərdən səfər.
Ya keçəl Həsən, ya Həsən keçəl.
Ya Museyi Kazım, sənə demək nə lazım?!
Ya mən deyən, ya sən deyən.
Ya ölləm, ya qallam.
Ya ölüm, ya dirim.
Ya taxt, ya bəxt.
Ya tələf ollam, ya xələf.
Ya torba yırtılar, ya dağ arcıq.
Ya unçu ölər, ya dəyirmançı.
Ya üz, ya düz.
Ya hə, ya yox.
Ya cin, ya şeytan.
Ya şələ ləleni, ya lələ şələni.
ya lələ şələni basar, ya şələ ləleni)
Yaba ilə dovğa içdim.
Yabılarda qotur yabı mərd olar, yorulanda
yiyəsinə dərd olar.
Yabıya rəhm etməyən piyada qalar.
Yava itin yava da küçüyü olar.
Yavan ətin şorbası olmaz.
(Yavan ətin şorbası da yavan olar).
Yavaş gedən yorulmaz.
Yavaş gedən çox gedər.
Yağ acı olanda, plov da acı olar.
Yağ da yesə dirilməz, bal da yesə dirilməz.
Yağ içində böyrək kimi üzür.
(yağ içində üzür).
Yağ tapsa, başına yaxar.
(Yağ tapmısan? – Çək başına!)
Yağ yağ ilə qovuşar, yarmalar yavan qalar.
Yağ yaxşı yağdır, hayıf ki, it dərisindədir.
Yağ ye, yaxada gəz.
Yağı yağ üstündən tökür, yarmanı yavan qoyur.
Yağı od əridir, qarı – gün.
Yağın şorunu çıxardır, sözün şəkərini.
Yağış ilə yer göyərər, alqış ilə ər öyünər.
Yağış isladar, gün qurudar.
Yağış altından götürür, boran altına qoyur.
Yağış vurmuşun damcıdan nə qorxusu?
Yağış yağa-yağa küpünü doldur.
Yağış yağanda toyuğa su verməzlər.
Yağış yağar, yer doymaz.
Yağışdan qaçan doluya düşər.
Yağışdan qalanı yağmur apardı.
Yağışda düşmənin qoyunu, dostun atı satılsın.
Yağışdan çıxdıq, yağmura düşdük.
Yağışın yağması, evin damması, gəlinin
doğması.
Yağla yovşan da yeyilər.
Yağla yarma qovuşar, arada soğan büzüşər.
Yağmadı yağış, bitmədi qamış.
Yağmasa da guruldar.
Yad qızına uymazlar, yad qızı zavallı olar.
Yad qızına güvənmə, xətakar olar.
Yad gəlib qohum olunca, qohum yad olur.
Yaddan yoldaş olunca, yoldaş əldən gedər.
Yad qohum, ölənəcən yad olar.
(Yad qohum, ölənəcən yaddır).
Yaz bitirir, yay yetirir, payız gətirir, qış itirir.
Yaz var, qış var, nə tükənməz iş var.
Yaz əkinçi, qış dilənçi.
Yaz yağışı tez keçər.
Yaz yağışından bəlli, qız qardaşından.
Yaz kasıbın yorğan-döşəyidir.
Yaz getdi, qış gəldi, vay titrəmək dərdi.
Yaz gələr, qış gedər Ağaqulu, dəyirmana boş
gələr Ağaqulu, dul arvada xoş gələr Ağaqulu.
Yaz gələr, qış gedər, ördək gələr, qaz gedər,
hamı birləşib gəlsə, Balaxanım yalqız gələr.
Yaz gətirər, qış aparar.
Yaz günündə yola çıxsan, qış gününü gözünün
qabağına al.
Yaz günündə tərləməyən qış günündə titrəyər.

©2005 – Kopy hüqüqü məhfüzdur, Vəhid Gərüslı

Yaz günü – pendir çörək yarpıznan.
Yaza çıxartdıq dananı, bəyənməz oldu ananı.
Yazan da sən, pozan da sən, heç bilmirəm nəsən sən?
Yazanı özündən, pozanı özündən.
Yazana baxma, yazdığına bax.
Yazda arpa yeyən at, qışda ətini tökməz.
Yazda ayransız olma, qışda yorğansız.
Yazda başı bişənin qışda aşı bişər.
Yazda buza yerikləyən, qışda göbələyə yeriklər.
Yazda işləməyənin qışı sərt gələr.
Yazda yatan, qışda üşüyər.
Yazda oynayar, gülər, qışda acından ölər.
Yazda çalan, qışda oynar.
Yazdan qışa hazır ol.
Yazıq o adamdır ki, yaxşılıq etmir.
Yazıdan qaçmaq olmaz.
Yazılan pozulmaz.
Yazılmayan kitabı vərəqləməzlər.
Yazın hərəkəti, payızın bərəkəti.
Yay işini qışda gör, qış işini yayda.
Yay altında ox gizlədər.
Yay var, qış var, hələ çox iş var.
Yay qarı kimi nə yarıyıbsan hamıya?
Yay kasıbın həm atasıdır, həm də anası.
Yay gününün yağışı, qış gününün yavanlığıdır.
Yayda kölgədə yatan qışda qar üstə yatar.
Yayda kölgə xoş, qışda çuval boş.
Yayda yanan qışda dilənçilik eylər.
Yayda işləyən, qışda dişlər.
Yayda ayran tapmayan qışda yorğan tapmaz.
Yayda başı bişənin qışda aşı bişər.
Yayda səfərə çıxanda kürk görür.
Yayda kölgədə oturan, qışda ocaq axtarar.
Yayda hər divarın diri bir evdir.
Yayı çox çəkmə qırılar.
Yaylağın dağı sağ olsun, qalı da olar, qarsız da, igidin canı sağ olsun, varlı da olar, varsız da.
Yayın öz sözü var, qışın öz sözü.
Yayın tör-töküntüsü qışın azuqəsidir.
Yalan ayaq tutar, doğru bir yanda qalar.
(Yalan ayaq tutar, amma yeriməz).
Yalan danışan yanındakını qanmaz yerinə qoyar.
Yalan ilə dünyanı, gəzmək olar, amma qayıtmaq olmaz.
Yalan olmasa doğru yeriməz.
Yalan üz qaraldar.
Yalan cücərər, amma bitməz.
Yalanla plov bişsə, dəniz qədər yağı məndən.
Yalanın ömrü az olar.
Yalanın da əndazəsi var.
Yalanın axırı yoxdur.
Yalançı kimdir: – Hər eşitdiyini danışan.
Yalançı özünün düşmənidir.
Yalançı çox and içər.
Yalançının adına ad inanma.
Yalanınçını evinəcən qovarlar.
Yalançılıq üz qızardar.
Yalançının biridir.
Yalançının evi yandı, heç kəs inanmadı.
Yalançının ipi qısa olar.
Yalançının ipiylə quyuya düşən quyuda qalar.
Yalançının işığı yarıyacan yanar.
Yalançının yaddaşı olmaz.
Yalançının mənzili olmaz.
Yalançının sözünə inanma.
Yalvarmaqla donuz darıdan çıxmaz.
Yalqız qazıya gedən razı gələr.
Yalqız quş yuva salmaz.
Yalqız yeyən süfrəsini özü yığar.
Yalqız evin söhbəti.
Yalqız evin pişiyidir.
Yaldan tuta bilməyən quyruqdan heç tuta bilməz.
Yaman baş yiyəsinə donuz güddürər.
Yaman arvadlı evə daş düşsün.
Yaman arvadın evi cəhənnəmdir.
Yaman arvad, deyingən olar.
Yaman arvad çox danışar, danışmasa savaşar.
Yaman adamın başına daş salsan, çiyninə düşər.
Yaman adama heç nə olmaz.
Yaman yeyənin olsun, yaman deyənin olmasın.
Yaman yerdə axşamladıq!
Yaman günə səbr edən, yaxşı günə tez çatar.
Yaman günün ömrü az olar.
Yaman külahduzdan yaxşı palanduz yaxşıdır.
Yaman dirlikdən ölüm yaxşıdır.
Yaman qonşu adamı rusvay eylər.
Yaman olmasa, yaxşılığın qiyməti bilinməz.
Yaman olan arvad, ev-eşiyini qoyar gedər.
Yamanı yada salma.
Yaman oğul – yaman gəlin.
Yamanlığa yaxşılıq mərd kişinin işidir.

Yamanlığa yamanlıq eləmə.
Yamanlıq kimə lazım?
Yamanı yaman gündə.
Yanan yerdən tüstü çıxar.
Yanan da (qayınana) ana, yaman da (qayınana) ana.
Yanan anadır, yeyən qaynana.
Yan mənə, yanım sənə, qurban edim, canım sənə.
Yanan öz dərdinə yanar.
Yanğından çıxdıq, alova düşdük.
Yanğına körüklə getməzlər.
Yandırdığın şamı söndürmə.
Yanmış xırmanın buğdasıdır.
Yansın çırağı, gəlsin işığı.
Yanmayanda yanmaz, ha yellə, ha ətəklə
Yanlış hesab Bağdaddan qayıdar.
Yanında yatdı, palçığa batdı.
Yanığın nəyi var ki, yoluğa nə versin?
Yandırdığın yovşan, ovladığın dovşan.
Yar qadasın yar alar.
Yar dərdini yar çəkər.
Yar bizdən gecə getdi, bilmədim necə getdi.
Yar getdi, yeri qaldı.
Yar yarı görər, ürəyi odlanar.
Yanşağı cəhənnəmə atdılar, dedi: - Odunun yaşdır.
Yar mənimlə yar olsun, kol dibi diyar olsun.
Yara var bağlarlar, yara var dağlarlar.
Yara sağalar, yeri qalar.
Yaraqsız igid, buynuzsuz qoç kimidir.
Yaralı quşa daş atmazlar.
Yarı gör, özün danış, ev yıxar ara sözü.
Yarımadıq odundan, kor olduq tüstüsüdən.
Yarımadıq yarıtmazdan.
Yarası avand olanın təbibi qabağına çıxar.
Yarımçıq bilməkdən, heç bilməmək yaxşıdır.
Yarın qədrini yar bilər, nə bilər hər divanə.
Yarın yara sovqatı, bir dəstə bulaq otu.
Yarpaq altda gəzəndir.
Yat qara öküzüm, yat, borc verən gələr, ya səni aparar, ya məni.
Yatağan aslandan gəzəyən pişik yaxşıdır.
Yatan aslan olsa da, fürsət oyağındır.
Yatan daşın altına su keçməz.
Yatan ilanın quyruğunu basma.
Yatan iti oyatma (dindirmə).
Yatan öküzə yem yoxdur.
Yatanın ayıqdan xəbəri olmaz.
Yatar-yatar, başı şişər, duranda bitin axtarar, əti verər pişiyə, qonşunun itin axtarar.
Yatsan yuxuna da girməz.
Yatıb yuxuda halva görüb.
Yatmışı yatmış oyada bilməz.
Yatma kudu, bostana dovşan girib!
Yatmağa qaya kölgəsi, əgər ki marı olmasa...
Yaxşı ad dövlətdir.
Yaxşı adamın yaxşılığı dəyər dar gündə,
Yaman adamın yamanlığı, dəyər hər gündə!
Yaxını qoyub uzaqdan danışma.
Yaxşı adam yavan çörəyə dözər, yaman adamı yağlı çökər də üzər.
Yaxşı ata bir qamçı, yaman ata - min qamçı.
Yaxşı at köhnə çulun altında da bilinər.
Yaxşı at yemini artırar, yaman at qamçısını.
Yaxşı atları, yaxşı kişilər minib getdilər.
Yaxşı arvadlı ev cənnətdir.
Yaxşı arvad ərini bəy eylər, yaman arvad - zay.
Yaxşı qızdan yaxşı gəlin olar.
Yaxşı dost yaman gündə məlum olar.
Yaxşı dost qardaşdan əzəldir.
Yaxşı demişlər: hər şeyin xiridarı gərəkdir!
Yaxşı qəssab ətin yaxşısını axıra saxlar.
Yaxşı iş heykəl kimidir, hər yerdən görünər.
Yaxşı atadan pis oğul?!
Yaxşı it ələ düşməz.
Yaxşı igid dalı gözlər, yaxşı at qabağı.
Yaxşı igidin adını eşit, üzünü görmə.
Yaxşı işçi səliqəsindən bilinər.
Yaxşı işə allah zamindir.
Yaxşı əkinçi xərcini yerdən çıxardar.
Yaxşı elə yaxşıdır, çalış yamanı yaxşı elə.
Yaxşı dostları qılıncla da ayırmaq olmaz.
Yaxşı getməyincə qədri bilinməz.
Yaxşı ki, var yavan çörəyə dözər, yamanı yağlı xörək də üzər.
Yaxşı yoldaş yaman gündə tanınar.
Yaxşı, yoldaş gec tapılar.
Yaxşı yaxşılığın deyilir, yaman - nəyin deyilir?
Yaxşı yarağı var idi, Həmzəlidə qaldı.
Yaxşı-yaman, keçdi karvan.
Yaxşı-yaman, qoy cibinə, bərk saxla.

Yaxşı yalan, lap yalan, fili uddu bir ilan.
Yaxşı yoldaş uzun yolu qısaldır.
Yaxşı məsəl gözə girər.
Yaxşı mal öz-özünü işə verər.
Yaxşı mal yerdə qalmaz.
Yaxşı günün döş ağrısı, yaman günün diş ağrısı?
Yaxşı günün yoldaşı, yaman günə düşdüm, gəl!
Yaxşı gün cənnətdir, yaman gün cəhənnəm.
Yaxşı günə dözməyən yaman günə heç dözməz.
Yaxşı gündə yağlı çörəyi bəyənməyən, yaman gündə quru çörəyə salam verər.
Yaxşı gündə yad yaxşı, yaman gündə vay qardaş!
Yaxşı saxla adını, bədnamçılıq el gəzər.
Yaxşı övlad ata-ananın fərəhidir.
Yaxşı olarsa - allahdan, pis olarsa - şeytandandır deyərlər.
Yaxşı olanda - xanımdan, pis olanda - kənizdən.
Yaxşı ovçunun toruna ov öz ayağı ilə gələr.
Yaxşı oğul neylər ata malını?
«Yaxşı oğlan» kənd yerində yaxşı adama deməzlər.
Yaxşı məsləhət hər şeydən yaxşıdır.
Yaxşı şeylərin yolu tapdaq olar.
Yaxşı şeyə gül ki, başına gəlsin.
Yaxşı xörək qalınca, pis qarın yırtılsın.
Yaxşı hörmət dövlətdən yaxşıdır.
Yaxşı elə yaxşıdır.
Yaxşı timsal yüz yönsüz sözdən yaxşıdır.
Yaxşı tacir malın hamısını birdən bazara çıxartmaz.
Yaxşı söylə, yaxşı eşit.
Yaxşıya qoşulan çuvalına un doldurar.
Yaxşılıq qəribdir - tanınmaz.
Yaxşılıq qapı açar, məhəbbət bu qapıdan içəri girər.
Yaxşılıq və doğruluq, hər ikisi birdir.
Yaxşılıq bilməyən adam adam sayılmaz.
Yaxşılıq ayaq açıb gəzəndir.
Yaxşı ki, dünyada yaxşı varmış, yoxsa dünya tərk olardı yaman əlindən.
Yaxşıya yaxşı de, yaxşılığı artsın, yamana yaxşı de, yamanlığı qayıtsın.
Yaxşıya yaxşı deyərlər, yamana - yaman.
Yaxşılıq yaxşılıq gətirər, yamanlıq nəyə gərəkdir?
Yaxşılıq itməz.
Yaxşılıq istəyən qabaqca behin verər.
Yaxşılıq iki tərəfli olar.
Yaxşılıq elə ki, başına gəlsin.
Yaxşılıq elə, at dəryaya, balıq bilməsə, xaliq bilər.
Yaxşılıq elə, minnət qoyma.
Yaxşılıq edən yaxşılıq görər.
Yaxşılıq eləyib bir şey umursansa etməsən yaxşıdır.
Yaxşılığı bilməyənə yaxşılıq etmə.
Yaxşılığın əcri (əvəzi) gələr.
Yaxşıları yer tanıyar.
Yaxşılığa yaxşılıq hər kişinin işidir.
Yamanlığa yaxşılıq mərd kişinin işidir.
Yaxşılığa yaxşılıq - kor eşşəyə samanlıq.
Yaxşılığa yaxşılıq elə, pisliyə pislik eləmə.
Yaxşılığa yamanlıq olmasaydı, qara öküzə bıçaq olmazdı.
Yaxşılıq yerdə qalmaz.
Yaxşılıq yolunu göstərən adam yaxşılıq edən adama bərabərdir.
Yaxşını yada vermə - hayıfdır, yamanı yada vermə - ayıbdır.
Yanındakı ələf, uzaqdakı arpadan yaxşıdır.
Yaxına ərinir, uzağa yüyürür.
Yaxın yerə yük daşıyır.
(Yaxın dəyirmana yük daşıyır).
Yaş ağac tez əyilər.
Yaş kəssən, baş kəssən, quru yaşar.
Yaşı yetmiş işi bitmiş.
Yaşayarıq, görərik!
Yaxşı nə, başı nə!
Yaşa-yaşa - gör tamaşa.
Yaş yaşadıqca, ağıl başa gələr.
Yaş odun satmayıbsan ki, niyə qorxursan?!
Yaş da quru oduna yanar.
Yaşından qabaq danışma.
Yaşını çevirərlər, qurusunu yığarlar.
Yaşına baxma, başına bax.
Yaşılbaş göllərdə üzər.
Yaşı çox, ağlı yox.
Yaşına-yaşına çıxdı ocaq başına.
Yeddi ayda bir qarış, bir ayda yeddi qarış?!
Yeddi arxın suyunu bir arxa calayır.
Yeddi qonşu bir qazana möhtacdır.
Yeddi qurda bir çarıq neyləsin?
Yeddi göydə bir ulduzu yoxdur.

Yeddi məhəllədən qovulmuş it kimidir.
Yeddi məhəlləyə çörək verir.
Yeddi molla, bir əmmamə!
Yeddi fərsiz oğuldan bir fərli qız yaxşıdır.
Yeddisinə «Gülüstan»ı oxuyan, yetmişində başa düşər.
Yeddisində nə idi isə, yetmişində də odur.
Yediyin özün üçün qalsın, gördüyündən danış.
Yezidin Şamə getməsi doğru oldu.
Yeyən bilməz, doğrayan bilər.
Yeyən qurtardı, yalayan qurtarmadı.
Yeyəndə çeynə, danışanda fikirləş.
Yeyərsən qaz ətini, görərsən ləzzətini.
Yeyərsən qüvvətin artar, verərsən hörmətin.
Yeyərsən qismətindir yeməzsən - özün bilərsən.
Yeyərsən şordan-mordan, işlərsən ordan-burdan,
yeyərsən ətdən-mətdən, işlərsən bərkdən-bərkdən.
Yeyib-içib, dünyadan kəm köçüb.
Yeyib-içib, əzizləri yadına düşüb.
Yeyin gedən yol kəsməz.
Yeyin at özünə qamçı vurdurmaz.
Yeyilənim yeyilir, qonağım küsülü gedir!
«Yeyirsən?» - xəstəyə deyərlər.
Yekə başın faydası yoxdur, içində beyin gərək.
Yel aparan yelinki, yerdə qalan mənimki.
Yel belə əssə, balta belə kəssə, vay mənim halıma.
Yel vurur, çalır, yengələr oynayır.
Yel qayadan nə aparar?
Yel əsəndə yellənər, yol görəndə yollanar.
Yel əsib, qoz tökülüb.
Yel ilə gələn, sel ilə gedər.
Yel üfürdü, su köpürdü.
Yelə tüpürən üzünə tüpürər.
Yeməyənin malını yeyərlər, ölüsünü də söyərlər.
Yeməklə doymadın, yalamaqla doyacaqsan?
Yeməyin qulu, işləməyin xəstəsi olma.
Yeməyin dadı duzdadır, dünyanın dadı gözdə.
Yeməyin ustası, işləməyin xəstəsi.
Yeməyini yalnız yeyən, yükünü özü qaldırar.
Yeməlidir saxla, yeməli deyil tulla.
Yeməmisən qaz ətini, nə bilərsən ləzzətini?!
Yeməsə əlli il bəsdir.
Yemiş vaxtı xırçının qulaqları kar olar.
Yemlik imiş, duz imiş, sən də batır, sən də ye.
Yemsiz torbaya at gəlməz.
Yer ayrılsaydı, yerə girərdim!
Yer altından yasa gedənlərdəndir.
Yer bəyin, yurd xanın, işlə ha çıxsın canın.
Yer var danışarlar, yer var sözü udarlar.
Yer qatı, göy qatı, hardan oldu, avandı?
Yer qulaqlı olar.
(Yerin qulağı var).
Yer yarılsa, yerə girərəm.
Yer yiyəsiz olanda, donuz təpəyə çıxar.
Yer oturan kişi ilə şərəflənər.
Yerdə yatan yumurta, göydə uçan quş olar.
Yerdən göbələk çıxmayıb ki?!
Yerdən göyə küp düzsələr, bir-birinə bənd etsələr, altdan birini çəksələr, gəl onda gupbultuya bax.
Yerə vurdun, başıma vurdun!
Yerə düşməklə gövhər qiymətdən düşməz.
Yeriyən at yemini özü artırar.
Yerin altını da bilir, üstünü də.
Yerim dardır, oynaya bilmirəm.
Yerin yeddi qatından keçir.
Yerişinə haram qatma.
Yerlər o yerlər, görünməz oldu ellər.
Yerli, yersiz - sizdən yeyirik.
Yersiz gəldi, yerli qaç.
Yetənə yetir, yetməyənə daş atır.
Yetim ağlağan olar.
Yetim qızsan, qıvrıl yat.
Yetim yerə baxar, ürək yaxar.
Yetim malı oddan yaman yandırar.
(Yetim malı oddur, yandırar).
Yetimə dedilər: - Kimi sevirsən?
edi: - Mənə çörək verəni!
Yetimə öyüd verən çox olar, çörək verən az.
Yetimi doydur, nə olacağını düşünmə.
Yetimin ağzı aşa çatanda, başı daşa dəyər.
Yetimin hamamda anası çox olar.
Yetmiş qabdan su içib.
Yetmiş iki dərədən su gətirər.
Yəhər ata yük olmaz.
Yəhər atın belində həmişə qalmaz.
Yəhər gah atın belində gəzər, gah at yiyəsinin.
Yiyəsi olan eşşəyi qurd yeyər.
Yiyəsinə baxarlar, atını nallarlar.

Yiyəsinə baxıb, mıxını çalıb.
Yiyəsini sevən itinə çörək verər.
Yığma dən üçün xırman açılmaz.
Yığılaq biz araya, məlhəm qoyaq yaraya.
Yırtıq böyük, yamaq kiçik.
Yırtıcı aslan zülmkar şahdan yaxşıdır.
Yırtıcı quş dimdiyindən bəllidir.
Yırtıcı quşun ətin yeməzlər.
Yırtıcı quşun ömrü az olar.
Yıxıl dünya bas məni, gözüm görməsin səni.
Yıxılan ağaca balta çalan çox olar.
Yıxılan yıxıldığı yerdən qalxar.
Yıxılan yıxılana yoldaş olar.
Yıxılana xəncər qaldırmaq namərdlikdir.
Yıxılanı vurmazlar.
Yıxılanın qanlısıdır.
Yıxılanın dostu olmaz.
Yıxılmasa dikəlməz.
Yovşan olub arxanda dovşan yatınca, palıd ol kölgəndə sürü yatsın.
Yovşan bəsləməklə çəmənzar olmaz.
Yol üstə oturmazlar.
Yol bilmirsən, yola gəl.
Yol böyüyündür, su kiçiyin.
Yol haramısı ol, yoldaş haramısı olma.
Yol həmişə bostan kənarından düşməz.
Yoldaş yoldaş ilə tən gərək, tən olmasa gen gərək.
Yoldaşı evdən götür, quşu – yuvadan.
Yoldaşı yolda tanı.
Yoldaşı yoldaşdan soruşarlar.
Yoldaşın sözünə inan, özünkündə dayan.
Yoldaşın qarğa olsa, yediyin nə olar?
Yoldaşın yaxşı olsa, uzun yol yaxın olar.
Yoldaşını mənə de, sənin kim olduğunu deyim.
Yol ilə gedən yorulmaz.
Yol yeriməklə alınar.
Yola bələd olan büdrəməz.
Yola körpü sal.
Yola çıxan yolda qalmaz.
Yolda yoldaş, evdə qardaş.
Yoldan qal, yoldaşdan qalma.
Yoldan irəli – yoldaş, evdən irəli – qardaş.
Yoldan keçənə yumaq sarıtdırır.
Yoldan çıxır, yolunu azmır.
Yoldan çıxmaq eyib deyil, yola gəlməmək eyibdir.
Yoldan çıxsan, eldən çıxma.
Yollar-yamaclar sürülərin dırnağıdır.
Yolsuzu yola tapşır.
Yolu yaxın – yükü yüngül.
Yolu qardaşla kəsərlər, meşəni – mişarla.
Yolun boş olmasın.
Yolunu su ilə başlar.
Yoluxda nə var, qırığa nə versin.
Yolçu yolda gərək.
Yolçudan yolçuya pay düşməz.
Yolçuya yol gərək, qurbağaya – göl.
Yolçuluğa (dilənçiliyə) gedən torbasının çiyninə atar.
Yolçunu yoldan eləməzlər.
Yorğa at da hərdən büdrər.
Yorğan-döşək sözü, yorğan-döşəkdə qalar.
Yorğanına bax (görə) ayağını uzat.
Yorğun eşşəyə «hoşa» xoş gələr.
Yorğunluğu o dünyada alacaqsan.
Yorulmuş ata qamçı vurarsan, şıllaq atar.
Yorulmuş eşşək mənzili yaxın istər.
Yorulmuş öküz «oho»nu allahdan istər.
Yox yerdən Əzrail də can ala bilməz.
Yox yerdən istəməzlər.
Yox olsun yoxsulluq, varlığa – nə darlıq?!
Yoxa qələm işləməz.
Yoxa çarə yoxdur.
Yoxdan allah da bezardır.
Yoxdan bir şey çıxmaz.
Yoxdur, canım rahatdır.
Yoxsul arpa tapar, saxlamağa yer tapmaz.
Yoxsul, oduna da yoxsul, suya da yoxsul?
Yoxsul öz vilayətində qəribdir.
Yoxsulluq varlılıqdan yaxşıdır.
Yoxsulluq ilə qocalıq düşüb bir yerə.
Yoxsulluğa düşməyən varlılığın qədrini bilməz.
Yoxsulun dili gödək olar.
Yoxsulun evində dəmir tapılmaz, itinin adını gümüş qoyar.
Yoxsulun (yoxun) üzü qaradır.
Yuvanı erkək quş tikər.
Yuyucu deyər: – Mürdəşirəm, yuyuram, istər ölü cənnətə getsin, istər cəhənnəmə.
Yumru qaya, yumru daş, keçəl baş.

Yumurta gətirmir, qayğanaq istəyir.
Yumurta toyuğun cəriməsidir.
Yumurtada tük bitməz.
Yumurtadan yun qırxır.
Yumurtana görə qaqqılda.
Yumurtanı halqadan keçirdir.
Yumurtlamadı, falını da yedi?
Yumurtası tərs düşüb.
Yumşaq döşək salan, axırda quru yerdə yatar.
Yun darayaram kələf olar, qız doğaram xələf olar.
Yunu var, unu yox.
Yurddan çıxsan da, eldən çıxma.
Yurdumun, millətimin ağ gününü görməyənin, başqa bir söz demirəm – gözlərinə qan gəlsin.
Yusif bazarıdır, hər kəsin mətahı varsa, gətirsin.
Yuxarı baxıb qəm eyləyincə, aşağı baxıb dəm eylə.
Yuxarı başda yer yoxdur, aşağı başda oturmur.
Yuxarı evə baxıb, aşağı evi yıxma.
Yuxarı tüpürürəm – bığ, aşağı tüpürürəm – saqqal.
Yuxarıda allah, aşağıda sən.
Yuxu, yuxu gətirər.
Yuxu ölümün qardaşıdır.
Yuxuda balıq görən, yastığının altını yoxlar.
Yuxuda gözəl görmək yaxşıdır, oyanmaq olmasaydı.
Yuxuya etibar yoxdur.
Yuxusu ağır adamdır.
Yuxusunda da görsə xeyrə calamaz.
Yüz biliyin olsa da, bir bilənlə danış.
Yüz birə qoşulmaz, bir yüzə qoşular.
Yüz «vur» deyəndən bir vuran yaxşıdır.
Yüz qayğı bir borcu ödəməz.
Yüz eşitməkdən bir görmək yaxşıdır.
Yüz iynə yığsan, bir çuvalduz olmaz.
Yüz il gərək qanqal otlayasan ki, ağzın dəvə ağzına oxşasın.
Yüz il sel gəlsə ovmaz, bir gün dərd gəlsə – ovar.
Yüz ilin ibadətindən bir günün səxavəti.
Yüz mamaça yığılsa, gün doğana düşər.
Yüz namərd bir mərdə qurban olsun!
Yüz namərd bir mərdi əvəz etməz.
Yüz namərdin çörəyin doğrasan, kasa dolmaz.
Yüz olsun, düz olsun.
Yüz ölç, bir biç.
Yüz soraqdan birinə hay vermir.
Yüz xəlbirlənib bir əldən çıxacaq.
Yüyürən – büdrər.
Yüyürən yıxılmağına baxmaz.

Z

Zalıma rəhm etmək, məzluma zülm etməkdir.
Zalımın zülmü yadında qalmaz.
Zalımın ömrü az olar.
Zaman axıb gedir, amma hər işini qurtarıb getmir.
Zaman bir nəhrdir axar, durmaz.
Zaman zamana uymaz.
Zaman ilə hesablaşmaq gərək.
Zaman keçər, söz qalar.
Zaman pul deyil, onu qaytarmaq olmaz.
Zaman səbirlidir.
Zahid buraxıb məscidi meyxanəyə gəlməz.
Bayquş yaranandan bəri viranə üçündür.
Zatı qırıqdır.
Zatına da, südünə də bələdəm.
Zahid məni aldatma, cəhənnəmdə od olmaz, onlar ki, yanırlar, odu burdan aparırlar.
Zahidin bir barmağın kəssən, dönər haqqdan qaçar!.
,Zahirdən batinə yol var.
Zahiri gözəllik müvəqqətidir.
Zahiri gözəl, batini-çirkin.
Zəlzələni görən yanğına razı olar.
Zəmanə adamı deyil.
Zəmanə adamı öyrədir.
Zəmanə dəyişdikcə adamlar da dəyişir.
Zəmanə ilə hesablaşmaq gərəkdir.
Zəmanəyə uymaq gərək.
Zənburun dəvəsidir.
Zəngbar talanı deyil ki?!Zər qədrini zərgər bilər.
Zər ilə olan, zor ilə olmaz.
Zərd bəzərəkdən (kətan toxumundan) yağ çıxardar.
Zərər zəhərdən acı olar.
Zərər oddan yamandır.
Zərərdən qorxan dükan açmaq.
Zərərdən qorxan xeyr görməz.
Zərərin bir başı var.
Zərərin yarısından qayıtmaq da xeyirdir.
Zəri də var, zoru da.
Zərgər dükanının tozu da qızıl olar.
Zərlə gözəllik almaq olmaz.
Zərrə qədər iman, dünya qədər günah.
Zərurət insana hər şeyi öyrədər.
Zərrəcə eşqi olanın dəryaca tabı gərək.
Zəhər zəhəri öldürər.
Zəxirəsin (ərzağın) fikr eyləyən peşiman olmaz.
Zəhər gələndə acı qaçar.
Zəhmət yemək istəmir, amma özü yedirdir.
Zəhmət olan yerdə qeybət olmaz.
Zəhmət-torpaqda, nemət-süfrədə.
Zəhmət çəkən bal yeyər.
Zəhmət çəkməyən rahatlığın qədrini bilməz.
Zəhməti məşşatə çəkər, ləzzəti damad aparar.
Zəhmətlə yeyilən acı soğan, minnətlə yeyilən baldan şirindir.
Zəhmətsiz iş olmaz.
Ziyan ağudan acıdır.
Zimistan çəkməyən bülbül baharın qədrini bilməz.
Zindan olub altda qalmaqdansa, çəkic ol, üstdə ol.
Zindana səbr eyləyən, axır taxta çıxar.
Zirəyə getdin çörək götür, Zirədən çıxdın ayaq götür.
Zirək quş dimdiyindən tələyə düşər.
Zirəklik comərdlik gətirər.
Zirəm sənə su verrəm, bu gün verrəm, sabah verrəm, özüm billəm.
Zirəni Kirmana aparır.
Zopa doğrusunu dedirdər.
Zor qapıdan girəndə, dad bacadan çıxar.
Zor ilə köpək sürüyə getməz.
Zor ilə gözəllik olmaz.
Zor gələndə qanun qaçar.
Zor oyunu pozur.
Zora dağlar dayanmaz.
Zora xanların da borcu var.
Zorlu-zorlu, çaxmaqdı, qozdu, əvvəldən eşqi vardı indi vurdu soyudu.
Zorən təbib olmaz.
Zorla gedən köpək qoyuna fayda verməz.
Zehnim kor olub.
Zurna görür-zurnaya yapışır, dəf görür-dəfə.

Zurnada pişro olmaz, bəxtinə nə çıxsa çal.
Zurnanı versən naşı əlinə, gen tərəfdən püfləyər.
Zurnanın səsi uzaqdan xoş gələr.
Zurnaçı dəfli olar.
Zurnaçı zorunu püfünə verər.
Zurnaçı oğlu zurnaçı olar.
Zurnaçının göz nəyinə gərək?Zülm ərşə
dayanıb!Zülm yerdə qalmaz.
Zülm ilə abad olan, bir gün gələr bərbad olar.
Zülm ilə bərbad olan, ədl ilə abad olar.
Zülmət daşıdır: götürən də peşmandır,
götürməyən də.
Zülmün axırı olmaz.
Zınqırovlu dəvə itmək.
Zınqırovu pişiyin boynuna kim asacaq?